khazar-view.org


dekabr - 2011

302

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU




"XƏZƏR"DƏ
YENİ İL
ŞƏNLİYİ

SURAXANI və SABUNÇU RAYONLARININ TƏHSİL RƏHBƏRLƏRİ "XƏZƏR"DƏ




Hamlet İsaxanlı
Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri

Noyabrın 24-də Suraxanı və Sabunçu rayonları icra hakimiyyətlərinin təhsil üzrə rəhbərləri, məktəb direktorları və onların müavinləri ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitet rəhbərliyinin görüşü keçirildi. Görüşü giriş sözü ilə universitetin rektoru professor Con Rayder açaraq, Mərmər salona toplaşanları salamladı və sözü H. İsaxanlıya verdi. H. İsaxanlı Xəzər Universiteti haqqında geniş məlumat verərək, son illər dünyada, Azərbaycanda və Xəzər Universitetində təhsil sahəsində görülən işlərdən danışdı.

Universitetin Qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı universitetin fakültələri və yeni yaradılmış Xəzər Universiteti Hazırlıq Mərkəzi haqqında geniş və dolğun məlumat verdi.

Görüşdə iştirak edən Suraxanı Rayon İcra Hakimiyyətinin təhsil, səhiyyə və mədəniyyət şöbəsinin müdiri Barxudar Barxudarov, Suraxanı rayonundakı 275 saylı tam orta məktəbim direktoru Elmira İsmayılova və 285 saylı tam orta məktəbin direktoru Malik Qurbanov, Sabunçu rayonundakı 68 saylı tam orta məktəbin direktoru Təhməz Eyvazov və 155 saylı tam orta məktəbin direktoru Zöhrə Məmmədova və digərləri çıxış edərək, maraqlı görüş üçün Xəzər Universitetinin rəhbərliyinə təşəkkür etdilər. Sonda H.İsaxanlı görüş iştirakçılarının suallarını cavablandırdı və onlara dərin təşəkkürünü bildirdi. Xəzər Universiteti adından qonaqlara hədiyyələr təqdim olundu və onların şərəfinə çay süfrəsi təşkil edildi.



Barxudar Barxudarov
Suraxanı Rayon İcra Hakimiyyətinin təhsil, səhiyyə və mədəniyyət şöbəsinin müdiri



Elmira İsmayılova
275 saylı tam orta məktəbin direktoru



Zöhrə Məmmədova
155 saylı tam orta məktəbin direktoru



Malik Qurbanov
285 saylı tam orta məktəbin direktoru



Təhməz Eyvazov
68 saylı tam orta məktəbin direktoru

YASAMAL, NƏSİMİ və QARADAĞ RAYONLARININ TƏHSİL RƏHBƏRLƏRİ "XƏZƏR"DƏ



Con Rayder

Xəzər Universitetinin rektoru

Noyabrın 30-da Yasamal, Nəsimi və Qaradağ rayonlarının icra hakimiyyətlərinin təhsil üzrə rəhbərləri, məktəb direktorları və onların müavinləri Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitet rəhbərliyi ilə görüşdülər. Görüşü giriş sözü ilə universitetin rektoru professor Con Rayder açaraq, salona toplaşanları salamladı və sözü H. İsaxanlıya verdi. H.İsaxanlı Xəzər Universitetinin inkişaf yolları haqqında geniş məlumat verdi, görülən işlərdən və problemlərdən danışdı.

Xəzər Universiteti Qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı universitetin fakültələri və yeni yaradılmış Xəzər Universiteti Hazırlıq Mərkəzi haqqında məlumat verdi.

Görüşdə iştirak edən Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Şahin Məmmədov, Nəsi-



Xalid Kərimov

Nəsimi rayon icra hakimiyyəti təhsil, sahiyyə və məzəmiyyət şöbəsinin müdiri



Hürzad Verdizadə

14 saylı tam orta məktəbin direktoru



Sabir Məmişov

20 saylı tam orta məktəbin direktoru



Ceyhun Bayramov

21 saylı tam orta məktəbin direktoru



mi Rayon İcra hakimiyyəti Təhsil, səhiyyə və mədəniyyət şöbəsinin müdiri Xalid Kərimov, Yasamal rayonundakı 20 saylı tam orta məktəbim direktoru Sabir Məmişov, 21 saylı tam orta məktəbin direktoru Ceyhun Bayramov, Nəsimi rayonundakı 152 saylı tam orta məktəbin direktoru Gülara Verdiyeva, 14 saylı tam orta məktəbin direktoru Hürzad Verdizadə, Qaradağ rayonundakı 184 saylı tam orta məktəbin direktoru Telman İbişov; Bakı Atatürk Liseyinin müdir müavini Vidadi Umudlu və digərləri çıxış edərək, maraqlı görüş üçün Xəzər Universitetinin rəhbərliyinə təşəkkür etdilər. Sonda H.İsaxanlı görüş iştirakçılarının suallarını cavablandırdı və gələnlərə dərin təşəkkürünü bildirdi. Xəzər Universiteti adından qonaqlara hədiyyələr təqdim olundu və onların şərəfinə çay süfrəsi təşkil edildi.



Şahin Məmmədov

Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini



İsaxan İsaxanlı

Qəbul və tələbə şöbəsinin müdiri

Gülara Verdiyeva

152 saylı tam orta məktəbin direktoru





Telman İbişov

184 saylı tam orta məktəbin direktoru

Vidadi Umudlu

Bakı Atatürk Liseyinin müdir müavini





SƏBAİL RAYONUNUN TƏHSİL RƏHBƏRLƏRİ "XƏZƏR"DƏ



Səbail Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov H.İsaxanlıya xatirə hədiyyəsi təqdim edir



Ələvsət Əmirbəyli

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru



Dekabrın 2-də Xəzər Universitetində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitet rəhbərliyi ilə Səbail rayonunun məktəb direktorları və onların müavinlərinin görüşü keçirildi. Görüşdə Səbail Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov iştirak edirdi.

Görüşü H. İsaxanlı açaraq, universitet haqqında geniş məlumat verdi, son illərdə Azərbaycanda və dünyada təhsil sahəsində həyata keçirilən yeniliklərdən, həmçinin Xəzər Universitetində görülən müvafiq işlərdən danışdı.

Xəzər Universitetinin Qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı universitetin fakültələri və yeni yaradılmış Xəzər Universiteti Hazırlıq Mərkəzi haqqında ətraflı məlumat verdi. Universitetin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli Xəzər Universitetinin keçirdiyi tədbirlərdə Bakı məktəblərinin fəal iştirakından danışdı.

Görüşdə Səbail Rayon İcra Hakimiyyətinin başçısı A. Əsgərov çıxış edərək, Xəzər Universitetinin Azərbaycan təhsilindəki yerini yüksək qiymətləndirdi. Universitetin bu gün gördüyü işlərin təhsilimizə böyük töhfə olduğunu vurğuladı və bundan sonra geniş əlaqələrin vacibliyini qeyd etdi. Sonda H.İsaxanlı görüşdə iştirak edənlərə təşəkkürünü bildirdi. A. Əsgərov Səbail rayon ictimaiyyəti adından H.İsaxanlıya xatirə hədiyyəsi təqdim etdi. Qonaqların şərəfinə ziyafət təşkil olundu.

"ŞÜKRAN GÜNÜ" QEYD EDİLDİ



Noyabrın 24-də Xəzər Universitetində Amerika Birləşmiş Ştatlarının ən böyük bayramlarından biri - Şükran günü (Thanksgiving Day) qeyd edildi. Ziyafəti universitetin rektoru professor Con Rayder açaraq, Şükran gününün Amerikada nə qədər əhəmiyyətli olduğundan danışdı, bayramın özəllikləri haqqında geniş məlumat verdi. Yemək süfrəsinə Amerika-Azərbaycan mətbəxlərinin ortaqlığında hazırlanmış ənənəvi hinduşkalar gətirildi və nümayiş etdirildi. (Amerika Prezidentindən fərqli olaraq, ziyafət iştirakçıları hinduşkaları "əfv" etmədilər, onları yeməklə bayramı qeyd etdilər). Ziyafətdə universitetdə çalışan və təhsil alan amerikakılar iştirak edirdilər. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xarici əlaqələr üzrə prorektor professor Fərda Əsədov, Ege Universitetinin professoru Ahmet Arslan və digərləri sağlıqlar söylədilər. Xatirə şəkilləri çəkildi

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN MƏŞĞƏLƏSİ 51



Dekabrın 9-da Xəzər Universitetinin Mərkəz kampusunda "Elm və Sənət məclisi"nin 51-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı. O, məclisə toplaşanları salamlayaraq, "Əbu Hamid əl-Qəzali: tarix və bu gün" mövzusunun müzakirə ediləcəyini bildirdi və məruzəçi – Xəzər Universitetinin dəvəti ilə tələbələrə islam fəlsəfəsi haqqında mühazirələr oxuyan Ege Universitetinin (Türkiyə) professoru Ahmet Arslan haqqında geniş məlumat verdi. Ahmet Arslan mövzu ilə bağlı çox maraqlı məruzə etdi. Məruzədən sonra müzakirələr başlandı. Müzakirələrdə Halis Koyuncuoğlu (Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri), Con Rayder, Aydınxan, Mail Yaqubov, İsaxan İsaxanlı (Xəzər Universiteti), Mais Güləliyev (AMEA-nın Şərqşünaslıq İnstitutu), Əli Fərhadov (Tarix Muzeyi), Niyazi Mehdi, İradə Zərdabəli, Mətanət Səkixanova (AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu) və digərləri çıxış etdilər. H. İsaxanlı məclisə yekun vuraraq, məruzəçiyə və iştirakçılara təşəkkür etdi. Sonda xatirə şəkli çəkildi

FRANSALI MÜĞƏNNİ "XƏZƏR"DƏ







Noyabrın 25-də fransalı müğənni, Paris konservatoriyasının professoru Jan Fransis Monvois (Jean Francis Monvois) və Azərbaycanın əməkdar artisti Fidan Hacıyeva universitetin Mərmər salonunda Humanitar və sosial elmlər fakültəsinin dördüncü kurs tələbəsi Elvin Əliyev, İqtisadiyyat və menecment fakültəsinin ikinci kurs tələbəsi Anna Məlikova və həmin fakültənin məzunu Bahar Fərzullayeva, xor və vokal müəllimi Məhsəti Cabbarova ilə açıq dərs keçdilər. Dərsdə universitetin rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak edirdilər.

J. F. Monvois Bakıya J. Bizenin "Karmen" operasında Xose rolunu ifa etmək üçün dəvət olunmuşdu və açıq dərsdən bir gün əvvəl – noyabrın 24-də tamaşa M. F. Axundov adına Opera və Balet Teatrında göstərilmişdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları salamladı və universitetin dəvətini qəbul edərək açıq dərs keçirmək üçün gəldiklərinə görə onlara minnətdarlıq bildirdi.

Açıq dərsdə Avropa və Azərbaycan bəstəkarlarının əsərləri ifa olundu. Pianoda universitetin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova müşayiət edirdi. J. F. Monvois Fransa vokal məktəbinin özünəməxsus xüsusiyyətlərindən danışdı və dərsdə vokal texnikasına xüsusi diqqət yetirildi. F. Əmirovun "Sevil" operasında Gülüşün rolunu ifa edən F. Hacıyeva Anna Məlikovanın ifasında Gülüşün ariozasını dinlədi və tövsiyələrini verdi. J. F. Monvois dərsə qatılanların ifasını yüksək qiymətləndirdi.

Açıq dərsdən sonra J. F. Monvois və Fidan Hacıyevanın ifasında "Be Mu Love" dueti səsləndi. Sonra F. Hacıyeva Xəzər Universitetinin xor kollektivi ilə birgə Ü. Hacıbəylinin "Koroğlu" operasından "Xanəndə qızın mahnısı"nı ifa etdi.

Qonaqların şərəfinə çay süfrəsi təşkil olundu, onlara hədiyyələr təqdim edildi. Xəzər Universitetinin rektoru professor Con Rayder açıq dərsə və eksklüziv konsertə görə qonaqlara təşəkkürünü bildirdi.



XALQ YAZIÇISI ÇİNGİZ ABDULLAYEVLƏ GÖRÜŞ



Dekabrın 7-də Xəzər Universitetinin Kitab klubunda müəllim və tələbələrin xalq yazıçısı Çingiz Abdullayev ilə görüşü keçirildi. Kitab klubunda yazıçının kitablarından ibarət sərgi də təşkil olunmuşdu. Görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, görkəmli yazıçını universitet əməkdaşları və tələbələri adından salamladı. Çingiz Abdullayev də öz növbəsində görüşə gələnləri salamladı, onları yaradıcılığından, kitablarından, əsərlərindən qısaca olaraq məlumatlandırdı. Tələbələr və müəllimlər yazıçıya şəxsi həyatı, əsərləri və əsərlərində yaratdığı müxtəlif obrazlarla bağlı bir-birindən maraqlı suallar verdilər. Çingiz Abdullayev böyük həvəslə sualları cavablandırdı və söylədi ki, sizinlə görüşə ikinci dəfə də məmnuniyyətlə gələrdim. Sonda yazıçı oxucuları üçün kitab imzaladı və xatirə şəkilləri çəkildi.

POLŞA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ



Dekabrın 7-də Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mikal Labenda (Michal Labenda) Xəzər Universitetində olaraq, rektor Con Rayder və Siyasi elmlər və beynəlxalq münasibətlər direktoru Riçard Russou (Richard Rousseau) ilə görüşdü. Sonra səfir universitet tələbələri üçün "Polşanın Avropa Birliyində sədrliyi" mövzusunda mühazirə oxudu. O, Avropa Birliyinin fəaliyyəti haqqında ətraflı danışdı və Avrozona ölkələrində cari siyasi və iqtisadi problemləri təhlil etdi. Mühazirədən sonra maraqlı və qızğın müzakirələr aparıldı və səfir tələbələrin suallarını cavablandırdı. Sonda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı səfiri qəbul etdi.

AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNÜNƏ HƏSR OLUNMUŞ KONFRANS

Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin və BMT-nin İnkişaf Proqramının birgə təşkilatçılığı ilə dekabrın 7-də Hilton otelində "Bizim müstəqilliyimizin 20-ci ildönümü" adlı konfrans keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da həmin konfransda iştirak etdi.





LİSEYDƏ ƏDƏBİ-BƏDİİ MƏRASİM



Dekabrın 13-də Bakının Xətai rayonundakı 264 saylı liseydə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə "Riyaziyyat günü"nə həsr edilmiş ədəbi-bədii mərasim keçirildi. Mərasimi giriş sözü ilə liseyin müdiri Sevda Qocayeva açaraq, salondakıları salamladı və onları Hamlet İsaxanlıya həsr edilmiş "Bizim Hamlet "filminə baxmağa dəvət etdi. Salondakılar böyük həvəslə filmə tamaşa etdikdən sonra H. İsaxanlıya onları maraqlandıran suallarla müraciət etdilər. H.İsaxanlı onların çoxsaylı suallarını cavablandırdı.

(ardı səh.17-də)



Rəssam
Hafiz Yəhyayev

Rəssam
Elçin Axundov

Səh.56



MƏKTƏBDƏ GÖRÜŞ

Dekabrın 21-də Suraxanı rayonunun 279 saylı məktəbində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin rəhbərliyi ilə görüş keçirildi. Görüş H. İsaxanlıya həsr edilmiş "Bizim Hamlet" filmi ilə başladı. Salona toplaşanlar: məktəbin müəllimləri, yuxarı sinif şagirdləri və valideynlər filmə diqqətlə tamaşa etdilər. Məktəbin şagirdlərindən Məleykə Qasımova, Aydan Muxtarlı, Nigar Rəhimova və Sevinc Həziyeva H. İsaxanlının müxtəlif şeirlərindən parçaları əzbər söylədilər. Məktəbin direktoru Oqtay Səmədov Xəzər Universitetindən gəlmiş qonaqları salondakılara təqdim etdi. Xəzər Universiteti haqqında geniş məlumat verdikdən sonra sözü H. İsaxanlıya verdi. H. İsaxanlı salona toplaşanlara universitetin fəaliyyəti haqqında danışdı, ona ünvanlanan çoxsaylı sualları cavablandırdı.

Xəzər Universitetinin rektoru Con Rayder çıxışında universitetin beynəlxalq əlaqələrindən bəhs etdi, suallara ətraflı cavab verdi.

Görüşdə universitetin Xarici əlaqələr üzrə prorektoru Fərda Əsədov, İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Təhsil fakültəsinin dekanı Elza Səmədova və Tədris işləri üzrə prorektorun müavini, magistratura, doktorantura və elmi işlər bölməsinin rəhbəri Eldar Şahgəldiyev iştirak etdilər. Sonda məktəbin direktoru Oqtay Səmədov maraqlı görüşə görə qonaqlara minnətdarlığını bildirdi, xatirə şəkilləri çəkildi.



HADSON İNSTİTUTUNUN ƏMƏKDAŞI "XƏZƏR"DƏ



Dekabrın 9-da Hadson İnstitutunun (ABŞ, Vaşinqton) əməkdaşı Zeyno Baran Brayze Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və rektor Con Rayderlə görüşdü. Sonra o, tələbələr üçün "İslam, islamizm və Qərb" mövzusunda mühazirə oxudu, islam və islamizm arasındakı fərqdən söhbət açdı, islamizm və onun yaranma səbəblərini öz nöqteyi-nəzərincə izah etdi. Mühazirə tələbələrin böyük marağına səbəb oldu və onların çoxsaylı suallarını Zeyno Baran Brayze ətraflı cavablandırdı. Sonda o, "Vətəndaşlar, İslam və Qərbdə gələcək inteqrasiyası" adlı kitabını universitetin kitabxanasına bağışladı.

AZERCELL E-LEARNİNG OTAĞININ AÇILIŞ MƏRASİMİ







Dekabrın 23-də Xəzər Universitetində Azercell E-Leqarning otağının açılış mərasimi keçirildi. Mərasim Xəzər Universitetinin təsisçisi, Qəyyumlar və Direktorlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azercell Telekom MMC-nin prezidenti Ali Ağanın qırmızı lenti kəsərək, otağa daxil olmaları ilə başladı. Sonra tələbələr otağa daxil olaraq, öz yerlərində kompüterlərin (laptoplar) arxasında əyləşdilər.

H. İsaxanlı çıxış edərək, Xəzər Universitetinin yaranması və inkişafı, Azərbaycanın təhsil sisteminə gətirdiyi yeniliklər və həyata keçirdiyi islahatlar haqqında məlumat verdi. O, texnologiya ilə elm arasındakı əlaqədən danışdı, texnologiyanın insanların həyatında və təhsildə xüsusi rolu olduğunu vurğuladı, onun insanların həyatını dəyişdirməsinə aid misallar göstərdi. Sonra o, Azercell Telekom MMC ilə Xəzər Universiteti arasındakı əməkdaşlıqdan danışdı və onun sosial layihələrə çox böyük əhəmiyyət verərək ciddi işlər həyata keçirən şirkətlərdən biri olduğunu, əməkdaşlığın daha da genişləndirilməsinin zəruri olduğunu söylədi, Azercell şirkətinə və onun bütün əməkdaşlarına belə təşəbbüslərə görə təşəkkür etdi.

Ali Ağan da öz növbəsində texnologiyanın ali təhsilə mühüm təsirindən, Azercell şirkətinin buna oxşar layihələrindən, insan potensialının yetişdirilməsinə münasibətin dəyişməsindən bəhs etdi və tələbələri belə imkanlara malik olduqlarına görə daha yaxşı çalışmağa çağırdı.

Sonda universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva bu layihənin tələbələr və müəllimlər üçün səmərəli olacağını söylədi və özü keçdiyi dərsin nümunəsində Xəzər Universitetində E-learning platformasının (Moodle) imkanlarını nümayiş etdirdi.





"GƏNC DÖVLƏTİN GƏNC LİDERLƏRİ" MÖVZUSUNDA KONFRANS





Fərhad Məmmədov



Elşən Hüseynov



Gülsel Səfərova



Orxan Əkbərov



Şahin İsmayılov



Rüfət Əzizov

Dekabrın 23-də Xəzər Universiteti Tələbə işləri və Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda "Gənc dövlətin gənc liderləri" mövzusunda konfrans keçirildi. Konfrans Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə açıq elan olundu. Sonra universitetin rektoru Con Rayder iştirakçıları salamladı və konfransın işində onlara uğurlar arzuladı. Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirə dəvət olunan qonaqlara təşəkkürünü bildirdi və bu istiqamətdə keçirilən tədbirlərin davamlı olmasını arzuladı. Konfransın 1-ci mövzusu olan "Azərbaycan Respublikasının Prezidentinin apardığı dövlət siyasəti" haqqında Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının nümayəndəsi Fərhad Məmmədov çıxış etdi və ölkənin qazandığı uğurlar haqqında ətraflı məlumat verdi.

Konfransın 2-ci mövzusu olan "Gənclər təşkilatlarının dövlətin idarə olunmasında rolu" mövzusunda "ASAİF"-in (Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlıların Birliyi) sədri Orxan Əkbərov, AGAT (Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı) sədri Gülsel Səfərova, Xəzər Mühəndislər Cəmiyyətinin təsisçisi Rüfət Əzizov çıxış etdilər. Konfransın 3-cü mövzusu olan "Ali təhsil müəssisələrinin idarə olunmasında tələbələrin rolu" mövzusu ilə əlaqədar isə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Tələbə gənclər təşkilatları ilə iş sektorunun müdiri Elşən Hüseynov və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov tələbə gənclərə dövlət dəstəyi, dövlət gənclər siyasəti haqqında ətraflı məlumat verdilər.

Sonda Xəzər Universiteti Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu.



MƏKTƏBDƏ GÖRÜŞ







Dekabrın 24-də Bakının Sabunçu rayonunun 68 saylı məktəbində rayonun iki – 68 və 155 saylı məktəblərinin şagird, müəllim və valideynlərinin Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşü keçirildi. Görüş H.İsaxanlıya həsr edilmiş "Bizim Hamlet" filminin nümayişi ilə başladı.

Sonra 68 saylı məktəbin direktoru Təhməz Eyvazov görüşdə iştirak edənləri – professor Hamlet İsaxanlı, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, 107 saylı məktəbin direktoru Brilyant Cavadova, 78 saylı məktəbin direktoru Qamət Tağıyeva, 90 saylı məktəbin direktoru Qurbantac Qazıbəyova, 215 saylı məktəbin direktoru Qızqayıt Süleymanova, 138 saylı məktəbin direktoru Şəlalə Nadirova, 137 saylı məktəbin direktoru Metanət Abdullayeva, 188 saylı məktəbin direktoru Sabir Mahmudov və digər qonaqları görüş iştirakçılarına təqdim etdi. Görüşün aparıcısı, 155 saylı məktəbin direktoru Zöhrə Məhəmmədova H. İsaxanlıya həsr etdiyi şeiri *(şeir jurnalın 17-ci səhifəsində dərc olunur)* oxuduqdan sonra sözü H.İsaxanlıya verdi. H.İsaxanlı görüşdə iştirak edənlərə özü və universitet haqqında geniş məlumat verdi.

Xəzər Universitetinin rəqs kollektivinin ifasında milli və xarici rəqslər, 68 və 155 saylı məktəblərin şagirdlərindən Sevinc Rzayeva, Aytən Babazadə, Süleyman Məmmədov, Xəyalə Məmmədova, İlkin Bayraməli və Selcan Hadızadənin H. İsaxanlının müxtəlif şeirlərindən söylədikləri parçalar, 4 - cü sinif şagirdi Zərifə Cəfərovanın sazda və 10 - cu sinif şagirdi Nicat Məmmədzadənin tarda ifaları alqışlarla qarşılandı. Sonda H. İsaxanlı ona ünvanlanan çoxsaylı sualları cavablandırdı və bir neçə şeirini söylədi. Çıxışının sonunda hər iki məktəbin rəhbərliyinə, müəllimlərinə və şagirdlərinə çox maraqlı görüş üçün təşəkkürünü bildirdi. Xatirə şəkilləri çəkildi və qonaqların şərəfinə ziyafət verildi.



İÇİNDƏKİLƏR

- Universitet xəbərləri 3
- *Hamlet İsaxanlı.* Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? 22
- *Kəmalə Quliyeva.* Sənədlər sirləri açır 28
- *İsaxan İsaxanlı.* Tarix necə yazılır (pozulur?!) və ya bir sərnicin tarixi 30
- Təhsil 34
- *Hayrettin Turan.* Erdoğan kazandı, Sarkozy kaybetti 36
- Mədəniyyət 38
- *Ziqfrid Lents.* Məhəbbət yuvası 40
- Dünya 44
- *Vüsalə Məmmədova.* Əməkdar artist Nailə İslamzadə ilə müsahibə 48
- *Sabir Şahtaxtı.* İƏT-in Mədəniyyət İnstitutunun direktoru Höccətullah Əyyubi ilə müsahibə 50
- *Məmməd İsmayıl.* Şeirlər 52
- Sosial 54
- Molla Xəzər lətifələri 56
- Təbabət 60
- Mozaika 62
- İdman 64
- "Dünya" məktəbi 74

XƏZƏR XƏBƏR

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Cəmil HƏSƏNLİ
Nizami CƏFƏROV
Knyaz ASLAN
Əfqan ABDULLAYEV

Rəssam:
Mir Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA

Foto:
MEDİA MƏRKƏZİ

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93
E-mail: xazarxabar@khazar.org
Şəhadətnamə: 376
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

BP NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Dekabrın 1-də Xəzər Universitetinin İnkişaf direktoru Raziyə İsayeva və Neft mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov BP ofisində Məzunların işə qəbulu və universitetlərlə əlaqə üzrə qrup rəhbəri Bağır Axundov ilə görüşdülər. Onlar BP ilə Xəzər Universiteti arasında gələcək əməkdaşlıq imkanlarını müzakirə etdilər. Universitetin nümayəndələri bu əməkdaşlığın neft mühəndisliyi sahəsində xüsusilə genişləndirilməsinin vacibliyini qeyd etdilər. Görüşdə, həmçinin, bütünlükdə universitetə aid yeni ideyalar da müzakirə olundu.

TOMSON ROYTERZ NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Dekabrın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Tomson Royterzin (Thomson Reuters) Mərkəzi və Şərqi Avropa üzrə ölkə meneceri Deyvid Horki (David Horky; İngiltərə, London) və Mikro Bilgi A.Ş.-nın satış meneceri Metin Tunc (Türkiyə) ilə görüşdü. Onlar Azərbaycanda elmi fəaliyyətin və nəşriyyat işinin inkişafı və həmçinin Tomson Royterz ilə Xəzər Universiteti arasında əməkdaşlıq perspektivləri haqqında müzakirələr apardılar.

"XƏZƏR UNİVERSİTETİNİN SƏSİ" RADİOSUNUN İNKİŞAF PLANI MÜZAKİRƏ EDİLDİ

Dekabrın 6-da İnternet radiosu kimi fəaliyyət göstərən "Xəzər Universitetinin səsi" radiosunun Jurnalistika departamenti tərəfindən hazırlanmış inkişaf planının müzakirəsi keçirildi.

"Xəzər Universitetinin səsi" radiosunun icraçı direktoru Alik Əlioğlu, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini Əlirza Balayev, Media Resursları Mərkəzinin direktoru Natella Barkaya, Jurnalistika departamentinin müəllimləri Cabir Məmmədov, Əsmər Yusifzadə, Vəfalı Ənsərov və jurnalist Ülviyyə Əsədzadənin iştirakı ilə keçirilən toplantıda radio studiyasının yenidən qurulması, studiyanın lazımi avadanlıqlarla təminatı, yaradıcı kollektivin təşkili kimi məsələlər müzakirə olundu.

Khazar VIEW

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Knyaz ASLAN
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA

Photo:
MEDIA CENTRE

Address:
11 Mehsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93
E-mail: redaksiya@khazar-view.org

Certificate: 376
Index: 67178
Order: 190
Copies: 3000

HAMLET - "XƏZƏR" CÜT, QOŞADI!

Dünya şöhrətli riyaziyyatçı alim, fizika - riyaziyyat elmləri doktoru, şair, publisist, Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlının şərəfinə

Söz mülkündə külüng çaldı,
Özünə "yurd - yuva" saldı,
İsaxanlı adı aldı,
Bu ömürlə baş - başadı,
Hamlet - "Xəzər" cüt, qoşadı!

***

Alim ömrü, şöhrəti var,
Adı gəzir diyar - diyar.
Sanki boyu uca çinar,
Bu ömürlə baş - başadı,
Hamlet - "Xəzər" cüt, qoşadı!

***

Üz ağardıb el yanında,
Qeyrət, qüdrət var canında.
Müqəddəslik ad - sanında,
Bu ömürlə baş - başadı,
Hamlet - "Xəzər" cüt, qoşadı!

***

Belə oğlu belə tanı,
Azərbaycan şah ünvanı.
"Xəzər"in də O, sultanı.
Bu ömürlə baş - başadı,
Hamlet - "Xəzər" cüt, qoşadı!

***

O həm nurdu, həm də işıq,
Doğma elə bir yaraşıq.
Məktəbə də salıb işıq.
Bu ömürlə baş - başadı,
Hamlet - "Xəzər" cüt, qoşadı!
Hamlet - "Xəzər" cüt, qoşadı!

Zöhrə Qaraqızı,
Sabunçu rayonundakı C. Məmmədyarov adına 155 saylı tam orta məktəbin direktoru
24.12.2011

NORVEÇ SƏFİRİ İLƏ GÖRÜŞ



Dekabrın 8-dəXəzər Universitetinin rektoru professor Con Rayder və İnkişaf direktoru Raziyə İsayeva Norveç Krallığının Azərbaycandakı səfirliyində olaraq, səfir Erling Şönsberq (Erling Skjønsberg) və onun köməkçisi Elmira Mirzəyeva ilə görüşdülər. Görüş zamanı tərəflər Xəzər Universiteti ilə Norveç universitetləri arasındakı mövcud əməkdaşlığın daha sıx davam etdirilməsinin, yeni əməkdaşlıq proqramlarının həyata keçirilməsinin vacibliyini qeyd etdilər. Səfir Xəzər Universitetinin cari inkişaf planı haqqında tövsiyələrini bildirdi.

LİSEYDƏ ƏDƏBİ-BƏDİİ MƏRASİM

(Əvvəli səh. 10-da)

Məktəbin şagirdləri Səbinə Rüstəmova, Gülər Mənsurzadə, Sərcan Cavadzadə, İradə Muradova sazın müşayiəti ilə H.İsaxanlının dördlüklərini söylədilər.

Mərasimdə iştirak edən Xətai Rayon İcra Hakimiyyətinin Təhsil, mədəniyyət və səhiyyə şöbəsinin müdiri Pənah İmanov rayon icra hakimiyyətinin başçısı adından Xəzər Universitetindən gəlmiş və digər qonaqları səmimi salamlayaraq, H.İsaxanlı və onun ictimai fəaliyyəti haqqında ətraflı danışdı. H. İsaxanlı sazın müşayiəti ilə şeirlərinin söylədi.

Görüşdə çıxış edən Bakı Şəhər Təhsil İdarəsinin rəis müavini Məhəmməd Bayramov belə mərasimlərin keçirilməsini yüksək qiymətləndirdi və H. İsaxanlıya, onunla birlikdə görüşə gələnlərə öz təşəkkürünü bildirdi. Mərasimdə Xəzər Universitetinin rektoru professor Con Rayder, İctimai Əlaqələr və Media üzrə Direktor Ələvsət Əmirbəyli, Direktorlar və Qəyyumlar Şurası sədrinin assistenti Marta Lauri iştirak edirdilər.

Mərasimdə, həmçinin, Xətai Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə orqanaları ilə iş şöbəsinin müdiri Əbülfət Piriyev, "Azərbaycan müəllimi" qəzetinin müxbiri Yusif Əliyev, 147 saylı liseyin direktoru Həlimə Mehdiyeva, 59 saylı məktəbin direktoru Maisə Hacıyeva, 265 saylı məktəbin direktoru Yeganə Qurbanova, 204 saylı məktəbin direktoru Ziba Rzayeva və ictimaiyyətin nümayəndələri iştirak edirdilər. Sonda qonaqların şərəfinə ziyafət verildi.

LIBRARY



GƏNC ŞAİRLƏRİN UĞURU



Dekabrın əvvəlində Gürcüstan Yazıçılar Birliyinin təsis etdiyi nüfuzlu Vaja Pşavela adına Ümumqafqaz Poeziya Müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Azərbaycanın iki gənc şairi – Qismət və "Xəzər Universitetinin səsi" radiosunun icraçı direktoru Alik Əlioğlunun adları da qaliblər sırasındadır. Onların bədii mətnlərini müsabiqəyə "Dünya ədəbiyyatı" dərgisinin baş redaktoru Səlim Babullaoğlu təqdim etmişdi. Ona görə də, müsabiqə və nəticələri haqqında danışmaq üçün ona müraciət etdik.

- Əslində, mən hər iki şairin yaradıcılığı ilə yaxından tanışdım, iş elə gətirib ki, ikisinin də ilk kitablarının redaktoru olmuşam. Odur ki, bilirdim hansı mətnləri təqdim eləmək olardı. Mətnləri bizim sifarişimizlə tanınmış şair və tərcüməçi İmir Məmmədli və tərcüməçi Nelli Məmmədli hazırlamışdılar. Qaydaya görə mükafat bir şairə təqdim olunmalıydı. Digər ölkələrdən elə belə də oldu. Amma hər iki şairin şeiri uğurluydu və Gürcüstan tərəfi də qərar verməyə çətinlik çəkdi deyə, axırda mən Gürcüstan Yazıçılar Birliyinin sədri Makvala Qonaşviliyə təklif etdim ki, mükafat hər iki şairə verilsin və pul mükafatı da onların arasında bölünsün. Sevinirəm ki, "Dünya ədəbiyyatı" dərgisinin təqdimatı və təşkilatçılığı ilə bizim iki gənc və olduqca istedadlı şairlərimiz bu mükafatı aldılar.

- Mükafat haqqında başqa nəyi demək olar?

- Vaja Pşavela gürcü klassikidir. XIX əsrin ortalarında anadan olub, ötən əsrin əvvəllərində vəfat edib. Gürcü şeirində onun yaradıcılığının özünəməxsus yeri var. Həm tematik, həm üslubi baxımdan. Onun adını daşıyan mükafat isə Gürcüstan Yazıçılar Birliyinin təsis elədiyi nüfuzlu mükafatlardan sayılır. Bunu vaxtilə Aleksandr Mejirov kimi tanınmış rus şairi alıb. Yaxud, tutalım, müasir gürcü poeziyasının istedadlı nümayəndələrindən olan Zviad Ratiani və başqaları. Builki müsabiqə şərtlərinə görə yaşı otuza qədər olan şairlər iştirak eləməliydi müsabiqədə. Və onların yeni diqqətçəkən kitabları nəşr olunmalıydı ana dilində. Bizim seçimimiz düz oldu, gürcülər və oradakı münsiflər də bizim yanılmadığımızı sübut elədilər. Qismət ilə Alik artıq Tiflisdə olmuş, həm mükafatlarını almış, həm də "Çağdaş ədəbi problemlər" adlı dəyirmi masada iştirak etmişlər. Mən gənc həmkarlarımı təbrik edirəm və Gürcüstan Yazıçılar Birliyinin sədri hörmətli Makvala Qonaşviliyə təşəkkür edirəm.

AMERİKA TİCARƏT PALATASININ AZƏRBAYCANDAKI OFİSİNDƏ GÖRÜŞ

Xəzər Universitetinin rektoru professor Con Rayder və İnkişaf direktoru Raziyə İsayeva dekabrın 8-də Amerika Ticarət Palatasının Azərbaycandakı ofisində (AMCHAM) İcraçı director Nərgiz Nəsrullayeva-Muduroğlu ilə görüşdülər. O, Xəzər Universitetində təhsil aldığı illəri xatırlayaraq, universitet haqqında öz səmimi hisslərini bölüşdü. Tərəflər Amerika Ticarət Palatasının Azərbaycandakı ofisi ilə Xəzər Universiteti arasındakı əməkdaşlıq imkanları haqqında müzakirələr apardılar. N.Nəsrullayeva-Muduroğlu Xəzər Universitetinin Amerika Ticarət Palatasının Azərbaycandakı ofisinə üzv olmasını və onun imkanlarından yararlanmağı təklif etdi.

"FAİRMONT BAKU" OTELİNİN TƏQDİMATI

Dekabrın 12-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə "Fairmont Baku" otelinin təqdimatı keçirildi. Tədbirdən öncə Xəzər Universitetinin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva şirkətin Baş direktoru Edrian Elis ilə gələcək əməkdaşlıqla bağlı müzakirələr apardı. Sonra Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev tədbiri açaraq, sözü qonağa verdi. O, tələbələrə təşkilatın yaranma tarixi, məqsədi və həyata keçirdiyi layihələr, karyera proqramları haqqında ətraflı məlumat verdi. Sonda tələbələrin sualları cavablandırıldı.

ŞAİRİN YUBİLEYİ



Dekabrın 2-də Naxçıvan Dövlət Universitetində (NDU) Xarici tələbələrlə iş üzrə dekan, filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Xanəli Kərimlinin 60 illiyinə həsr edilmiş yubiley mərasimi keçirilmişdir.

Tədbirdə giriş sözü ilə çıxış edən rektor, akademik İsa Həbibbəyli müasir Azərbaycan poeziyasının inkişaf istiqamətlərindən, ədəbi proseslərdən, Naxçıvan elmi-ədəbi mühitinin tanınmış simalarının bədii yaradıcılığından söhbət açmışdır. Natiq şair Xanəli Kərimlinin yaradıcılığının əsas məziyyətlərindən danışaraq onun müstəqillik dövrü ədəbiyyatının, vətəndaşlıq lirikasının tanınmış nümayəndələrindən olduğunu, Türkiyə, İran, Gürcüstan, Hollandiya və Pakistanda keçirilən bir sıra beynəlxalq tədbirlərdə iştirak etdiyini, şeirlərinin müxtəlif dillərdə tərcümə və nəşr edildiyini bildirmişdir.

Xanəli Kərimli çoxillik səmərəli fəaliyyətinə görə Naxçıvan Dövlət Universitetinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Şairin yaradıcılığının ardıcıl tədqiqatçılarından olan universitetin elmi kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudova məruzəsində Xanəli Kərimlini poetik təfəkkür aləmində orijinallığı ilə seçilən, əqidəsi, poetik amalı ilə həqiqi Vətən övladı olan ədib kimi qiymətləndirmiş, onun əqidə bütövlüyü, məfkurə saflığı haqqında danışmışdır.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yubilyarın siyasi lirikasından, poeziyasının fəlsəfəsindən, elmi tədqiqatlarından, ictimai publisistikasından bəhs etmiş, onun aforizmlərinin xüsusi məna çalarlarından, yaradıcılığındakı etnoqrafik nümunələrdən, folklora bağlılıqdan, Vətənə, xalqa məhəbbət duyğularının tərənnümündən söz açmışdır.

Naxçıvan MR Yazıçılar Birliyinin sədri Asim Yadigar, universitetin "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov çağdaş Azərbaycan poeziyasının istedadlı nümayəndəsi, tanınmış ədəbiyyatşünas-alim və pedaqoq Xanəli Kərimlinin şəxsiyyəti ilə yaradıcılığının vəhdət təşkil etdiyini vurğulayaraq, şair həmkarlarını təbrik etmiş, ona yeni-yeni yaradıcılıq uğurları arzulamışlar. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin və Naxçıvan MR Yazıçılar Birliyinin, tanınmış yazıçı və şairlərin yubilyara ünvanlanmış təbrikləri səsləndirilmişdir.

Sonda şair Xanəli Kərimli Naxçıvanda elmi-ədəbi mühitə göstərilən yüksək qayğıya görə muxtar respublika rəhbərliyinə, universitetin kollektivinə və yubiley tədbirinin təşkilatçılarına dərin minnətdarlığını çatdırmış, yeni şeirlərini oxumuşdur.

"AZERCELL" NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 4G ŞƏBƏKƏSİNİ QURUB

"Azercell Telekom" MMC şirkətinin Çinin ZTE şirkəti ilə birgə həyata keçirdiyi bu layihənin köməyilə 4 000-dən artıq tələbə innovativ mobil texnologiyalardan faydalana biləcək

Dekabrın 2-də NDU-da bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan universitetinin rektoru, akademik İsa Həbibbəyli hər iki şirkətə bu layihənin həyata keçirilməsinə görə minnətdarlığını bildirib. "Azercell Telekom" MMC şirkətinin prezidenti Ali Ağan çıxış edərək, şirkətin həyata keçirdiyi yeniliklər haqqında geniş məlumat verib. Tələbələrə müraciətlə "4G texnologiyasının imkanlarından yararlanaraq nə qədər irəli addımlamış olsanız, təhsil aldığınız universiteti və Azərbaycanı da bir o qədər irəli aparmış olacaqsınız" deyən Ali Ağan layihənin gerçəkləşməsi üçün əmək sərf edən bütün qurumlara öz təşəkkürünü bildirib. Tədbirdə ZTE şirkətinin Azərbaycan üzrə Regional Direktoru Şi Fang Gang iştirak etmişdir.

ÜMUMİ TƏHSİLDƏ KURİKULUM İSLAHATI VƏ ONUN İDARƏ OLUNMASI LAYİHƏSİNİN MÜZAKİRƏSİ



Dekabrın 30-da Xəzər Universitetinin konfrans zalında universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının, universitetin digər məsul şəxsləri və "Dünya" məktəbi nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümumi təhsil müəssisələrinin rəhbərləri üçün təlimlərin keçirilməsi layihəsinin müzakirəsi keçirildi. **Umumi təhsildə kurikulum islahatı və onun idarə olunması** layihəsinin tələbləri, təlim proqramı ətrafında fikir mübadiləsi aparıldı. Tədbirin sonunda layihənin həyata keçirilməsi üçün müvafiq qruplar müəyyənləşdirildi.

"XƏZƏR"DƏ YENİ İL ŞƏNLİYİ

Dekabrın 30-da Xəzər Universitetində professor-müəllim heyəti və əməkdaşlar üçün yeni il şənliyi keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etdi. *(Fotolar jurnalın üz qabığında və 2-ci səhifədə).*

TƏLƏBƏLƏRİMİZ TARİX MUZEYİNDƏ

Xəzər Universiteti Təhsil fakültəsinin tarix-coğrafiya ixtisası üzrə təhsil alan tələbələri məşhur mesenat, sahibkar Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanım Tağıyevanın vəfatının 20-ci ildönümü ilə əlaqədar dekabrın 15-də Milli Tarix Muzeyində keçirilən tədbirdə iştirak etdilər. Tələbələr öncə Hacı Zeynalabdin Tağıyevin ev muzeyi ilə tanış oldular. Xatirə tədbiri rejissor Zemfira Kürdəxanlının S. Tağıyevaya həsr olunmuş filminin nümayişi ilə başlandı. Tədbirdə Tarix muzeyinin direktoru akademik Nailə Vəlixanlı, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, Sara xanımla yaxın ünsiyyətdə olmuş muzey əməkdaşı Aliyə Abbasova, memar Nəriman Əliyev, Ədəbiyyat və İncəsənət Arxivinin rəisi Maarif Teymur, mərhum ziyalı, ictimai xadim Vəli Məmmədovun həyat yoldaşı Xalidə Məmmədova, şair Teyyub Qurban, "Respublika gəncləri" qəzetinin redaktoru, əməkdar jurnalist Mirvari Rəhimzadə çıxış edərək, Sara xanım haqqında öz xatirələrini bölüşdülər. Sara xanım Azərbaycan milli burjuaziyasının ilk nümayəndələrindən olmuş atasının lazımi tarixi qiymətini alması üçün sovet dövründə gərgin mübarizə aparmış və buna nail olduqdan sonra həyatdan köçmüşdü (15 dekabr 1991-ci il). Sara xanımın "Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyəti",

"Azərbaycan mənəvi mədəniyyətinin inkişafında Hacı Zeynalabdin Tağıyevin rolu" və s. mövzularda yazdığı tədqiqat işlərinin bir hissəsi mərhum Vəli Məmmədovun Ədəbiyyat və İncəsənət Arxivindəki şəxsi fondunda, digərləri də həmin arxivdə saxlanılır. Tədbirdə Teyyub Qurbanın "Sara xanım" poemasından parçalar da səsləndi. Sonda Xəzər Universitetinin tələbəsi Qəmər Almənmədova tələbələr adından tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

Mərziyə Əlizadə,
Xəzər Universiteti, Təhsil fakültəsinin II kurs tələbəsi

NDU ƏMƏKDAŞLARI TÜRKİYƏDƏ BEYNƏLXALQ SİMPOZİUMDA İŞTİRAK ETMİŞLƏR

Qardaş Türkiyənin İqdır şəhərində 2011-ci il dekabrın 13-dən 15-dək keçirilən II Uluslararası Araz hövzəsi simpoziumunda Naxçıvan Dövlət Universiteti 7 nəfərlik heyətlə təmsil olunmuşdur.

İqdır Valiliyi, İqdır Universiteti, İstanbul Universiteti və Türkiyə Memarlar Odası Van Şöbəsi tərəfindən keçirilən simpoziumun ilk günü plenar iclasda İqdır Universitetinin rektoru, professor İbrahim Hakkı Yılmaz, İstanbul Universitetinin professoru, görkəmli tarixçi-arxeoloq Oqtay Bəlli və İqdır valisi Əmir Çiçək çıxış edərək, simpoziumun Araz hövzəsi regionları tarixinin, coğrafiyasının, etnoqrafiya və arxeologiyasının, folklorunun, mədəniyyət və incəsənətinin, təbiət və ekologiyasının və s. sahələrinin kompleks halda öyrənilib tədqiq olunması işinə xidmət etdiyini vurğulamış, simpoziumun işinə uğurlar arzulamışlar. Türkiyənin əksər bölgələri ilə yanaşı, Azərbaycan Respublikasından, İrandan, Gürcüstandan, Orta Asiyadan da tanınmış elm adamlarının iştirak etdiyi simpoziumda 3 gün ərzində 12 bölmə iclası keçirilmişdir.

Simpoziumun ilk günü NDU-dan gedən nümayəndə heyətinin rəhbəri, NDU-nun "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov çıxış edərək, simpoziumun işinə uğurlar arzulamış, NDU-nun rektoru akademik İsa Həbibbəylinin simpoziumun təşkilat komitəsinə məktubunu və xatirə hədiyyəsini təqdim etmişdir.

Bölmə iclaslarında digər nümayəndələrlə yanaşı, NDU-nun kafedra müdiri Qadir Əliyevin "Klassik Naxçıvan memarlığının əhatə dairəsi", magistratura üzrə dekan, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin "Araz çayı üzərində İpək yoluna xidmət edən körpü və bərə keçidlər", memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərovanın "Naxçıvanın Arazboyu türbələrinin bədii xarakteri və memarlıq dekoru", tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədovun "Azərbaycan şeirində Araz mövzusu", kənd təsərrüfatı elmləri doktoru Ələvsət Quliyevin "Türk varlığında kəhrizlər", musiqişünaslar Natəvan Qədimovanın "Naxçıvanın musiqi folkloru: yallılar", Günay Məmmədovanın "Naxçıvan və türk musiqi folklorunda Araz motivi" mövzularında məruzələri dinlənilmişdir. Simpozium materiallarının yaxın vaxtlarda kitab halında çap olunması nəzərdə tutulmuşdur. Həmin simpoziumda AMEA Naxçıvan Bölməsi də 7 nəfərlik heyətlə təmsil olunmuşdur.



Vaqif Məmmədov,
"Xəzər-Xəbər"in NDU Bürosunun rəhbəri



KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-287-ci (iyun 2010 -iyul 2010), 288 - 298 - ci (sentyabr 2010 - dekabr 2011) nömrələrində

Hamlet İSAXANLI



Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.

Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.

Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?

Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.

Mürəkkəb sistemlər və tarix

Tarixi hadisələrin, əvvəlcədən baxıldıqda, baş verib-verməmə ehtimalı olur, bu ehtimallardan biri gerçəkləşir, di-gərlərini sonralar nəzəri mümkün hallar və ya həyata keçməmiş ssenarilər kimi yada salırlar. Tarixi hadisələr müəyyən tarixi dövrdə yaşayan, bəzən də lider kimi ortaya çıxan şəxslərin o mühitlə, yaranmış vəziyyətlə əlaqəli fəaliyyəti, hərəkəti nəticəsində baş verib gerçəkliyə çevrilir. Tarix insan və cəmiyyətin, bu qoşalığın, birgəliyin, yəni, insan iradəsi və cəmiyyətin istəkləri küllisinin əsəridir. İnsan iradəsinin qanunlarını kəşf etmək cəhdi az olub. Sigmund Freud öz psixoanalizi, xüsusilə bilinc-altının sirləri və onun insan həyatında rolu ideyaları ilə bu möhtərəm azlıq içindədir. Cəmiyyətin qanunlarını axtaranlar və onları tapmış zənn edənlər isə daha çox olub. Bu "qanunlar" sanki yaşanan cəmiyyət üçün deyil, gələcək üçün arzu olunan modeli əldə etmək üsullarından ibarət olur. Tarix deyil, utopiya ortaya çıxır. Bu və digər məsələləri öyrənən cəmiyyətşünas elmlər siyahısında ilk əvvəl sosiologiya gəlir, fəlsəfə, antropologiya, psixologiya kimi elmlər də bu işə müdaxilə etməyə çalışırlar.

İnsan cəmiyyəti mürəkkəb bir sistemdir. Sistem - idarəetmə elmlərində, fiziki, kimyəvi və bioloji proseslərdə tez-tez işlənən və arxasında müəyyən nəzəriyyələr dayanan bir anlayışdır. Sistem nəzəriyyələrinin anlayış və metodları insan cəmiyyətinin öyrənilməsi və araşdırılması üçün nəsə bir ideya verə bilərmi? Bu suala cavab axtarmaq üçün sistem nəzəriyyələrinin bəzi təsəvvür və müddəalarını yada salaq.

Açıq sistem öz ətrafı ilə daim təmasda olan sistemdir. Ətrafla təmas onu adi, həmişə var olduğu vəziyyətdən çıxara bilərmi, onun sabitliyi, dayanıqlığı, tarazlığı pozula bilərmi, böhran yarana bilərmi? Bu, həm təbiətşünaslıqda, həm də zənnimcə, tarixdə cavabı axtarılan suallar içindədir. Həyatda ətrafı ilə təmasda olmayan tam, mütləq təcrid olunmuş sistem yoxdur (riyazi model, yəni idealizə olunmuş nəzəri model kimi tam təcrid olunmuş sistemlər barədə danışmaq mümkündür). Lakin təcrid olunmuşa bənzəyən, xeyli dərəcədə təcrid olunmuş sistemlər haq-

qında gerçək söhbət açmaq mümükündür. Məsələn, bizim daxil olduğumuz Günəş sistemi müəyyən dərəcədə təcrid olunmuş sayıla bilər; Günəş və onun ətrafında dövr edən planetlərin digər ulduzlardan məsafəsi Günəş sisteminin öz ölçülərindən (Günəş sistemindəki məsafələrdən) müqayisəyəgəlməz dərəcədə böyükdür.

Təbii ki, açıq olmayan sistemə qapalı sistem deyilir. Bəzən ətrafla enerji mübadiləsi olan, lakin maddə mübadiləsi olmayan sistem də qapalı sistem adlandırılır.

Özünütəşkil - sistemi nizamlayan mərkəzi qüvvənin yoxluğudur (və ya çox zəifliyidir), xarici təsir olmadan sistemin öz-özünü nizamlamasıdır. Özünütəşkil kənar müdaxiləsiz və fövqəlgüc olmadan baş verir! Məsələn, sərbəst, özbaşına buraxılmış bazar iqtisadiyyatı Adam Smithin "gözəgörünməz əl" konsepsiyasına görə özünütəşkil sistemidir, özü özünü təşkil etməyi bacaran sistemdir. Əlbəttə ki, praktikada, sərbəst iqtisadiyyatlı istənilən dövlətdə hökumətin iqtisadiyyata müəyyən müdaxiləsi, hökumətin iqtisadi siyasəti mövcuddur və bu müdaxilənin dərəcəsi müzakirə obyekti olaraq qalmaqdadır. Morfogenez, yəni canlı sistemin inkişafı və böyüməsi (embriologiya) özünütəşkil sayıla bilər. Cəmiyyətdə ünsiyyətə, kommunikasiyaya da özünütəşkil kimi baxmaq olar. Alman sosioloqu **Niklas Luhmann** (1927-1998) kommunikasiyanı cəmiyyətdə əsas sosial əməliyyat hesab edir; kiçik qrup kommunikasiyaları birləşib şəbəkə əmələ gətirir, nəticədə dünya kommunikasiyası yaranır[1].



Niklas Luhmann

Əsas xassələri öz tərkib hissələrinin xassələrindən alınmayan (və ya anlaşılan şəkildə alınmayan?!) sistemə **mürəkkəb (kompleks) sistem** deyilir. İqlim, iqtisadiyyat, sinir sistemi, hüceyrə mürəkkəb sistemlərdir. Kompleks sistemlər dinamikdir, zamanla dəyişir, üstəlik hər əvvəlki hal sonrakı hala təsir edir, indiki hal keçmişdəki halların təsirindən meydana gəlib. Yəni, kompleks sistemin yaddaşı var. Kompleks sistemin quruluşu rus matryoşkasına bənzəyə bilər, yəni bir-birinə daxil olan kompleks altsistemlərdən təşkil olunmuş ola bilər. Məsələn, mürəkkəb sistem olan iqtisadiyyat təşkilatlardan, təşkilatlar insanlardan, insanlar hüceyrələrdən ibarət olan kimi. Cəmiyyətdə ünsiyyət də, analoji olaraq, matryojka tipli kompleks sistemdir.

Sinerqetika mürəkkəb açıq sistemlərin özünütəşkili haqqında elmdir. *Sinergeia*-yunanca birgə hərəkət deməkdir. Sinerqetika tarazlıqdan uzaq olan mürəkkəb açıq sistemlərin strukturlarının əmələ gəlməsi, özünütəşkili, dayanıqlığı və nəhayət, məhvini öyrənir. Mürəkkəb özünütəşkil sistemlərin xaosdan nizama və tərsinə, nizamdan xaosa keçid - təkamül qanunları (əsasən stoxastik səciyyə daşıyan qanunlar) sosial elmlərə bir ideya verə bilərmi? Təbiət elmlərinə aid qanunların sosial elmlərə tətbiqi gözəl iş sayılmır, bu yolda ifrata varanlar olub, Sosial həyatla fiziki həyatı və ya sosial həyatla bioloji həyatı az qala eyniləşdirmək cəhdləri olub. Lakin, hazırda söhbət tətbiqdən deyil, anlayış və ideyalardan, o cümlədən dildən gedir.

Cəmiyyətdəki, ictimai şüurdakı səbəb-nəticə asılılıqları, onların mənşəi və təkamülünü, çoxssenarili hadisələr gedişini hansı şəkildəsə izləmək mümkündürmü? Sinergetika çağdaş tarixçilərin qəbul etmədiyi ictimai qanunlar və determinizm əvəzinə stoxastik determinizmin mümkünlüyünü müzakirəyə çıxarmağa cürət göstərsə, bu müzakirəyə təkan versə, nə etməli? Hər halda, tarixin bütün dönğələrində, kəskin dəyişmələr dövründə hadisələrin axarı təkistiqamətli olmayıb, adətən bir neçə yol, bir neçə inkişaf istiqaməti olub. Bu müxtəlif yolların baş tutma ehtimalları fərqli olub. Təsadüflər də rol oynayıb. Bəs son nəticə nədən asılıdır? Bəlkə, nə mənadasa, ən dayanıqlı olan hal gerçəkləşir?!.


Böhran zamanı sistemin içində mövcud olan və ya "yaşayan" altsistemlər titrəmədə olur, "bərk həyəcanlanır", "müvazinətini itirməyə başlayır", orta vəziyyətdən kənara çıxa bilir. Bu halda, sistemdə "**fluktuasiya** baş verir" deyirlər; *fluctuatio*-latınca titrəmə deməkdir. Titrəmələr, yəni fluktuasiyalar birləşib həddini aşanda, yəni tarazlıq ciddi surətdə pozulanda "sistem **bifurkasiya** (*bifurcatio*-latınca haçalanma, aralanma) vəziyyətinə düşdü" deyirlər. Bu dövrdə, yəni bərk titrəmədə ikən sistem müxtəlif alternativ dəyişmə qüvvələrinə nəzərən dayanıqlı olmur, bir nöqtənin (adamın! kiçik qrupun) ciddi hərəkəti hadisələrə yeni cığır aça bilir, yeni yol seçilə bilir, vəziyyət güclü dəyişə bilir, hətta sistem tam dağıla bilir. "Sosial hadisələrlə və hətta tarixlə istər-

[1]David Seidl and Kai Helge Becker. Niklas Luhmann and Organization Studies. Copenhagen Business School Press, Copenhagen, 2005

istəməz bənzərlik ortaya çıxır"[2]. Bu, Leibnisin "təbiət heç vaxt sıçrayışlarla hərəkət etmir" fikrini və bu fikrin sonrakı müdafiəçilərini də təkzib edən kimidir. Beləliklə, tarazlıqdan çıxmış sosial sistemdə, məsələn inqilab dövründə, bir kiçik qrupun, hətta tək bir liderin (Leninin, Atatürkün!..) iradəsi hadisələrin məcrasını müəyyən edə bilir.

Sosial sistemlərin açıq və mürəkkəb olduğu aydındır. Tarixə baxdıqda, şəxsin iradəsi ilə bağlı bir ideyanın parlaması və o istiqamətdə atılan güclü addımlar nəticəsində mümkün ola bilən ehtimalların arasından biri, sanki təsadüfi olan biri, ortaya çıxır və sanki ortadakı enerjini özünə çəkir və həyata keçir, gerçəkliyə çevrilir. Kiçik dəyişmənin böyük effekt yarada bilməsi kompleks sistemin qeyri-xətti təkamülündən xəbər verir. Beləlikdə, titrəmə sistemlərində hadisələrin müxtəlif istiqamətdə hərəkətlənməsi imkanı yaranır və sanki "qanunauyğunluqlar küllisi" adlandırıla biləcək bu alternativ istiqamətlər az və ya çox ehtimallı olur. Mürəkkəb müxanizmlərin sadə münasibətlər silsiləsi ilə yarana biləcəyi faktı da maraqlıdır.

Bütün bunlarla yanaşı, yuxarıda deyildiyi kimi, təbiət elmlərinə xas olan üsulları sosial elmlərə birbaşa, mexaniki surətdə tətbiq etmək çox vaxt yaxşı nəticə vermir və əsaslı tənqidlərə məruz qalır. Burada, yəqin ki, ən düzgün olanı bənzərlikdən (bu halda, qeyri-xətti mürəkkəb fiziki-kimyəvi-bioloji sistemlərlə bənzərlikdən) yarana bilən ideya varsa, onun sosial sistemlərə nə verə biləcəyini araşdırmaqdır.



Epikurus

Mürəkkəb sistemlərdən danışarkən **Epikurus**'u yada salmaq yerinə düşərdi (biz adları orijinal dildə olduğu kimi yazmağa meylliyik). Elmi metodun kəşfini və ya əsas prinsiplərinin ifadəsini adətən Francis Becon (1561-1626) və onun arxasında Rene Descurtes'ə aid edirlər. Lakin, hal-hazırda İslamın Qızıl Çağında yaşamış böyük çoxbilgin (fizik, astronom, riyaziyyatçı, filosof, ...) **İbn əl Haytam** (965-1039) çağdaş elmi metodun atası hesab edilir; Avropada onu latınlaşdırılmış Alhazen adı ilə tanıyırdılar. O, elmi kəşflərdə müşahidə, təcrübə və rasional mülahizələrin rolunu göstərmiş, özünün məşhur "Kitab əl-Mənazir" (Optika kitabı) əsəri ilə, təcrübə və riyazi üsulları birgə tətbiq etməklə çağdaş optikanın əsasını qoymuşdur. Lakin, ümumiyyətlə elmi metoddan söhbət açarkən çox-çox əvvəl yaşamış Epikurus'u unutmaq olmaz; o, müşahidə edilməmiş və məntiqi yolla sübuta yetirilməmiş heç nəyə inanmayın,-deyirdi. Atomçu kimi **Demokritos**'in tərəfdarı olan Epikurusa görə atomların hərəkətində plan yoxdur, atomların hərəkəti düzxətli olmaya bilər (Demokritos bu hərəkəti düzxətli hesab edirdi). Deməli, hər cür, hər istiqamətdə dəyişən mikrodünya və yəqin ki, ümumiyyətlə, dünya təsadüflərlə idarə olunur, determinizm yoxdur, azad iradə əsasdır.



İbn əl Haytam



Demokritos

Xətti sistemlərdə dəyişənin az dəyişməsi funksiyanın da az (mütənasib) dəyişməsinə səbəb olur, məsələn, $y=2x$ xətti funksiyasında $x=2$ isə, $y=4$; $x=3$ isə $y=6$; $x=4$ isə $y=8$ olur, yəni y hər zaman x-in 2 misli̇nə bərabərdir. Xətti sistemlərdə nəticə arqumenta, yəni səbəbə uyğundur, onunla düz mütənasibdir. Zamanla dəyişən, zamandan asılı olan mürəkkəb sistem, yəni dinamik sistem mürəkkəb quruluşa malikdir, qeyri-xəttidir və xətti sistemlərdən fərqli olaraq ən kiçik dəyişiklik böyük, gözlənilməz nəticələrə gətirib çıxara bilər. Çırtdandan nəhəng, nəhəngdən cırtdan törəyə bilər. Nə olacağını, nə baş verəcəyini öncədən görmək olmur. "Bu xaosdur" demək olar. Xaos yeni ideyaların qaynadığı, aşıb-daşan qaynar qazandır. Xaos və nizamın bir-birini əvəz etməsi prosesində, sosial baxımdan qüvvələr nisbəti dəyişən vaxt müxtəlif qüvvələr arasında mübarizə gedir, eyni zamanda onlar əməkdaşlıq edir, yəni qruplaşmalar baş verir. Sanki fərdlərin azadlıq dərəcəsi artdıqca, xaos da artır. Xaos və nizamın bir növ sintezi baş verir və sistem dayanıqlı (ən dayanıqlı?!) vəziyyətə doğru hərəkət edilir. Mürəkkəb xaotik sistemin bu "davranışı"nı böyük fransız riyaziyyatçısı, fizik və filosofu Henri Poincaré (1854-1912) üç cisim məsələsini (three-body problem) tədqiq edərkən (1890) kəşf

[2]И. Пригожин. Конец определенности. Время, хаос и ... законы природы. Ижевск, 1999

etmişdi. O, misal olaraq, meteorologiyada da belə effektin ola biləcəyini qeyd etmişdi. Zəlzələ, maliyyə bazarı, turbulentlik, həmçinin ekologiyada populyasiyanın artması xaotik səciyyəlidir. Hətta savaşların yaranmasının da xaotik sistemlərə aid olduğunu irəli sürənlər var.


Ilya Prigogine

Görkəmli fizik və kimyaçı, Nobel mükafatçısı **Ilya Prigogine** (1917-2003) tarazlıqda olmayan termodinamik sistemlər haqqında dərin araşdırmalar aparmış, müəyyən şərtlər daxilində ətraf mühitdən maddə və energi (və informasiya?!) almaqla mürəkkəbliyə doğru sıçrayış edən bu cür sistemlərin mövcudluğunu aşkar etmişdi (rus əsilli alimin adı rusca belə yazılır: Илья Пригожин). Bu sıçrayış effektini klassik statistika üsulları ilə öncədən görmək mümkün olmur. Sıçrayış zamanında və halında olan sistem **kaskad**, sıçrayışdan kənarda, tədrici dəyişmə halında olan sistem isə **axın** adlanır. Sistemin dayanıqlığı, stabilliyi onun tarazlıq vəziyyətində qalma xassəsidir. Cüzi dəyişmələr sistemin strukturuna təsir etmirsə (heç və ya gözəçarpan dərəcədə), ona **sistemin kobudluğu** deyilir[3].

Attraktor –dinamik sistemin zaman dəyişdikcə yaxınlaşdığı hallar çoxluğudur, limit vəziyyətdir. Məsələn, yellənən (titrəyən, rəqs edən) rəqqasın attraktor nöqtəsi onun sakitləşdiyi nöqtə, yəni trayektoriyasının orta nöqtəsidir. Attraktor nəticə-çoxluqdur, bu, sosial sistemlərdə böhran vəziyyətindən çıxış yolları çoxluğu kimi şərh oluna bilər.


J. von Newman

Riyaziyyat və onun geniş sahələrdə tətbiqi üzrə böyük uğurlar qazanmış **J. von Newman**'a görə qeyri-stabil elementlərdən ibarət olan mürəkkəb sistemlərin stabilliyi (funksional) elementlərin sayının artması və (bu səbəbdən) o elementlər arasındakı əlaqələrin artması vasitəsilə əldə edilə bilər.


Karl Mannheim

Mürəkkəb sistemlər öz elementləri arasında barışıq şəraiti yaratmaqla tarazlıq əldə etməyi məqsəd sayır, "yolunu azanlar"ı "düz yol"a dəvət edir və nəticədə özünü qorumağa çalışır. **Karl Mannheim** (1893-1947) iki növ kollektiv düşüncə sistemi olduğunu deyirdi: hakimiyyətə xas olan sosial qrupların təfəkkürü, yəni ideologiya və digər sistem - hakimiyyətdən narazı olanlara xas olan təfəkkür, yəni utopiya. İdeologiya tərifləyir, saxlamağa, qorumağa çalışır, utopiya kəskin tənqid edir, dağıtmağa can atır[4].


Walter B. Cannon

Bioloji sistemlərdə sistemin daxili vəziyyətini sabit saxlamaq xassəsi **homeostaz** termini ilə ifadə olunur; mənaca eyni və ya oxşar vəziyyət, duracaq deməkdir (ingiliscə - homeostasis; Amerikan fizioloqu **Walter B. Cannon** tərəfindən daxil edilmişdir). Homeostaz sistemin sağ qalmaq qabiliyyəti, itirilməkdə olan və ya itirilmiş tarazlığı bərpa etmək qabiliyyəti, həmçinin ətraf mühitin dəyişməsinə uyğunlaşmaq və inkişaf etmək xüsusiyyətidir. Hətta müəyyən stress vəziyyətində qalmağa çalışmaq da fərd və populyasiyalarda rast gəlinən haldır, buna stress homeostazı deyilir.

Sıçrayış zamanı və ya tarazlığın ciddi surətdə pozulduğu böhran halında homeostazı əldə etmək üçün müxtəlif istiqamətli iki cür əks əlaqə, təsirə cavabvermə və ya cavab reaksiyası (feedback) ola bilər: istiqaməti tərsinə döndərməyə çalışmaq (formal deyilişdə "mənfi" cavab) və yeni sistemə keçidi sürətləndirmək ("müsbət cavab").

Burada, Arnold Toynbee'nin tarixin hərəkətverici qüvvəsi hesab etdiyi çağırış (meydan oxuma) və ona cavab cütlüyü ilə indi müzakirə etdiyimiz tarazlığın pozulması və təsirə cavabvermə,

---

[3]1. G. Nicolis, Ilya Prigogine. Self-Organization in Non-Equilibrium Systems: From Dissipative Structures to Order through Fluctuations. John Wiley & Sons, 1977

2. Ilya Prigogine, Isabelle Stengers. Order out of Chaos: Man's new dialogue with nature. Bantam Books,1984

[4]Karl Mannheim. Ideology and Utopia. London, Routledge,1936

yəni əks əlaqə cütlüyü arasında sanki bir bənzərlik görünür...



Edward Norton Lorenz

Atmosferdə ən cüzi dəyişmənin çox böyük və gözlənilməz nəticəyə gətirdiyini kəşf edən Amerika riyaziyyatçısı və meteoroloqu **Edward Norton Lorenz** (1917-2008) 1963-cü ildə bir qağayının bir yerdə qanad çalmasının başqa çox uzaq bir yerdə və başqa bir vaxtda böyük fırtınaya səbəb ola bildiyini söyləmişdi. Sonralar 1972-ci ildə "the American Association for the Advancement of Science" cəmiyyətinin Washington şəhərindəki görüşündə "Predictability: Does the Flap of a Butterfly's Wings in Brazil Set Off a Tornado in Texas?" adlı məruzəsində o, qağayını kəpənəklə əvəz etdi (yəqin ki, kəpənək daha şairanə səslənir və bu halda hadisə daha parlaq təsvir alır) və beləliklə, xaotik sistemləri səciyyələndirən "kəpənək effekti" adı meydana çıxdı. Braziliyada bir kəpənəyin qanad çalması Texasda fırtına (tornado) yarada bilər (sonralar kəpənəyin qanad çalmasını və onun gözlənilməz nəticəsini çox müxtəlif yerlərə aid etdilər, Çin-California və s). Burada "bir söz aləmi qarışdırdı" və "dəli quyuya daş atdı, yüz ağıllı onu çıxara bilmədi" ifadələri də yada düşür. Bir kiçik qar topasının qarlı dağla aşağı yuvarlanarkən böyük uçqun yarada biləcəyi də başqa, bənzər bir xaotik sistemin həssaslığı deməkdir (qar topası effekti). Xaotik sistemlərin dəyişməsi, hal-əhvalı, davranışı sanki təsadüfi xarakter daşıyır, heç bir determinizm yoxdur.

Mümkündür ki, qağayının kəpənəklə əvəz olunmasında **Ray Bradbury**'nin fantastik "İldırım səsi" ("A Sound of Thunder", 1952) əsəri rol oynayıb (?!). Keçmişə səyahət edən bir qrup insan gələcəyi dəyişməmək üçün yalnız bir cığırla getməli idi. Geri qayıdanda dünyanı çox dəyişmiş vəziyyətdə görən bu qrup üzvləri məsələnin səbəbini indi başa düşürlər; sən demə qrupdakı adamlardan biri cığırdan çıxmış və bu zaman bir kəpənək onun ayağı altında əzilibmiş!



Ray Bradbury

Amerikalı paleontoloqlar **Stephen Jay Gould** (həmçinin təkamül bioloqu və elm tarixçisi) və **Niles Eldredge** daşlaşmış heyvan və ya bitki qalıqlarının öyrənilməsi zamanı arasıkəsilən, qırılan, pozulan tarazlıq (Punctuated equilibrium) nəzəriyyəsini irəli sürmüş, təkamüldə sanki morfoloji bir kəsintinin (zamanın) olması fikrinə gəlmişdilər. Yəni tarazlıq, tədricilik birdən-birə radikal dəyişmə-sıçrayışla əvəz olunub, sonra yenidən tarazlıq baş verib və tədricilik öz yerini tutub. Bu fikri tənqid edənlər zarafatla "diksinmə" və ya "səksənmə" təkamülü sözlərini daxil etdilər, Stephen Jay Gould isə eyni tərzdə cavab olaraq daimi tədriciliyi "sürünmə" təkamülü adlandırdı[5]



Stephen Jay Gould



Niles Eldredge

Böyük I. Newtonun qanunları təbiətşünaslığın əsasını qoydu. Elmi-texniqi tərəqqi, sənayeləşmə Newtonçuluq sayəsində mümkün oldu; bu, gərək ki, mübahisə doğurmur. Lakin təbiət çox mürəkkəbdir, hər hansı dərin nəzəriyyənin (klassik elmin) izah edə bilməyəcəyi hadisə və paradokslarla doludur. Onların həlli yollarının aranması elmin və texnologiyanın yeni sahələrinin yaranmasına səbəb olur. Elektrik və elektromaqnetizmin, nisbilik nəzəriyyəsinin, kvant mexanikasının, formal məntiqin natamamlığının kəşfi təbiətdə qarmaqarışıqlığın mövcudluğundan, öngörmənin bir çox hallarda mümkün olmadığından, müəyyənliklə qeyri-müəyyənliyin bir-birinə qovuşmasından xəbər verdi. Təbiətin insani sifətə malik olduğu, insana bənzədiyi, irrasionallığı, tərəddüd etmə xasiyyəti, qızdırma içində ola bilməsi, titrəməsi, nə edəcəyinin məlum olmaması məlum oldu. Canlı və cansız təbiətdə, eləcə də insan cəmiyyətində mütləq bilik və mütləq nəzarət yoxdur və bu, mümkün deyil[6].

Elmlərin şahı, məntiqin tənənəsi sayılan riyaziyyat da təbiətşünaslıqdakı titrəmə və böhranlardan, dəyərlərin pozulmasından kənarda qalmadı. Evklidin 5-ci, yəni paralellik postulatının yaratdığı paradiqm (Tomas Kunn'un deyimincə), yəni paralellik postulatının mütləqliyinin şübhə altına

[5]The Richness of Life: The Essential Stephen Jay Could. Editor: Steven Rose. W.W. Norton & Company, 2007

[6]Ilya Prigogine. The Philosophy of Instability. "Futures", 1989; p. 396-400

alınması yeni riyazi sahənin, yəni məntiqi cəhətdən ziddiyyətsiz Qeyri-Evklid həndəsəsinin yaranmasına səbəb oldu. Bir postulatın dəyişdirilməsi nəticəsində alternativ nəzəriyyələrin, həndəsələrin mövcudluğu ortaya çıxdı (C.F. Gauss, N.İ. Lobaçevskiy, János Bolyai). Riyaziyyatdakı bu yeniliyi Kopernik-Qaliley-Kepler inqilabı və onun antropoloji nəticələri ilə (insan kainatın mərkəzində deyil, heç Günəş sisteminin də mərkəzində deyil) müqayisə etmək olar. Bu, nisbilik nəzəriyyəsinin kəşfi ilə təbiətdə mövcud olan (ancaq insan zəkasının, mücərrəd təfəkkürün məhsulu olmaqla qalmayan) həndəsəyə çevrildi. Darvin və Freud'un kəşfləri insanı bir daha dünyanın mərkəzi deyil, təkamül nəticəsində bu günə gəlib çatmış bioloji varlıq kimi səciyyələndirdi, şüurla yanaşı şüur altında yatan nəhəng gücün-bilinaltının rolunu açıb göstərdi. Tarazlığı, dayanıqlığın pozulmasını, irrasionallığı rasional şəkildə mənimsəmək cəhdləri zəruri oldu.

Təbiət elmlərində də ehtirasın baş alıb getdiyi, cəbhələşmə əmələ gəldiyi hallar olur (riyaziyyatda - intuisionizm və konstrutivizm, D. Hilbert, L.E.J. Brouwer, H. Weil, K. Godel; fizikada - kvant fizikasının əsaslandırılması, nisbilik nəzəriyyəsi, vahid meydan nəzəriyyəsi...). Lakin burada hər kəsi qane edən, inandıran, mübahisənin söykəndiyi riyazi-məntiqi-təcrübi isbat və sınaq var!

Fluktuasiya zamanı təsadüf rol oynayır, nə olacağını, nə baş verəcəyini demək, fəhm etmək olmur, bir hissəcik və ya bir qrup hissəciklər sistemi yeni bir hala apara bilir. Sonra dayanıqlı hal alınır, tarazlıq baş verir, "qanunlar", "normalar" işləməyə başlayır. Müəyyən determinizm əlamətləri özünü göstərir (yeni bifurkasiyaya qədər). Tarixin gedişi belə deyilmi? Bəşər övladının yolu enişli, yoxuşlu, döngəli, yolu azmaq, yana və geriyə getməklə dolu deyilmi? O başqa cür də, başqa yolla da gedə bilərdi... Bunun metodoloji, evristik dəyəri, zənnimcə, şübhə doğurmamalıdır. Hər yolun gedilməsi ehtimalı mövcuddur, hərçənd ki bu ehtimalları hesablamaq çətin işdir, hansının daha böyük, hansının daha kiçik ehtimalla baş verməsini araşdırmaq daha ağlabatandır... Böhran vəziyyətlərində, inqilablarda hadisələrin gedişi sanki dumana bürünür, hisslər, ehtiraslar, şəxsi iddialar işə düşür, onlar axını öz arxalarınca aparmağa çalışır və bir sıra hallarda buna müvəffəq olurlar.

Sosial sistemlər ölə bilər, onların içində yetişmiş mədəniyyət isə davam edə bilir (yox olmuş, çökmüş sivilizasiyalar kimi).

Fransız bioloqu, biokimyaçı və filosof, Nobel mükafatçısı **Jacques Monod** (1910-1976) "Təsadüf və Zəruriyyət" (Orijinalda: "Le hasard et la nécessité, 1970) əsərində "həyat tam təsadüfün məhsuludur" tezisini əsaslandırmağı özünə məqsəd qoymuşdu. "Təkamülün kökündə təmiz, tam təsadüf, mütləq, amma kor azadlıq durur[7]!. Təbiətin əsas postulatı "heç bir plan, niyyət yoxdur" müddəasından ibarətdir. O, Demokritosun fikrinə istinad edir: "Kainatda mövcud olan hər şey təsadüf və zəruriyyətin məhsuludur". J. Monod azad iradənin, seçimin üstün rolunu, üstün dəyərini əsas etik prinsip olaraq irəli sürür. Fəlsəfənin əsas problemlərindən biri bilik və dəyər sferaları (şahlıqları) arasındakı münasibətdir. Bilik mövcud olan, var olandır, dəyər isə olması istənilən, arzu olunan, nəzərdə tutulandır. Dəyərlər sistemini bilik sistemindən almaq, məntiqin gücü ilə əldə etmək mümkün deyil.



Jacques Monod

Qanun, ümumiyyətlə, təşkiledici ünsürlər arasında ümumi terminlərlə ifadə oluna bilən əlaqə və ya əlaqələr qrupudur. Humanitar və sosial elmlərdə bu təşkiledici ünsürlər hissi xarakterlidir, canlıdır, ehtiraslıdır, dəyişkəndir. Onların necə dəyişdiyini hər zaman bilmək olmur. Bu səbəbdən burada təbiət elmlərinə bənzər qanunlar tapmaq olmur. Şüur azad iradəni yönəldir, lakin o, tam hakim deyil, böyük bilincaltı, aysberqin bu görünməyən böyük alt tərəfi gözəgörünməz və güclü, bəzən də həlledici rol oynayır. Şüur özü də heç də həmişə məntiqə və təfəkkür qanunlarına boyun əymir, onları kefi istədiyi şəkildə poza bilir. Üstəlik, cəmiyyət və onun normaları bu azad iradəni hər zaman sıxışdırmaqdadır. Tarix subyektivliyin, fərdin azad iradəsinin və obyektivliyin, cəmiyyətin istəklərinin üzvi vəhdətidir. Aşağıdakı sxem bu qarşılıqlı təsirləri göstərir:

Fərd ↔↔↔↔↔Cəmiyyət
↕ ↕
Azad iradə ↔↔↔Normalar

Ümumiyyətlə, yeni ideyaların yaranması (generasiyası, dizaynı, şəkilləndirilməsi) Nietzsche'yə görə xüsusi baxışlardan, perspektivlərdən, paradiqmlərdən qaynaqlanır. Konseptual sxemlər, həqiqət olaraq axtardığımız perspektivlər çoxdur, çoxsaylıdır. Yəni mütləq və tək həqiqət yoxdur, bir çox perspektivlər var, əlbəttə ki, onlar eynigüclü deyillər (Perspektivizm nəzəriyyəsi). İspan filosofu José Ortega y Gasset (1883-1955) də bu cərəyanın tərəfdarıdır.

(davam edəcək)

[7]Jacques Monod. Chance and Necessity: An Essay on the Natural Philosophy of Modern Biology. Vintage Books. 1972

SƏNƏDLƏR SİRLƏRİ AÇIR

Vatikanın məxfi arxivindən gətirilən sənədlərdə Azərbaycan tarixinə aid indiyədək açılmamış çox mühüm məlumatlar var



"Vatikanın məxfi arxivindən Azərbaycana gətirilən məktublarda və hesabatlarda hətta elə məlumatlar var ki, indiyə qədər Azərbaycan tarixində bununla bağlı heç nə deyilməyib. Sadəcə, hazırda bu, araşdırma mərhələsindədir. Ona görə də vaxtından əvvəl bu barədə nəsə demək olmaz". Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun tərcümə və informasiya şöbəsinin müdiri Fərid Ələkbərli deyib.

F. Ələkbərli bildirib ki, məxfi arxivdən gətirilən məktubların əksəriyyətini papaların Azərbaycanı idarə edən sülalələrin hökmdarlarına göndərdiyi məktublar təşkil edir: "Cavab məktubları da var. Məktubların böyük əksəriyyəti Səfəvi hökmdarlarına göndərilən məktublardan ibarətdir. Düzdü, orada başqa Azərbaycan hökmdarlarına, Elxanilərə, Atabəylərə göndərilən məktublar da var. Amma böyük əksəriyyəti Səvəfilərə, Əfşarlara, Qacarlara göndərilən məktublardır. Səfəvi hökmdarlarına göndərilən məktubların arasında Şah Təhmasibə və Şah Abbasa göndərilən məktublar üstünlk təşkil edir. Bununla yanaşı, Şah İsmayıla, Şah Süleyman Səfəviyə, Şah Sultan Hüseyn Səfəviyə də məktublar var. Bu məktublarda siyasi məsələlər, mədəni əlaqələr, ikitərəfli sazişlər və s. müzakirə olunur".

F. Ələkbərli bildirib ki, məxfi məktublarda Səfəvi-Osmanlı münasibətlərinə dair məlumatlar da var: "Səfəvilər Osmanlı dövləti ilə müharibədə olub. Şah İsmayıldan tutmuş Şah Abbasa qədər, hətta sonralar da Səfəvilər dövləti ilə Osmanlı imperiyası şiddətli müharibələr aparıb. Sözsüz ki, bu, müsəlman-türk dünyasının faciələrindən biridir. Amma bu, tarixi faktdır. Vatikandan gələn məxfi məktublarda elə məlumatlar var ki, o məlumatlar vasitəsilə tariximizi daha dərindən öyrənə bilərik. Bu məlumatların hamısı tərcümə olunmalıdır. Tərcümə prosesi müəyyən vaxt aparacaq. Artıq latın dilini bilən mütəxəssislər bu prosesə cəlb olunublar. Sənədlərin əksəriyyəti latın dilindədir. Bununla yanaşı, qədim italyan və fransız, ərəb-fars, qədim uyğur dillərində sənədlər də var. Qədim italyan və fransız dillərini bilən mütəxəssis bizdə azdır. Bu mütəxəssislərin də cəlb edilməsi yönündə işlər aparılır. Tərcümə işi kifayət qədər mürəkkəb proses olacaq. O dövrün dilini, tarixini, terminlərini dərindən bilmək lazımdır. Bu məktublarda eyhamlar, gizli mənalar var. Hər hansı sözü bir neçə variantda tərcümə etmək olar. Bununla da, mətnin mənası tamam dəyişə bilər. Buna görə tərcümə prosesinə məsuliyyətlə yanaşmaq lazımdır. Məktublar tərcümə olunandan sonra onların əsasında tarixi təhlillər aparıla bilər".

Şöbə müdiri qeyd edib ki, məxfi məlumatlar üzərində tərcümə prosesinə artıq başlanıb: "Birbaşa bütün məktublar tərcümə olunmur. Onların arasından daha mühümləri seçilib. Tədqiqat materialı həddindən çoxdur. Məktublar müxtəlif sahələri, müxtəlif dövrləri əhatə etdiyi üçün bir mütəxəssisin bunların hamısını öyrənməsi çətindir. Əvvəl Səvəfilər dövrü və latın dilində olan sənədlər tərcümə olunacaq. Çünki bu dövrə aid həm material çoxdur, həm də onların arasında latın dilində sənədlər üstünlük təşkil edir. Səfəvilər dövrü Azərbaycan tarixinin mühüm mərhələlərindən biridir. Səfəvi dövləti yaranarkən türk Azərbaycan dövləti kimi yaranmışdı. Şah Abbasın dövründə fars elementləri güclənməyə başladı. Amma yenə də bu dövlət Azərbaycan-türk dövləti olaraq qalırdı. Səfəvilər dövləti Azərbaycan dövlətçiliyinin şanlı tarixidir. Bunun üçün də Səfəvilər dövrünə, xüsusən də ilk Səfəvi şahlarına - Şah İsmayıla və Şah Təhmaibə aid materiallar bizim üçün həddən artıq vacibdir".

F. Ələkbərli deyib ki, məxfi məlumatlara əsasən, məlum olub ki, missionerlər Azərbaycanda XII əsrdən etibarən fəaliyyət göstərməyə başlayıblar. Missionerlərlə yanaşı, Vatikanın nümayəndələri də Azərbaycanda xristianlar yaşayan bəzi ərazilərdə fəaliyyət göstəriblər. Onlar yerli xristian əhalisi ilə işləyib, dini yaymağa çalışıblar: "Bu məlumatlarda onlar Azərbaycan haqqında geniş bilgi veriblər. Azərbaycanın əhalisi, şəhərləri, ticarətin, iqtisadiyyatın inkişafı, kənd təsərrüfatı, ticarət yolları, hətta bazarlarda olan qiymətlər haqqında geniş məlumatlar yazıblar. Azərbaycanın hansı yerlərində hansı hakim-

lər, əmirlər hakimiyyətdədir, onların adları nədir - bu məlumatlar da hesabatlarda qeyd olunub. Bu məlumatların da tərcüməsi nəzərdə tutulur. Bu proses mərhələ-mərhələ həyata keçiriləcək. Hazırda həmin məlumatlar qeydə alınır və surətləri çıxarılır. Bütün bu materialların rəqəmli sürətləri olacaq".

F. Ələkbərlinin sözlərinə görə, missioner hesabatları daha çox Səfəvilər dövrünə aiddir: "Bu hesabatlarda xeyli maraqlı materiallar var. Bunlar geniş hesabatlardır. Bəziləri 50-70 səhifəlikdir".

Ümumilikdə, məxfi məlumatlar XII əsrdən, Elxanilərin dövründən XIX əsrə, Qacarların hakimiyyətinin sonuna qədər olan dövrü əhatə edir. Bu məlumatların arasında XX əsrin əvvəllərinə aid məktublar da var: "Onların arasında Azərbaycan Demokratik Respublikasının Türkiyədəki səfiri Yusif Vəzir Çəmənzəminlinin Vatikana məktubu və Vatikanın ona cavabı da maraqlıdır. ADR və Vatikan birgə İstanbulda Papa Benediktə heykəl qoymaq istəyib, bunun üçün müəyyən qədər pul da ayrılıbmış. Amma bu baş tutmayıb. Bir tərəfdən Türkiyədə sultan hakimiyyətinin süqutu və Türkiyə Respublikasının yaranması, digər tərəfdən ADR-in süqutu buna mane olub. Bu, 1919-cu ilə aid məktubdur".

Məlumatlarda Vatikan kilsəsinin XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda apardığı missionerlik fəaliyyəti haqqında da məlumatlar var: "O dövrdə Vatikan Azərbaycandakı xristian əhalinin katolik məzhəbinə keçməsinə çalışırdı. Onlar təkcə Azərbaycanda yox, Ermənistan və Gürcüstanda da fəaliyyət göstərirdilər. Ermənistandan olan ermənilərı katolik etməyə çalışırdılar, bu məqsədlə bir neçə katolik məktəb də açmışdılar. Belə məktəblər Azərbaycanın bir çox şəhərində, o cümlədən də Cənubi Azərbaycanda - Urmiyada, Təbrizdə də açılmışdı. Bu məktəblərdə həm xristian dinini qəbul etmiş müsəlmanlar, həm də ermənilər təhsil alırdı. Sonradan katolik məzhəbinin nüfuzu zəifləyəndən sonra onların bəziləri yenidən Qriqorian dininə qayıtdı. XIX əsrin sonu, XX əsrin əvvəllərində Vatikan tərəfindən Zaqafqaziyada bu fəaliyyətə müəyyən pullar ayrılırdı. Katolik məktəblərinin maliyyələşməsində Fransa hökumətinin də birbaşa payı vardı. Bunlar hamısı məxfi idi. Bu məlumatlar Azərbaycan tarixinin çox maraqlı məqamlarına aydınlıq gətirəcək. Sadəcə, bu məlumatları çox diqqətlə öyrənmək lazımdır".

Qeyd edək ki, Vatikanın məxfi arxivlərində Azərbaycana aid tapılan sənədlərin surəti bu il dekabrın 7-də Bakıya gətirilib. Sənədlər ümumilkdə 1000 səhifə həcmindədir.

Kəmalə Quliyeva

AZƏRBAYCAN QANDZASAR KİLSƏSİNİN TARİXİ BARƏDƏ SENSASİYALI MƏLUMATLAR AÇIQLAYIB



Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin Siyasi araşdırmalar və analitik təhlil sektorunun müdiri Fuad Axundov Trend-ə bildirib ki, əldə olunmuş tarixi sənədlərdə ermənilərin özlərinin "Notrdam" adlandırdıqları kilsənin tarixən qədim albanlara aid olması müəyyən edilib.

"Hətta erməni əsilli məşhur sovet alimi İosif Orbelinin 1919-cu ildə kilsənin tarixi ilə bağlı yazdığı kitab həmin ildə də aradan çıxarılıb. Çünki ermənilərin Qarabağı özününküləşdirməyə cəhd göstərdikləri dövrdə kitab Qandzasar kilsəsinin tarixi alban mədəniyyəti abidəsi olmasını sübut edirdi", - o deyib.

Fuad Axundov qeyd edib ki, əldə olunmuş materiallar **www.erevangala500.com** saytında yerləşdiriləcək.

Onun sözlərinə görə, gələcəkdə bütün materiallar toplandıqdan sonra kitab şəklinə salınması da gözlənilir.

Qeyd edək ki, Dağlıq Qarabağ ərazisi Azərbaycan xalqının etnogenezinin elementini təşkil edən Qafqaz albanlarının əsas əyalətlərindən biri olub. Onun ilkin adı olaraq "Arsaq" ifadəsinə ilk dəfə Zərdüştilüyün müqəddəs kitabı olan Avestada rast gəlinir. Həmin dövrdə Zərdüştlük Albaniyada geniş yayılmışdı. Eramızın dördüncü əsrinin əvvəllərində isə xristian dini Qafqaz Albaniyasının rəsmi dövlət dini elan edilib və Alban kilsəsi xristianlığın ən qədim kilsələrindən biri hesab edilib.

Alban katalikosluğunun iqamətgahı əvvəlcə Dərbənddə, Qəbələdə, Bərdədə yerləşirdisə, sonrakı iqamətgah 13-cü əsrdə Qandzasar kilsəsi olub. Onun tikilməsi Alban milli kimliyinin intibah dövrünə təsadüf edir. Həmin dövrdə yaradılan Xaçın knyazlığının çarı Həsən Cəlali özünü bütün albanların çarı elan etmişdi. Qafqaz Albaniyasında yaşayan albanlar öz milli kimliyini 19-cu əsrə qədər qoruyub saxlamışdılar. Hələ 1720-ci illərdə Dağlıq Qarabağda yaşayan xristianlar özlərini alban hesab edirdilər və Qafqaz Albaniyasının qısa tarixi əsərinin yazılması bunu bir daha sübut edir.

TARİX NECƏ YAZILIR (POZULUR?!) VƏ YA BİR SƏRNİCİN TARİXİ

İsaxan İsaxanlı



"Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Sergey Yesenin" adlı kitabım[1] üzərində işlədiyim dövrdə bu məsələ ətrafında çoxsaylı insanlarla – şairlərlə, tərcüməçilərlə, tədqiqatçılarla, kitabxana işçiləri ilə, muzey əməkdaşları ilə və bir sıra digər, sadəcə, Yeseninin Bakı həyatına aidiyyəti ola biləcək insanlarla görüşüb söhbət edirdim. Onlardan bəziləri ilə əyani şəkildə görüşür, məni maraqlandıran məsələlər haqqında fikir mübadiləsi edir, bəziləri ilə telefon vasitəsilə ünsiyyətdə olurduq. Yeri gəlmişkən, yuxarıda adı çəkilən kitabın ərsəyə gəlməsində rolu olan bu insanlara bir daha təşəkkür edirəm. Görüşdüyüm insanlarla söhbətlərimizin nəticələrini bu və ya digər formada həmin kitabda verməyə çalışmışam. Bir məsələdən başqa. Kitab işıq üzü gördü, amma bu məsələ hələ də mənə dinclik vermir ki, vermir.

2010-cu il iyun ayının 14-də növbəti dəfə Yeseninin Mərdəkandakı xatirə muzeyinə getmişdim. Muzeyin əməkdaşı Nəzakət İbadova ilə söhbətimiz zamanı diqqətim muzeydə olan eksponatlardan biri üzərində – ilk baxışda çox qədimi görünən "tarixin yadigarı bir sərnic" üzərində cəmləşdi. Sərnicin diqqətimi çəkdiyini görən Nəzakət xanım söhbətə başladı: "Bu sərnicdə Şağan (rus dilində Şaqan) kəndindən olan çadralı bir qız hər səhər Yeseninə süd gətirərmiş. Şairin "Persidskiye motivi" silsiləsində vəsf etdiyi məşhur Şahanə (rus dilində Şaqane) həmin o qızdır". Əlbəttə, bu məsələ ilə bağlı, həmin dövrdə artıq mənim öz fikrim formalaşmışdı. Odur ki, gözümün önündə duran sərnic fikirlərimi tamamilə dolaşdırır, "səyyar xəyal məni öz dünyamdan qoparırdı[2]". Hətta kitabımda vermək üçün (təbii ki, öz tədqiqatçı süzgəcimdən keçirdikdən sonra) sərnicin, indi burada sizə təqdim olunan, bir şəklini də çəkdim. Nəzakət xanımdan "bu mövzuda daha kimlərlə söhbət etmək olar" – deyə sorduğumda, o, "Kəmalə xanımla görüşün, o sizə daha maraqlı məlumatlar verə bilər, əvvəllər burada işləyib, bu məsələlərlə bağlı çox məlumatlıdır" – deyə, sözlü bir adama oxşayırmış kimi, Kəmalə xanımın[3] telefon nömrəsini mənə uzatdı.

Artıq axşama doğru idi və muzey bağlanmaq üzrə idi. "Evə gəldim, can pərişan[4]". İçimdə nə isə bir narahatlıq hiss edirdim. Təxminən saat 8-9 radələrində Kəmalə xanıma telefon etdim. Məni çox mehriban qarşıladı, işimdə mənə uğurlar diləyərək muzeyin fəaliyyəti ilə bağlı xeyli maraqlı məlumatlar verdi. Söhbətimiz çox səmimi alınırdı və mənim "Kəmalə xanım, muzeydəki sərnic nə vaxt tapılıb və ümumiyyətlə onunla bağlı nə deyə bilərsiniz?" sualımı gözləyirmiş kimi, Kəmalə xanım ürəyini boşaltmağa başladı: "Doxsanıncı illərin ortaları idi. Bir dəfə muzeyin direktoru Nəbi müəllim[5] bizi – muzeyin əməkdaşlarını yanına çağırıb bir toplantı keçirdi: "Ermənilər bizim torpaqlarımıza, əsərlərimizə, musiqimizə, ümumilikdə mədəniyyətimizə şər ataraq sahib çıxırlar və bunun qarşısını almaq mümkün olmur. Bəs biz niyə sakit oturmuşuq? Bilirsiniz ki, Yeseninin "Persidskiye motivi" silsiləsinin qəhrəmanı Şahanə adlı bir qızdır. Ermənilər onu da ermənileşdirib Şaqane ediblər. Biz də sakitcə durub baxırıq. Mənim bir təklifim var. Bu gündən etibarən muzeyimizə gələn bütün

[1] Adı çəkilən kitab 2010-cu ilin sentyabrında çapdan çıxdı
[2] Səməd Vurğunun "Unudulmuş tək məzar" şeirindən
[3] Kəmalə Zeynalova. Filologiya elmləri üzrə fəlsəfə doktoru. Hazırda Nizami adına Milli Ədəbiyyat Muzeyində işləyir
[4] Səməd Vurğunun "Unudulmuş tək məzar" şeirindən
[5] Ad şərtidir

insanlara Şahanənin Şağan kəndindən olan bir azərbaycanlı qız olduğunu deməliyik və bununla bağlı ortalığa "əsaslı" bir dəlil də qoymalıyıq. Bir qədimi sərnic tapıb muzeyə qoyaq və "Şahanənin hər səhər Yeseninə sud gətirdiyi bu sərnici" hər kəs gəlib gözləri ilə görsün və bilsinlər ki, Yeseninin vəsf etdiyi o qız erməni yox, azərbaycanlıdır".

Bundan sonra Nəbi müəllim mərkəzi qəzetlərdən birində, səhv etmirəmsə, "Zerkalo" qəzetində bu məsələ ilə bağlı məlumat xarakterli kiçik bir yazı da dərc etdirdi *(Kəmalə xanımın yaddaşı onu aldatmırdı. Adı çəkilən yazı 1999-cu ildə "Zerkalo" qəzetinin 7 avqust tarixli 70-ci nömrəsində dərc olunmuşdu. Kəmalə xanımın bu məlumatından sonra, çətinliklə də olsa, həmin yazını əldə edə bildik – İ.İsaxanlı*[6]*)* və beləcə, siz soruşduğunuz o sərnic tarixə düşdü. Amma, əslində, o sərnicin Yeseninlə heç bir əlaqəsi yoxdur".

Kəmalə xanım bir az nəfəsini dərib davam etdi: "Əlbəttə, bütün bu məsələlərə görə bir tədqiqatçı kimi sizin bizi tənqid etmək haqqınız da var. Amma bircə onu deyim ki, Nəbi müəllim bütün bunların hamısını ermənilərin alçaqlıqlarına dözə bilmədiyi üçün və öz vətənini, öz xalqını, öz millətini hədsiz sevdiyi üçün etmişdi".

Kəmalə xanımla söhbətimiz başa çatdı. Amma fikir məni götürmüşdü. Onsuz da o sərniclə bağlı içimdə müəyyən ciddi şübhələrim var idi. Mən tələbəlik illərimdə (1979-1984) adı çəkilən muzeydə olmuşdum və o zaman orada heç bir sərnic yox idi və belə bir versiya da mövcud deyildi. Əlbəttə, nəzəri olaraq bu mümkündür – sərnic sonralar da tapıla bilərdi. Amma istənilən halda içim rahat deyildi. Əvvəlcə bu məsələni "Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Serqey Yesenin" adlı kitabımda yazmaq istədim, amma son anda qərarımı dəyişdim. Görünür, ya cürətim çatmadı, ya da bu hekayəti qəlbimdə gizləyə biləcəyimi düşündüm. Mümkün olmadı. Bəlkə də bu yazıya görə məni qınayanlar da olacaq (mütləq olacaq!). amma istənilən halda, tarixin bilə-bilə, gözlərim önündə saxtalaşdırıldığını görə-görə, "bu dərdi sinəmdə qala, qoymaram[7]!" Çox düşündüm, "ermənilər bizim torpaqlarımıza, əsərlərimizə, musiqimizə, ümumilikdə mədəniyyətimizə şər ataraq sahib çıxmaq istəyirlər və bunun qarşısını almaq mümkün olmur" – deyə, bizim də nəyisə saxtalaşdırmağa ehtiyacımız varmı? Saxta iddiaların qarşısını almaq üçün saxtalıqmı etmək lazımdır? Özü də ilk baxışdan vacib görünən, əslində isə dərin bir mənası olmayan məsələ ilə bağlı! Yeseninin nəzərdə tutulan şeirlərinin ünvanının kimliyi dəqiq məlum olduğu halda[8], heç nəyə əsaslanmayan, sensasiya xarakterli belə versiyaları ortaya atmağa, reallığı və həqiqəti "zorlamağa" nə ehtiyac var?!

Bu yazını dərc etdirmək qərarımı kəsinləşdirdikdən sonra Kəmalə xanımla bir neçə dəfə yenidən telefon danışığımız oldu. Son danışığımız 2011-ci il



noyabr ayının 17-də oldu: "Kəmalə xanım, mən bu məsələni yazmaq qərarına gəlmişəm. Amma, yuxarıda dediyim kimi, mümkündür ki, bu məsələ ilə bağlı məni qınayanlar da olacaq. Mən buna hazıram. Lakin burada sizin də adınız çəkilir. Əgər adınızın olduğu kimi çəkilməsini istəmirsinizsə, mən şərti bir ad göstərə bilərəm. Xahiş edirəm fikrinizi bildirəsiniz" – deyə ona müraciət etdim. Kəmalə xanım telefonda bir qədər düşündükdən sonra: "Yaxşı, əgər sizi qınayanlar olacaqsa, qoy ikimizi də birlikdə qınasınlar. Mən də buna hazıram" – deyə gülümsəyərək, eyni zamanda inamlı səslə cavab verdi.

---

[6] *Шаганэ, ты моя, Шаганэ!* «Зеркало» qəzeti, 1999, 7 avqust

[7] "Koroğlu" dastanından

[8] *Белоусов В.Г.* Персидские мотивы. Москва, «Знание», 1968, стр.26-45

Artıq hər şeyi olduğu kimi yaza bilərdim.

Qeyd edim ki, bu məsələ ilə bağlı Nəbi müəllimi və "onun komandasını" ittiham etmək fikrindən tam uzağam. Şübhəm yoxdur ki, bu məsələdə Nəbi müəllimin vətən eşqi, millət sevgisi, xalq məhəbbəti həqiqətə üstün gəlmişdir. Amma heç narahat olmağa dəyməz. Yeseninin bircə "Əlvida, Bakı!"-sı nəyə dəyər! "Persidskiye motivı" silsiləsindən məlum şeirləri isə, kimə həsr edilməsindən asılı olmayaraq, sadəcə, gözəl, lirik sevgi nəğmələri kimi qəbul etmək lazımdır.

Amma bununla belə, əks fikirdə olmaq istəyənlərə kömək məqsədi ilə bir fakt demək istəyirəm.

V.İ. Kaçalovun 1927-ci ildə qələmə aldığı "Vstreçi s Yeseninım" adlı xatirələrində belə bir məqam var: "Həmin ilin iyun ayında bizim teatr Bakıya qastrola gəldi *(Bədii teatr Bakıda qastrolda iyun ayında deyil, 1925-ci il 15-20 may aralığında olmuşdur – İ.İsaxanlı)*. Bizi bu şəhərlə yaman qorxutmuşdular: toz-torpağı, isti Bakı küləyi, neft iyi, bürkü və s. Gözəl Tiflisdən ayrılmaq istəmirdik. Amma indi budur, Bakıda "Yeni Avropa" otelinin restoranının qülləsində oturmuşam. Əntiqədir. Toz elə tozdur, külək elə küləkdir, dəniz də elə dənizdir, duzlu suyun iyisi altıncı, yeddinci mərtəbəyə qalxır. Gənc, mehriban görkəmli, qarayanız bir qız içəri girir və soruşur.

- Siz Kaçalovsunuz?

- Kaçalovam, - deyirəm.

- Tək gəlmisiniz?

- Yox, teatrla bir yerdə.

- Özgə heç kəsi gətirməmisiniz?

Çaşıb qalıram:

- Arvadım, yoldaşlarım mənimlədir, deyirəm.

- Bəs Cim sizinlə deyil? – o, az qala qışqırdı.

- Yox- deyirəm, Cim Moskvada qaldı.

- Ay-ay, Yesenin qəmdən öləcək, artıq iki həftədir burda, xəstəxanadadır, elə hey sayıqlayır, Cim deyib, Cim eşidir, həkimlərə deyir: "Heç bilirsiniz, o necə itdir! Əgər Kaçalov Cimi bura gətirsə, o dəqiqə sağalacam. Onun pəncəsini əlimə alacam və sapsağlam olacam, onunla dənizdə çimərəm". Qız qəmli-qəmli məndən aralandı. "Nə etmək olar, gərək Yeseninı bir təhər hazırlayam ki, Cimdən əlini üzsün".

Sonradan aydın oldu ki, o, həmin Şahanə imiş, fars qızı".

Düşünürəm ki, "sərnic icad etmək" əvəzinə yazılı mənbələrə istinad edərək reallıq kimi görmək istədiyin fikri əlavə faktlarla, faktlar olmasa, əlavə mülahizələrlə gücləndirməyə çalışmaq daha doğru olardı.

MƏDƏNİYYƏT

HOLLİVUDDA "ƏLİ VƏ NİNO" FİLMİ ÇƏKİLƏCƏK

Oskar mükafatı laureatı əsərin teleekran versiyasının ssenarisini hazırlayacaq



Yaxın zamanlarda Hollivudda Məhəmməd Əsəd bəyin (Qurban Səid) müəllifi olduğu "Əli və Nino" əsəri ekranlaşdırılacaq. APA-nın "Hollywood Reporter" nəşrinə istinadən verdiyi məlumata görə, Oskar mükafatı laureatı Kristofer Hempton Azərbaycan əsərinin teleekran versiyasının ssenarisini hazırlayacaq. Britaniyanın "PeaPie Films" şirkəti filmin çəkilişinə dair müəlliflik hüququ əldə edib və yaxın zamanlarda müvafiq işlərə start veriləcək.

Kristofer Hempton "Əli və Nino" əsərinin təsirindən uzun müddət çıxa bilmədiyini deyib: "Kitabı oxuduğum andan mən bu əsərin neçə gözəl ərsəyə gətirildiyinə valeh oldum və onun ilk dəfə dərc edildiyi vaxtda olduğu kimi indi də aktuallığını və əks-səda yaratmaq qabiliyyətini saxladığının şahidi oldum".

Xatırladaq ki, Kristofer Hempton "Təhlükəli əlaqələr" (Dangerous Liaisons) əsərinin teleadaptasiyasına görə 1988-ci ildə Oskar mükafatına layiq görülüb.

"M.F. AXUNDZADƏ" İLİ

2012-ci il TÜRKSOY çərçivəsində "Mirzə Fətəli Axundzadə ili" elan edilib

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin TÜRKSOY çərçivəsində qeyd edilməsi təklifi təşkilat tərəfindən qəbul olunub və 2012-ci il TÜRKSOY çərçivəsində "M. F. Axundzadə ili" elan edilib. Nazirlikdən APA-ya verilən məlumata görə, hazırda "M. F. Axundzadə ili"nin TÜRKSOY-a daxil olan bütün ölkələrdə yüksək səviyyədə keçirilməsi məqsədilə tədbirlər planı hazırlanmaqdadır.

Gələn ilin yanvar ayında Ankara şəhərində "M. F. Axundzadə ili"nin rəsmi açılış mərasiminin keçirilməsi planlaşdırılır.

AKADEMİK ZAHİD XƏLİLOVUN 100 İLLİK YUBİLEYİ

Dekabrın 18-də Xəzər Universiteti və "Borçalı" cəmiyyətinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin konfrans salonunda görkəmli Azərbaycan riyaziyyatçısı Zahid Xəlilovun 100 illik yubileyi münasibətilə mərasim keçirildi. Mərasimdə İctimai TV-nın Zahid Xəlilov haqqında çəkdiyi film nümayiş etdirildi. Filmdə Zahid Xəlilov haqqında əsas məlumatları verən və xatirə söyləyənlər arasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da var idi.

Filmin nümayişindən sonra akademik haqqında çıxışlar oldu. Professor Hamlet İsaxanlı Azərbaycanda riyaziyyat elminin inkişafında Z. Xəlilovun rolu barədə məruzə etdi. Mərasimdə, həmçinin, Z. Xəlilov haqqında yeni çap olunmuş "İstinad nöqtəsi" kitabı da təqdim edildi. Kitabda H. İsaxanlının yazdığı "Yüksək riyazi mədəniyyət və kübarlıq təcəssümü" məqaləsi də yer alıb. *(Məqalə jurnalın gələn nömrəsində çap olunacaq).*

"DÜNYA" MƏKTƏBİNDƏ YENİ İL ŞƏNLİYİ

Dekabrın 20-də "Dünya" məktəbliləri Yeni il bayramını və 2011-ci ilin son dərs gününü böyük sevinclə qeyd etdilər. Məktəbin zalında təşkil olunan yolkanın ətrafına yığılan məktəblilər rəqslərlə, mahnılarla, tamaşalarla həm əyləndilər, həm də zaldakıları əyləndirdilər. Şaxta Baba və Qar Qızın keçirdiyi oyunlar zamanı məktəblilər hədiyyələr də qazandılar. Beləcə, daha bir il xoş xatirələrlə yaddaşlara köçdü. "Dünya" məktəbinin kollektivi bütün azərbaycanlıları Həmrəylik günü və Yeni il münasibətilə ürəkdən təbrik edir. *(Fotolar səh. 79-da).*

İCTİMAİ TV-NİN "AİLƏ-ALƏM" PROQRAMINDA

Dekabrın 21-də Təhsil Nazirliyi və İctimai Televiziyanın birgə hazırladığı birillik "Ailə-Aləm" proqramının final mərhələsi oldu. Verilişdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da iştirak etdi və qalib ailələrə hədiyyə təqdim etdi.

SƏNƏDLİ FİLMƏ BAXIŞ

Dekabrın 24-də İctimai Televiziya (I kanal) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqqında film nümayiş etdirdi. Filmdə Azərbaycan Prezidentinin fəaliyyətini təhlil edənlər arasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da vardı.

"XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Hamlet müəllim!

Xəzər Universiteti, həmişə olduğu kimi, Yeni il ərəfəsində də öz xeyriyyəçilik, qayğıkeşlik ənənəsinə sadiq qaldı.

Bütün keçirilən bayramlarda ən əvvəl Xəzər Universiteti kimsəsiz, ana-ata himayəsindən məhrum olan uşaqların görüşünə gəlir, müxtəlif hədiyyələrlə onları sevindirir, bayram əhval-ruhiyyələrini artırır.

Göstərdiyiniz diqqət və qayğıya görə 110 uşaqdan ibarət kollektiv adından və şəxsən öz adımdan bu tədbirin təşkilatçısı Nanə xanım Kələntərovaya, İqtisadiyyat və menecment fakültəsinin tələbə və müəllim kollektivinə və şəxsən Sizə dərin minnətdarlığımızı bildirir, Xəzər Universitetinin bütün kollektivini, professor və müəllim heyətini Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə səmimi - qəlbdən təbrik edir, yeni-yeni təhsil uğurları, elmi nailiyyətlər və cansağlığı arzulayırıq.

Hörmətlə,
Uşaq Evinin direktoru vəzifəsini icra edən:
M.Hüseynova
26 dekabr 2011



"PEŞƏ SEÇİMİNƏ DƏSTƏK SİSTEMİ"

Təhsil Nazirliyində "Peşə seçiminə dəstək sistemi" (PSDS) layihəsinin təqdimatı olmuşdur

Dekabrın 15-də keçirilmiş təqdimat mərasimində nazir Misir Mərdanov, nazirliyin müvafiq şöbə və struktur bölmələrinin rəhbərləri, Türkiyənin "Kavrakoğlu" şirkətinin nümayəndələri - şirkətin təsisçisi Füsun Kavrakoğlu, vitse-prezidenti Asuman Kuzuoğlu və digər qonaqlar iştirak etmişlər.

Layihə barədə məlumat verən A.Kuzuoğlu onun məqsədlərindən bəhs edərək bildirmişdir ki, PSDS ibtidai və orta məktəb şagirdlərinə peşə seçimlərində dəstək göstərmək üçün nəzərdə tutulmuşdur.

M.Mərdanov layihənin əhəmiyyətini qeyd edərək, onun mahiyyətinin geniş ictimaiyyətə çatdırılmasının zəruri olduğunu vurğulamışdır.

Sonra A.Kuzuoğlunun "Təhsildə texnoloji dəyişiklik" mövzusunda təqdimatı da dinlənilmiş və bütün təhsil pilləri üzrə distant təhsilin təşkili imkanları, bu baxımdan informasiya-kommunikasiya texnologiyalarından istifadə məsələləri müzakirə olunmuşdur.

TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2011-2012-ci tədris ili üçün elmi-statistik təhlili

Ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planı 1.68 faiz (435 yer), özəl ali təhsil müəssisələrinin qəbul planı isə 10.39 faiz (474 yer) artıq olub. Ümumilikdə, builki qəbul planında 2.98 faiz (909 yer) artım olub.

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərib ki, 2011-ci ildə Azərbaycan və rus bölmələri ucun ayrılıqda olan plan yerlərinin hesabına hər iki bölmənin birgə müsabiqəsi ucun ayrılan yerlər 33.69 faiz artıb. Planda aparılmış bu cur dəyişiklik müsbət nəticə verib. Çünki Azərbaycan və rus bölmələrinin abituriyentləri bəzən eyni test suallarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tamamilə fərqli keçid balları yaranırdı. Plan yerləri birgə müsabiqə ucun ayrıldıqda isə, həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 86.96 faizi Azərbaycan, 13.04 faizi isə rus bölməsinin abituriyentləri olub. Birgə müsabiqə ucun olan yerləri nəzərə almasaq, bu bölmələrə ayrılmış qəbul planının 89.03 faizi Azərbaycan, 10.97 faizi isə rus bölməsinin payına düşüb. 2007-ci ildə ali təhsil müəssisələrinə qəbul aparılan ixtisasların bölgüsü 5 qrupdan 4-ə endirildikdən sonra tələbə qəbulunda bu il ilk dəfə II ixtisas qrupunun qəbul planı III ixtisas qrupunun qəbul planından yüksək olub. Bu, bir tərəfdən son illər ərzində iqtisadiyyat və idarəetmə sahəsində ixtisaslar üzrə qəbul planlarının artması ilə, digər tərəfdən cari ildə "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarının III ixtisas qrupundan II ixtisas qrupuna keçirilməsi ilə bağlıdır.

TƏHSİL NAZİRLİYİNİN QRİFİ İLƏ

Təhsil Nazirliyi 2011-ci ildə 1669 əlyazmasına çap hüququ verib

2011-ci il ərzində ali və orta ixtisas təhsili müəssisələrindən daxil olmuş 1700 adda proqram, dərslik, dərs vəsaiti və metodik vəsaitin əlyazması Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının müvafiq bölmələrinə müzakirəyə göndərilib. Həmin müzakirələrdən sonra çapa məsləhət görülən və ya tövsiyə edilən 1669 adda əlyazması mövcud qaydalara uyğun olaraq sənədləşdirilib və rəhbərliyə təqdim olunaraq təsdiq edilib.

Ötən il ərzində 990 adda proqrama, 145 adda dərsliyə, 314 adda dərs vəsaitinə, 220 adda metodik vəsaitə Təhsil Nazirliyinin əmri ilə nəşr hüququ (qrif) verilib.

ATTESTAT QİYMƏTİ... VƏ QƏBUL İMTAHANLARI

Bu il Azərbaycanda orta məktəbi 5 qiymətlə bitirən məzunların yalnız 65,12 faizi qəbul imtahanlarında attestat qiymətini təsdiq edə bilib



Bu barədə dekabrın 28-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə deyib.

O, eyni zamanda bildirib ki, orta məktəbi bütün fənlərdən 3' qiymətlə başa vuran şagirdlərin 97,52 faizinin qəbul imtahanında nəticələri çox zəif - 0-200 bal intervalında olub. Bu il qəbul imtahanlarında iştirak edən 103 min 185 abituriyentdən 38,66 faizi 0-100, 23,78 faizi 100-200, 15,75 faizi 200-300, 16,53 faizi 300-500, 5,27 faizi isə 500-700 bal toplayıb. Abituriyentlərdən 1476 nəfəri 600 baldan yuxarı nəticə göstərib. Yüksəl ballı abituriyentlər respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini əhatə ediblər. Yüksək nəticə göstərənlər I qrupda 331, II qrupda 364, III qrupda 323, IV qrupda 458 nəfərdir.

DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULUNUN PROQNOZU

Azərbaycanda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu açıqlanıb

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 oktyabr tarixli 336s nömrəli sərəncamına əsasən, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin ayrı-ayrı ixtisasları üzrə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu 2012-2013-cü tədris ilində 10 min 900, 2013-2014-cü tədris ilində 11 min 070, 2014-2015-ci tədris ilində 11 min 232, 2015-2016-cı tədris ilində isə 11 min 398 yer təşkil edir.

DİPLOMLARIN EKSPERTİZASI

Azərbaycanda 20 il ərzində orta məktəblərdə işə qəbul olunan 6889 pedaqoji işçinin diplomu ekspertizadan keçirilib

Azərbaycanda 1991/92- 2010/2011-ci tədris illərində Şuşa, Xızı, Ağdam, Qubadlı, Xocalı, Zəngilan, Oğuz, Kürdəmir, Laçın, Füzuli, Hacıqabul rayonlarının ümumtəhsil məktəblərində işə qəbul olunmuş 6889 pedaqoji işçinin diplomlarının surəti ekspertizadan keçirilib.

Bu barədə APA-ya Təhsil Nazirliyindən verilən məlumatda bildirilib. Məlumata görə, Ağdam rayonunda 1568 nəfərdən 11-nin, Qubadlı rayonunda 495 nəfərdən 2-nin, Xocalı rayonunda 216 nəfərdən 1-nin, Kürdəmir rayonunda 991 nəfərdən 2-nin, Laçın rayonunda 621 nəfərdən 2-nin, Füzuli rayonunda isə 926 nəfərdən 3-nün təhsil sənədinin saxta olduğu aşkarlanıb. Şuşa rayonundan 146 nəfərin, Xızı rayonundan 228 nəfərin, Zəngilan rayonundan 567 nəfərin, Oğuz rayonundan 606 nəfərin, Hacıqabul rayonundan 525 nəfərin diplomlarının isə saxta olmadığı müəyyənləşdirilib.

AZƏRBAYCANDA İTİRİLMİŞ DİPLOMU NECƏ BƏRPA ETMƏLİ?

Azərbaycanın Təhsil Nazirliyinə tez-tez diplomunu itirmiş şəxslər tərəfindən müraciətlər daxil olur

Bunu nazirliyin xüsusi şöbəsinin məsləhətçisi Rəşad Əliyev bildirib. O, belə müraciətlərə operativ şəkildə baxıldığını söyləyib:

"Diplomunu itirmiş şəxs hüquq-mühafizə orqanlarına müraciət etməlidir. Bundan sonra "Azərbaycan müəllimi" qəzetində sənədin itdiyinə dair elan verilməlidir. Polisdən diplomun itdiyini təsdiqləyən arayışın alınmasından sonra həmin şəxs müvafiq ali məktəbə ərizə ilə müraciət etməlidir".

Nazirlik rəsmisinin sözlərinə görə, bundan sonra həmin ali məktəb lazımi sənədləri hazırlayır və Təhsil Nazirliyinə məzuna yeni diplomun verilməsi xahişi ilə müraciət edir. Prosesin hansı müddətə başa çatması sənədlərin toplanması və nazirliyə müraciət vaxtından asılıdır.

Diplomunu itirmiş şəxsdən buna görə heç bir cərimə tələb olunmur.



ERDOĞAN KAZANDI,

SARKOZY KAYBETTİ



Hemen her açıklamasında "Türkiye'nin AB'de yeri yok" diyen ve sürekli olarak Türkiye'nin tepkisini çekmeyi başaran Sarkozy'ye en çarpıcı cevabı Le Monde gazetesi verdi.

Görev başına geldiğinden beri hemen her açıklamasında ve uluslararası oturumda Türkiye'ye kin kusan ifadelerle saldıran Fransa Cumhurbaşkanı Nicolas Sarkozy, son olarak sözde Ermeni soykırım kartını ortaya koydu. Ermenistan'a yaptığı ziyaretin ardından seçimlerin de etkisiyle Ermeni oylarını almak için sözde soykırımı tanıyan bir kanuna yeşil ışık yakan Sarkozy'nin Türkiye'ye olan bu öfkesinin sebebini yine ülkesinin en etkin basın organlarından Le Monde gözler önüne serdi. Türkiye'yi dışlama politikasının yerden yere vurulduğu Le Monde'deki geniş haberde, "Erdoğan kazandıkça Sarkozy kaybetti" yorumları dikkat çekti. Le Monde, özellikle son Arap Baharı'na işaret ederek, "Arap ülkelerinde artık Fransa'nın esamesi bile okunmuyor. Bir zamanlar Fransa'dan izinsiz adım atmayan Fas, Tunus gibi ülkeler Başbakan Erdoğan ve AK Parti'nin yörüngesine girdiler. Bu da haliyle Sarkozyl'nin öfkesinin giderek artmasına yol açtı" ifadelerini kullandı.

BİZE "YERİNİZ YOK" DİYOR AMA...

Hemen her açıklamasında "Türkiye'nin AB'de yeri yok" diye açıklamalar yaparak sürekli olarak Türkiye'nin tepkisini çekmeyi başaran Sarkozy'ye yine en çarpıcı cevabı Le Monde gazetesi verdi. Gazete, "Sarkozy, sürekli Türkiye'yi AB'den dışlıyor ama Fransa da artık Arap Baharı'nda yeri olmayan bir ülke haline geldi. Arap Baharı'nda Erdoğan var ama artık Sarkozy yok" yorumunda bulundu. Fransız lider Sarkozy'e adeta "bir tokat gibi" inen yorum haberde, "Türkiye'yi sürekli dışlayarak ne yapmayı hedefliyorsun?" şeklinde sorular da soruldu. AB'nin çökerken Türkiye'nin hızla yükselen bir grafik sergilediğini ifade eden gazete, "Türkiye'yi kaybetmek AB için, Fransa için çok pahalıya mal olabilir" dedi.

ARKA BAHÇELERİMİZ ELDEN GİTTİ

Tunus, Fas, Mısır gibi ülkelerin bir zamanlar Fransa için "arka bahçe" yerinde olduğunu kaydeden gazete, şimdi bu ülkelerin siyasetinden ekonomisine kadar Türkiye'nin "tam model ülke" kimliğinin altında yürümeye başladığını yazdı. Türkiye'nin bu ülkeler için önce "rol model ülke", sonra, "model ülke" anlamına geldiğini belirten gazete, şimdi Türkiye'nin sadece ekonomisiyle değil siyasetiyle, demokrasisiyle, hemen hemen her alanıyla bir "tam model ülke" anlamına yükseldiğini anlattı. Bazı Arap ülkelerinde Türkiye'dekine benzer şekilde "AK Parti" adı altında partiler kurulduğunu, bunların iktidara bile geldiğinin vurgulandığı yorumda, "Arap Baharı'nın bu seviyelere gelmesinde Türkiye'nin ve Başbakan Recep Tayyip Erdoğan'ın etkisi çok büyük. AK Parti modeli bu ülkelerin siyasetçileri tarafından örnek olarak alınıyor. Demokratik yapı tamamen Türkiye'dekine benzer hale getirilmeye çalışılıyor" denildi.

ERDOĞAN'I ÖRNEK ALAN KAZANIYOR

Yazıda ayrıca şu ifadelere yer verildi: "Orta Doğu ve Kuzey Afrika'da artık Türkiye'nin hakimiyeti var. Kurulacak yeni yönetimler kendilerine tek model olarak Türkiye'yi ve Başbakan Erdoğan duruşunu örnek alıyor. Arap Baharı'nda yapılan son seçimlere bakıldığında bu çok iyi görülüyor. Erdoğan'ı örnek alan siyasetçiler seçimlerden zaferle çıkıyor. Türkiye'yi örnek gösteren siyasetçiler seçmenlerden daha fazla oy alıyor. Arap ülkeleri artık Türkiye gibi bir hayat sürmek istiyor. Erdoğan bu seçimlerde sürekli galip gelirken, bir zamanlar Fransa'nın arka bahçesi olan bu ülkelerde Sarkozy ise mağlup rolünü oynuyor."

FAS'IN "AK PARTİ"Sİ BİLE VAR

"Türk modeli için de AK Parti modelini izlemeye yönelik çabalar Arap ülkelerinde hızla artıyor" yorumunun yapıldığı Le Monde'daki yazıda, Mısır ve Suriye'deki Müslüman Kardeşler, Tunus'taki Nahda, Fas'taki Adalet ve Kalkınma Partisi'nin kendilerine Başbakan Erdoğan ve Ak Parti'yi tek model olarak aldıkları da vurgulandı. Haberde, "Arapların, Türk Adalet ve Kalkınma Partisi ve lideri Recep Tayyip Erdoğan'ı izleme çabaları, tarihsel değerlendirme ile anlaşılabilir. Arap tarihi, tam bir U dönüşü yaptı ve şimdi pusulası, İstanbul istikametine işaret ediyor. Nitekim Erdoğan'ın Mısır, Tunus ve Libya'yı kapsayan turlarında tam bir izdiham yaşandı. Faslı Müslümanlar, monarşiye sıkı sıkıya bağlı ılımlı ve sekülerlerin itimatsızlıklarını aşmak için partilerine, Erdoğan'ın AK Partisi gibi Adalet ve Kalkınma Partisi adını bile vermekten çekinmediler" yorumu da yer aldı.

TÜRK EKONOMİSİ GÖZ KAMAŞTIRIYOR

Sarkozy'e Türk ekonomisinden rakamlar da sunan Le Monde, "AK Parti iktidara geldiği 2002 yılında önceki hükümetler tarafından yıkılan bir ekonomiyi devraldı. Gayri Safi Millî Hasılasını kişi başına 3 bin dolardan 10 bin dolarlara çıkardı. Ülkenin bu hızlı kalkınmasında yolların, havaalanlarının, üniversitelerin, hastahanelerin hızla yapımı ve bunların bütün ülkeyi sarması önemli rol oynadı. Ülke baştan sona bir şantiyeye dönüştü adeta. 2010'daki yüzde 8.9'luk büyüme gözleri kamaştırdı. AB başta olmak üzere bütün dünya kriz girdabından kurtulmak için uğraşırken Türkler, refah, huzur ve ekonomik büyümenin keyfini çıkarıyordu. Yine aynı şekilde 2011 yılında da yüzde 8'i aşan bir rakamı Türk ekonomisinin nerelerde olduğunu bir defa daha gözler önüne serdi" diye yazdı.

"İSLAM PAZARI" KİTABININ YAZARI

Le Monde, yazısında "İslam pazarı" adlı kitabın yazarı ve Orta Doğu uzmanı Patrick Haenni'nin görüşlerine de yer verdi. Sözkonusu uzman, "Araplar bütün dünyayı incelediler ve kendilerine demokratik ve parlamenter sistem konusunda Türkiye'yi model aldılar. Türkiye artık özgün tarihiyle bölgesinde çok önemli bir güç. Arap ülkeleri için de Türkiye'nin konumu çok önemli. Avrupa'daki ekonomik problemler ise hem Türkiye'yi hem de Arap dünyasını etkileyecektir. Arap Baharı'nın yaşanmasında, Türkiye'deki yönetim şeklinin önemi çok büyük. Bölgede antipati çekmeyen tek dünya ülkesi Türkiye... Son yıllarda Türkiye'nin uluslararası arenadaki etkinliği, bölge haklının Müslüman ve demokratik bir ülke olan Türkiye'yi rol model alması Arap Baharı'nda bir esin kaynağı olmuştur" açıklamasını yaptı.

Hayrettin Turan,
Türkiye Gazetesi
15 Aralık 2011

EGEMEN BAĞIŞ'TAN SARKİSYAN'A: 'HADDİNİ BİLMEZ CUMHURBAŞKANI'

11 Aralık 2011



Avrupa Birliği (AB) Bakanı ve Başmüzakereci Egemen Bağış, 'Türk liderlerinin er ya da geç Erivan'daki soykırım anıtı önünde diz çökeceğini' savunan Ermenistan Cumhurbaşkanı Serj Sarkisyan'a sert sözlerle tepki gösterdi.

Sarkisyan için "Haddini bilmez cumhurbaşkanı" ifadesini kullanan Bağış, "Türklere diz çöktürmek kimsenin haddi değildir" dedi

Bakan Bağış, AK Parti Kağıthane İlçe Telikatı'nın Cemal Kamacı Spor Kompleksi'ndeki kongresine katıldı. Kongrede konuşan Bağış, bugün Avrupa'da, Asya'da, Afrika'da Başbakan Erdoğan'ın ilham kaynağı olduğu milyonların, demokrasi, insan hakları, ifade özgürlüğü ve serbest pazar ekonomisi için çok farklı bir baharı yaşadıklarını söyledi. Bağış, "Ecdadın bize emanet ettiği sancağı hep birlikte farklı noktaya taşıdık. Bundan rahatsız olan bir takım çevreler olabilir. Onlara verdiğimiz rahatsızlık için özürdilemeyeceğiz. Türkiye'nin geldiği noktadan huzursuz olan içerde ve dışarıda bir takım mihraplar olabilir. Ama biz durmak yola devam diyeceğiz, daha çok çalışacağız" diye konuştu.

Ermenistan Cumhurbaşkanı Serj Sarkisyan'ın Türkiye'yi hedef alan açıklamalarına da değinen Bağış, Sarkisyan için "Haddini bilmez cumhurbaşkanı" ifadesini kullandı. Bağış, şunları söyledi: "Geçenlerde küçük bir komşu ülkenin haddini bilmez cumhurbaşkanı, Ermenistan Devlet Başkanı Sarkisyan 'Türklerde gelecek, kendini haylice aşan bir laf etmiş.' Ben buradan ona bir mesaj göndermek istiyorum. Sen milletini açlıktan fakirlikten zaten dizinde derman bırakmayacak duruma getirdin. Ermenistan'ın nüfusu açlıktan 4 milyondan 2 milyona düştü, insanlar dünyanın dört bir tarafına kaçıyor. Bir kısmı bizim ülkemize de geldi. Burada bizim çocuklarımıza, yaşlılarımıza bakıcı olarak çalışıyor. Bu da Türkmilletinin gönlünün ne kadar zengin olduğunun göstergesidir. Ama bizimde kendisine bir cevap vermemiz gerekirse; Türklere diz çöktürmek kimsenin haddi değildir. Aslında ona cevap olarak verilecek çok güzel atasözlerimiz var ama ben bugün oraya girmeyeyim. Zaten kendisi, o lafının kendisi ve ülkesine maliyetini düşündüğü zaman dizlerini dövmeye başlamıştır diye düşünüyorum. Ama bundan kimsenin şüphesi olmasın bu millete karşı şuursuzluğu dize getirmeyi de biz çok iyi biliriz."



İRANDA: "MƏŞƏDİ İBAD"

İranlı rejissor Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında film çəkəcəkdir

Tanınmış İran rejissoru Yədulla Səmədi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında yeni musiqili bədii film çəkəcəkdir. Ekran əsərində Azərbaycan və İran aktyorları rol alacaqlar.

AzərTAc xəbər verir ki, bu barədə iranlı rejissor jurnalistlərlə görüşündə ətraflı məlumat vermişdir.

Layihə ilə bağlı danışıqlar aparmaq üçün Azərbaycana gəldiyini deyən rejissor bildirmişdir ki, yeni ekran əsəri "Məşədi İbad" adlanacaqdır. Filmdə Məşədi İbad rolunu İran aktyoru canlandıracaqdır. Azərbaycanın xalq artistləri Afaq Bəşirqızı qulluqçu Sənəm, Rasim Balayev isə Rüstəm bəy rolunda çıxış edəcəklər. Digər obrazların, o cümlədən Gülnaz və Sərvər rollarının ifaçıları isə hələ müəyyənləşməmişdir. Filmin qonaqlıq səhnəsindəki muğam parçasını xalq artisti Alim Qasımov ifa edəcəkdir. Yeni ekran əsərinin əsas çəkilişləri Azərbaycanda aparılacaq, bəzi səhnələr isə İranda lentə alınacaqdır. Filmin Azərbaycan dilində çəkiləcəyini diqqətə çatdıran rejissor qeyd etmişdir ki, sonradan bu ekran əsəri fars dilinə dublyaj olunacaqdır. Çəkilişlərə gələn ilin martında başlanacaqdır.

Rejissor bildirmişdir ki, bu filmi çəkməkdə əsas məqsəd Üzeyir Hacıbəylini İranda daha geniş şəkildə tanıtmaqdır. Filmin bütün xərclərini İran tərəfi ödəyəcəkdir.

MƏŞHUR ŞAİRİN ADINA KÜÇƏ

Gürcüstan paytaxtında küçələrdən birinə Azərbaycan şairi Əhməd Cavadın adı verilib



Tiflis Bələdiyyəsinin qərarına görə Gürcüstan paytaxtındakı bir neçə küçəyə yeni adlar verilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə "Yeni adlar və simvollar komissiyası"nın sədri Laşa İmedaşvili jurnalistlərə bildirib. Onun sözlərinə görə, paytaxtın İsani-Samqori rayonundakı Artur Layts küçəsinə bitişik adsız küçələrə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasının tərcüməçilərinin şərəfinə yeni adlar verilib. Yeni küçələrdən birinə poemanın tərcüməçilərindən biri olan məşhur Azərbaycan şairi Əhməd Cavadın adı verilib. Digər küçələrə Mardjori Uordrop və Mikola Bajan adı verilib.



"DİKKENS İLİ"

"British council" təşkilatı Çarlz Dikkensin 200 illik yubileyi münasibətilə 2012-ci ili ölkəmizdə "Dikkens ili" elan edərək, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə birgə bir sıra layihələr gerçəkləşdirəcəkdir

"Dikkens -2012-ci il" çərçivəsində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarında olan "Oliver Tvistin macəraları" tamaşası nümayiş etdiriləcəkdir. İl çərçivəsində ingilis dilinin tədrisi, təhsil və incəsənət tədbirləri, fotosərgilər, filmlərin nümayişinin həyata keçirilməsi nəzərdə tutulur. Fotosərgilər gənc fotoqrafları ruhlandırmaq üçün Dikkensin həyat və yaradıcılığına həsr olunacaqdır. 2012-ci ilin fevralınadək Bakıdakı bir sıra məktəb və ali təhsil ocaqlarında görkəmli yazıçının əsərləri əsasında çəkilmiş "Oliver" və "Böyük ümidlər" filmləri nümayiş etdiriləcəkdir.

"Dikkens -2012-ci il"in Azərbaycanda keçirilməsinin əsas məqsədi Çarlz Dikkensin yaradıcılıq irsinin yada salınması və geniş yayılması, oxucuları və tamaşaçıları İngiltərə ədəbiyyatının ən tanınmış simalarından biri haqqında məlumatlandırmaqdır.

GƏNCƏDƏ YENİ MUZEY AÇILACAQ



Gəncədə dahi Azərbaycan şairi Nizami Gəncəvinin muzeyi inşa ediləcək

Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Elmi Mərkəzinin direktoru, professor Fuad Əliyev AzərTAc-a bildirmişdir ki, şairin məqbərəsi yaxınlığında tikiləcək muzeydə Nizami Gəncəvinin əlyazmaları, ona aid miniatür əl işləri, dünya alimlərinin onun haqqında əsərləri və sair eksponatlar nümayiş etdiriləcəkdir.



NYU-YORKDA AZƏRBAYCAN TEATRI

ABŞ-ın Nyu-York şəhərində Azərbaycan-Nyu-York Assosiasiyasının nəzdində Azərbaycan teatrı yaradılmışdır

Diasporla İş üzrə Dövlət Komitəsindən AzərTAc-a bildirmişlər ki, yeni yaradılmış teatrın təqdimatında Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşasının premyerası olmuşdur.

Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin 200 illik yubileyinə həsr edilmiş tamaşanın quruluşçu rejissoru Azərbaycanın Əməkdar Artisti, "Qızıl Dərviş" mükafatı laureatı, Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının baş rejissoru Firudin Məhərrəmovdur. Tamaşanın bədii tərtibatı Telman Cəlilova məxsusdur. Rolları Azərbaycan-Nyu-York Assosiasiyasının üzvləri ifa etmişlər.

Tamaşanın Vaşinqtonda, Hyustonda və ABŞ-ın bir çox şəhərlərində oynanılması nəzərdə tutulmuşdur.

Nyu-York Azərbaycan Teatrının yaradılmasının məqsədi zəngin Azərbaycan mədəniyyətini ABŞ-da və digər ölkələrdə təbliğ etməkdir.

XALQ YAZIÇISI ANAR "QAZAXISTAN RESPUBLİKASININ MÜSTƏQİLLİYİNİN 20 İLLİYİ" DİPLOMU VƏ MEDALI İLƏ TƏLTİF OLUNDU



Azərbaycan Yazıçılar Birliyində Xalq Yazıçısı Anara "Qazaxıstan Respublikasının müstəqilliyinin 20 illiyi" diplomunun və yubiley medalının təqdim olunması mərasimi keçirilmişdir

Dekabrın 27-də Azərbaycan Yazıçılar Birliyində Qazaxıstanın Azərbaycandakı səfiri Serik Primbetov Anara diplom və yubiley medalı, habelə xatirə hədiyyəsi təqdim etmişdir.

Qazaxıstan diplomatı demişdir ki, Anar bu yüksək mükafata Azərbaycan-Qazaxıstan ədəbi əlaqələrinin inkişafında və möhkəmlənməsində böyük xidmətlərinə görə layiq görülmüşdür.

Səfir xatırlatmışdır ki, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin fərmanı ilə bu mükafata, həmçinin, xarici işlər naziri Elmar Məmmədyarov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, sənaye və energetika naziri Natiq Əliyev layiq görülmüşlər.

Anar cavab sözündə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə minnətdarlığını bildirərək, bu yaxınlarda Astanaya səfərindən danışmış, bu şəhəri səhrada möcüzə adlandırmışdır.

MƏHƏBBƏT YUVASI

(hekayə)

Ziqfrid Lents
(AFR)



Onlar təzə sifariş almışdılar və məni çay kənarındakı qəsəbəyə göndərdilər. Çox tez gəlmişdim, ona görə də evin yan - yörəsində bir xeyli dolaşdım, kəmər yerinə çatan hasar uzunu qumlu küçədə gəzişdim. Hər yan sükuta qərq olmuşdu. Heç çaydakı gəmilərin uzun, boğuq fit səsləri də eşidilmirdi və mən gəzişə-gəzişə evə baxırdım.

Təzə, qamış damlı bir ev idi, küçəyə baxan balaca pəncərələrinə tor çəkilmişdi, lap top lülələri çıxan qala deşiklərinə bənzəyirdilər və heç birindən də işıq gəlmirdi. Evin başına bir dəfə də dolandım, hasarın dibində gəzişdim və qəflətən eşitdiyim xışıltıdan diksindim. Böyük eyvana işıq düşdü, evin cənub tərəfi tamam işıqlandı, həyətdə iki projektor birdən yandı və onların gur işığı çökə ağaclarının yarpaqları arasından ətrafa süzüldü. Ev indi çökə ağaclarından süzülən qırmızımtıl işığa bələnərək uyuyurdu...

Elə sakitlik idi ki, düyməni basanda, zəngin səsini özüm də eşitdim. Sonra mikrafon xırıldadı və qəflətən eşidilən sakit, mehriban bir səs məni diksindirdi: "Gəlin! – bunu həmin mehriban səs dedi. – Gəlin, sizi gözləyirik." Alaqapıdan keçib evə tərəf getdim. İstədim onun da zəngini basam, ancaq qapı yavaşca öz-özünə açıldı, həmin mehriban səs pıçıltı ilə məni salamladı. İçəri girdim və ikimiz də asta addımlarla qonaq otağına keçdik.

-Buyurun əyləşin, - mehriban səsli kişi dilləndi, - utanmayın, elə bilin öz evinizdir...

Bəstəboy, kök bir kişi idi. Üz-gözü şişmişdi. Mehribanlıqla gülümsədi, paltomu, içində kitab-dəftər olan çantamı aparıb asdı. Geri qayıdanda da qısa, ətli barmaqlarını ovuşdura-ovuşdura şirin bir təbəssümlə başımı yırğaladı:

-Bizim üçün çətindir, - dedi, - elə çətindir ki, hətta "yox" demək istədim. Axşam çağı uşaqları tək qoymağa ürək eləmirik. Ancaq bu dəfə "yox" deyə bilmədim.

- Mən onlara göz olaram, - dedim.

- Əlbəttə.... Mən sizə arxayınam.

- Birinci dəfə deyil...

- Bilirəm.... Yaxşı bilirəm... Tələbə Cəmiyyəti də elə sizi məsləhət gördü. Çox tərifladilər...

O, iki qədəh şərab süzdü. İçdik və mən qədəhi yerə qoyanda üşərgələndim, ancaq bunun nədən olduğunu bilmədim. Kişinin üzündəki mehribanlıq ifadəsi hələ də çəkilməmişdi və gülümsəyib dedi:

- Bəlkə tez qayıtdım. Yubileyə gedirik. Baxaram, çalışıb tez qayıdaram... Bu narahatlıq məni çox oturmağa qoymaz.

- Bir-iki saat nədir ki! - dedim.

- Yox, çoxdur! Sadəcə olaraq, uşaqlardan ayrı dura bilmirəm, ürəyim onların yanında qalır. Fabrikdə də elə onları düşünürəm... Biz uşaqlarımız üçün yaşayırıq, başqa şey bilmərik.... Arvadım da, mən də... Ancaq siz onlara yaxşı baxacaqsınız... Sizə inanıram... Bəlkə də özüm tez

qayıtdım...

- Hər şeyi nəzərə almışam, - dedim, - hətta kitab-dəftərimi də özümlə gətirmişəm, nə qədər istəsəniz, qala bilərsiniz.

O qalxıb şərabın qalanını bir dəfəyə atdı, saata baxıb, əlinin arxası ilə ağzını sildi.

- Onlar artıq öz balaca ağ çarpayılarında yatıblar, - dedi. – Mariya birinci yatıb... Onun hamıdan tez yatması lap möcüzədir. Ancaq indi oraya girmək olmaz. Getsəm, ayrıla bilmərəm. Görürsünüzmü sizə kimi ümüd olub gedirik?! Onu da bilin ki, bizim məhəbbətimizə göz olursunuz...

Əlini mənə uzatdı. Koppuş əli isti idi və birdən mənə elə gəldi ki, əlimi nəvazişlə sıxan həmin əldən ayrılığın kədərini, onu bürüyən iztirabı duydum. Üzü də, gözləri də, kədərli təbəssümü də titrədi, sifətindəki şiş, səsindəki mehribanlıq səyridi. Bu vaxt arxadan xırda addım səsləri eşidildi. Həmin addım səsi bir pillə də endi, bizə yaxınlaşdı, sonra kəsildi və kəsilən kimi də kişinin qırışığı açıldı, yumşaldı, sakitləşdi.

- Sizə arxayınam, - dedi.

İkimiz də eyni vaxtda geri döndük və mən qadını görən təki bildim ki, hardansa tanıyıram, ya da ona çox oxşayan bir adama rast gəlmişəm. Yumrusifət, sarışın, cavan qadın idi. Ən çox da enli, boyalı dodaqları və bir də boynundakı qara rəngli xaç yadımda qalmışdı. O, gözuçu mənə baxıb başını tərpətdi: yəni çox sag ol ki, gəldin. Hiss olunurdu ki, səbri tükənib. Kişi paltosunu götürüb mənə əl elədi. Elə bil əli ilə öz qayğısını, inamını yellətdi.

Gənc qadın çiyinlərini ona tərəf çevirdi, kişi bu səssiz-sözsüz əmri başa düşdü, mantonu onun çiyninə saldı və bayaqkı sərt addım səsləri təzədən eşidildi, uzaqlaşdı, daş döşənmiş eyvandan keçəndə təzədən eşidildi, sonra qumlu yola qarışıb yox oldu.

Motor uğultusu eşidildi. Pəncərədən baxanda, maşının hasara düşən işıqlarını gördüm. İşıq hasarın üstündə "gəzişməyə" başladı, elə bil çıxmağa yol axtardı və birdən dayandı. Kişi düşüb geri qayıtdı, bayaqkı mehriban təbəssümü ilə üzr istədi, təqvimin üstünə bir telefon nömrəsi yazdı, vərəqi çırıb qabağıma qoydu.

- Əgər bir şey olsa, - dedi,- işdir, olsa... Əlbəttə, onlar indi şirin yuxuya gediblər, durmazlar... Ancaq hər təsadüfə qarşı... Bu nömrəyə zəng edərsiniz.... Görün sizə kimi ümid olub gedirik....

O yenə üzr istədi, pilləkəni dinşəyib çölə çıxdı.

Oturub gözləməyə başladım. Gözləyirdim ki, yenə qayıdacaq. Ancaq maşın işığı bir daha görünmədi. İndi qarşımda bir telefon nömrəsi vardı. Özünün də altından xətt çəkilib dairəyə alınmışdı...

Gözümü ona zilləmişdim: -.... əgər bir şey olsa.... əgər... Vərəqi bir kənara qoydum, dəftər-kitabımı çantadan çıxarıb stolun üstünə yığdım. "... özünüz bilirsiniz, kimi ümüd olmuşuq..." Dəftərdəki qeydlərə baxdım. Yalnız qeydlər, tələsik yazılmış illər, bir-birilə əlaqəsi olmayan sözlərdi. Hərəsindən sonra da bir nida işarəsi! Görəsən bunlar nə demək idi? İlk dəfə anladım ki, müxazirədə qeyd götürmək havayı şeydir. Dəftəri boş sözlərlə doldurmuşdum...

Pəncərənin qabağındakı telefon səsləndi. Diksinib yerimdən dik atıldım, dəstəyi götürüb yavaş-yavaş qulağıma apardım, nəfəsimi içimə çəkib gözlədim. Kişi səsi eşidildi. Ancaq bayaqkı mehriban səs deyildi. Kəskin, kinayə dolu bir kişi səsiydi:

-Milli, hardasan, Milli? Niyə zəng eləmədin? Eşidirsən, Milli? - Və səs kəsildi. İndi növbə mənimkiydi. Təkcə "bağışlayın" deyə bildim, ancaq elə bu da bəs elədi, şıqqıltı eşidildi və telefon susdu. Dəstəyi asdım. İndi qadının adını bilirdim və harda gördüyümü xatırladım: bərbərxanada

qalın, əldən-ələ gəzdiyi üçün didik - didik olmuş şəkilli bir jurnalda, xoş ətir iyindən məst ola-ola görmüşdüm. Sağlam, sarışın, yumurusifət bu qadın Milli idi və sanki deyirdi: kinoya təzə ulduz gəlir....

Sobadakı çökə odunu çırtıldadı və onun açıq yerlərindən süzülən titrək alov dilimləri ağac karnizlərin uçunda yonulmuş İsa Peyğəmbər və onun həvarilərinin üstünə düşdü. Ümidsizlik içində əlləri yanına düşmüş həmin əzabkeşlər mənalı-mənalı bu dünyaya baxırdılar...

Siqaret yandırıb kitab-dəftərin yanına qayıtdım. Onları üst-üstə yığıb, gözümü telefona zillədim. Fikirləşdim ki, indicə zəng eşidiləcək, mehriban səsli kişi mehriban qayğı ilə uşaqlarını - özünün ciyərparalarını soruşacaq. Elə bilirdim, qonaqlıq yerinə çatan kimi zəng eləyəcək. Və mən bunları fikirləşərkən kimsə məhəccərin baş tərəfindəki qapını çırmaqladı, sonra səs kəsildi, dəstək tərpəndi, aşağı-yuxarı buruldu. Sanki qapını zorla açmaq istəyirdilər. Ancaq, deyəsən, qıfıllı idi, çünki dəstək nə qədər zərblə burulsa da, qapı açılmadı.

Siqareti söndürmüşdüm və dayanıb yuxarıdakı qapıya baxırdım. Birdən qulağıma inilti səsi gəldi. Elə bil kimsə yalvarır, nəsə anlaşılmaz sözlər deyirdi və yenə sakitlik çökdü, sanki qapının arxasındakı adam öz inilti-sızıltısının əks-sədasına qulaq asdı. Kiminsə onu eşidəcəyinə ümud edirdi. Mən isə səssiz-səmirsiz dayanıb gözləyirdim. Həmin sızıltının mənə dəxli yox idi, çünki buraya uşaqlara baxmaq üçün gəlmişdim. Ancaq qapı qəfildən bərk-bərk döyülməyə başladı, kimsə özünü ona çırpdı, ufuldadı, inildədi, dəli kimi özünü bir də ona çırpdı. Dik pillələrlə asta-asta qapıya tərəf qalxdım, bir xeyli ordaca dayandım və gördüm ki, açar üstündədir. O biri üzdəki adamın ciddi-cəhdini dinşədim. Deyəsən, ümüdini tamam üzmüşdü. Hiss olunurdu ki, heydən düşüb, tövşüyür, geri çəkilir. Elə həmin anda açarı burdum, ancaq qapını açmadım. Gözüm dəstəkdə idi və o tərpənənə kimi xeyli keçdi. Sonra burulanda da lap ehtiyyatla buruldu, sanki yoxlayırdı, açılacağına inanmırdı. Mən bir az geri çəkildim, qapı açıldı, qoca bir kişinin başı göründü. Üzü tüklü idi, gözləri qızarmışdı, qeyri-müəyyən, mənasız bir təbəssümlə - əsil sərxoş təbəssümu ilə gülümsəyirdi. Qapının açıldığına heyrətləndi, sevindi, çölə baxıb qırıq-qırıq güldü, qollarını geniş açaraq mənə tərəf gəldi.

-Sağ ol, - dedi,-çox sağ ol!

Əynindəki qalın kətan köynəyin uçunu şalvarın altına qoydu, uşaqlar yatan otağı dinşədi, sakitləşdi:

- Yatırlar, - dedi, - hələ oyanmayıblar...

Sonra qabağa düşüb pillələri bircə-bircə endi, əllərini sobaya tutdu, onları geniş açdı. Elə açdı ki, biləyinə tüşla döyülmüş yelkənli gəmini gördüm. Sonra da əllərini ovuşdura-ovuşdura dedi:

- Sahilə çıxdılar... İkisi də getdi... Pəncərədən gördüm...

Dikəlib diqqətlə yan-yörəsinə baxdı, sanki axırıncı dəfə burda olduğu vaxtdan nəyin dəyişdiyini müəyyənləşdirmək istəyirdi. Pərdələri, sobanı, çırağı yoxladı və nəhayət, balaca stolun üstündəki şərab şüşəsini, qədəhləri gördü. İçindəkinin nə olduğuna fikir verməyib şüşənin ağzını açdı, qədəhləri doldurdu.

- Ayrı qədəh gətirim? - deyə soruşdum.

- Lazım deyil, bu qədəh yaxşıdır. Bundan oğlum içib, başqası lazım deyil.

Məni də özünə yoldaş eləmək istədi, qədəhini bircə dəfəyə boşaltdı və o dəqiqə də təzədən doldurdu.

- İndi mən də sahilə çıxmışam, - dedi, - ikisi də gedib. Ona görə də sahilə çıxmaq olar... Onlar burda olanda, heç göyərtəyə də çıxmaq olmaz! İç, oğul, iç...

İkinci qədəhi də başına çəkdi, yenə doldurdu, gülümsəyə-gülümsəyə mənə tərəf gəldi:

- Bu azadlıq üçün sağ ol, - dedi, - yoxsa məni buraya buraxan kim idi?! Nə oğlum, nə də arvadı... heç biri çölə çıxmağa qoymur... Çox diribaş oğlum var, məndən fərasətli çıxdı, fabrik sahibi oldu... Mən isə adicə matros olmuşam... Ona görə də çölə buraxmırlar, oğul, ona görə də quruya çıxmağı mənə yasaq eləyiblər. Qorxurlar... Yaman qorxurlar ki, görən olar... Qonaqlar gələndə, orda bir şüşə ilə başımı yozurlar. Daha içə də bilmirəm...

- Bəlkə siqaret götürəsiniz? - dedim.

Əlini yellətdi:

- Lazım deyil.

Qoca oturdu, başı sinəsinə düşdü, əlləri əsə-əsə qədəhi döşünə sıxdı, sonra onu azaçıq yuxarı qaldırıb, içində çalxanan şəraba baxdı, nəsə mızıldadı. Sonra başını qaldırıb, dalğın nəzərlərlə məni süzdü, "iç, oğul, iç..." – dedi və başını geri ataraq qədəhi bir dəfəyə boşaltdı. Elə qanrıldı ki, mən dedim, daha o dünyalıq oldu. Ancaq yenə dikəldi, oturduğu yerdə ləngər vurdu, təzədən qəddini düzəltdi.

Telefon zəngi ikimizi də səksəndirdi. Sıçrayıb qalxdıq. Çox qorxmuş qoca səndirləyə-səndirləyə qapıya tərəf qacdı, özünü məhəccərə güclə çatdırdı, ondan yapışıb dayandı.

Dəstəyi götürdüm. Elə bilirdim bu dəfə yanılmaram, kişi zəng eləyib. Ancaq yenə səhv eləmişdim, zəng vuran Milli idi. Çox sakit danışırdı və sözgəlişi soruşdu:

- Ərim gəlib çıxdı?

- Xeyr, - dedim, - hələ gəlməyib.

- İndi çatar, yoldadır. Mənə zəng vuran oldu?

- Bəli.

- Sağ ol.

Yenə nəsə demək istədim, ancaq dəstəyi asmışdı və mən də əlimdəki dəstəyə baxanda, bir çüt fənər işığı pəncərədən süzülüb tavana düşdü, havada qövs çızaraq divarlarda "gəzişdi". Bunu qoca da görmüş və deyəsən, bayaq telefonla deyilənləri də anlamışdı. Ona tərəf dönəndə, kişi artıq qapıya çatmışdı, əl-qolunu ölçə-ölçə nəyəsə işarə eləyirdi. Oraya cumdum və bildim ki, bunu yalnız onun xətrinə elədim.

- Bağla, - dedi, - ağzımı bağla!

Və əlimi sıxdı. Bu, sidq-ürəkdən "sağ ol" demək idi...

Qapını bağlayıb aşağı düşdüm, stolun arxasına keçdim. Dəftərlərdən birini yenicə açmışdım ki, artırmadan addım səsləri eşidildi. Kişi vaxtından əvvəl, mən gözlədiyimdən də tez qayıtmışdı. Uşaqlara olan məhəbbəti oturmağa qoymamışdı! Elə qapıdanca onun mehriban səsi eşidildi:

- Sizi incitmədilər ki?

Cavab gözləməyib, elə paltolu-ayaqqabılı yuxarı qalxdı. Çəftə şıqqıldadı. Azaçıq sonra bir də şıqqıldadı və gördüm ki, aşağı düşür. Üz-gözündən sevinc yağırdı və qoca olan otağın yanından keçərək mənə tərəf gəldi. Xırda, ətli əlini çiynimə qoydu, dərindən nəfəs aldı, "yatırlar" - dedi və hörmət əlaməti olaraq bir də soruşdu:

- Mənim çan-çiyərlərim sizi inçitmədilər ki?

- Xeyr, - dedim, - inçitmədilər...

Alman dilindən tərcümə edən:

Vilayət Hacıyev



"İLİN ADAMI"

ABŞ-ın nüfuzlu "Time" jurnalı öz versiyası üzrə "İlin adamı"nın adını açıqlayıb

Jurnalın redaksiyası qərara alıb ki, 2011-ci ilin adamı genişmiqyaslı etirazçı kütlə olmalıdır. Çünki məhz hakimiyyətdən narazı insan dünyanın inkişafına böyük töhfə verib.




"Time" jurnalı bu kontekstdə Məhəmməd Buazizinin adını xüsusi qeyd edir. Tunisdə xalq etirazları məhz onun - əvvəllər heç kimin tanımadığı tərəvəz satıcısının özünü yandırmasından sonra başlayıb. Sonradan inqilab dalğası Misir, Liviya və Yəmənə sıçrayaraq, diktatorların devrilməsi ilə nəticələnib, hazırda xalq demokratik hərəkatları Suriya, Bəhreyn və digər ölkələrdə davam edir.

Jurnal Avropa ölkələrində və ABŞ-da bu il günlərlə davam edən etiraz aksiyalarını da xatırladıb.

SON 100 İL ƏRZİNDƏ DÜNYADA XRİSTİANLARIN SAY NİSBƏTİ DƏYİŞMƏYİB

Hazırda dünyada 2,18 milyard xristian yaşayır; bu, dünya əhalisinin təxminən üçdə biri deməkdir



Din və ictimai həyat məsələləri üzrə araşdırma mərkəzi olan «Pyu»nun dərc etdiyi hesabatda belə deyilir. Hesabatda göstərilir ki, xristianlar 200-dən artıq dövlətin ərazisində yaşayırlar. Buna görə də, heç bir bölgə «qlobal xristianlıq mərkəzi» sayıla bilməz. Mövcud tendensiyalar sırasında Avropadakı xristianların ümumi çəkisinin azalması qeyd olunur. Hazırda xristianların 26%-i Avropada yaşayır. 1910-cu ildə isə dünya xristianlarının üçdə ikisi Avropada yaşayıb. Əgər 1910-cu ildə avropalıların 95%-i xristian idisə, indi bu rəqəm 76%-ə bərabərdir.

Araşdırmaya görə, xristianların 37%-i Şimali və Cənubi Amerika və Karib hövzəsi ölkələrində, 24%-i Böyük Səhradan cənubdakı Afrika ölkələrində, 13%-i isə Asiya-Sakit okean bölgəsində yaşayır.

Son 100 il ərzində xristianların sayı 600 milyondan 2,18 milyarda çatıb. Lakin dünya əhalisinin artım tempi də eyni olduğundan xristianlar yüz il əvvəlki kimi planet sakinlərinin üçdə birini təşkil edirlər. Eyni zamanda, Böyük Səhradan cənubdakı Afrika ölkələrində və Asiya-Sakit okean bölgəsində xristianların sayı sürətlə artır. 1910-cu ildə Böyük Səhradan cənubdakı Afrika ölkələrində xristianların sayı cəmi 9% olduğu halda, 2010-cu ildə bu rəqəm 63%-ə çatıb. Araşdırmaya görə, dünya xristianlarının yarısını katoliklər təşkil edirlər. 37% xristian protestant, 12% isə pravoslavdır.

Beləliklə, xristianlıq planetin ən çoxsaylı dinidir. İkinci yerdə gedən islamın 1,5 milyard ardıcılı var. Araşdırma həmçinin göstərib ki, xristianların təxminən yarısı 10 ölkədə yaşayır: ABŞ, Braziliya, Meksika, Rusiya, Almaniya, Filippin, Çin, Nigeriya, Konqo Demokratik Respublikası və Efiopiyada. Dünyada ən az xristian Yaxın Şərq və Şimali Afrika bölgəsində yaşayır. Bu dinin yarandığı bölgədə onun ardıcıllarının sayı cəmi 4%-dir.

BAŞ KATİBİN MÜRACİƏTİ

BMT-nin baş katibi Pan Gi Mun 5 dekabr - Beynəlxalq Könüllülər günü münasibətilə dünya ictimaiyyətinə müraciət etmişdir



Müraciətdə vurğulanır ki, BMT Beynəlxalq Könüllülər günündə məqsədlərinin təbliğ edilməsi üçün könüllülərin əzmi, onların heyranedici xidmət ruhu və genişmiqyaslı təşəbbüslərini yüksək qiymətləndirir. Dünyada hər kəs bir-birinə kömək etməlidir və könüllülük vacibdir.

Sənəddə qeyd olunur ki, milyonlarla könüllü bütün dünyada davamlı inkişaf və sülhü qorumağa kömək edir və onların fəaliyyəti özünü bir çox formalarda büruzə verir.

BMT-nin baş katibi siyasətlə bağlı qərar verən şəxsləri könüllülüyü dəstəkləməyə və hər kəsi bu hərəkata qoşulmaq üçün nə edə biləcəklərini nəzərdən keçirməyə çağırmışdır.

ƏRƏB DÜNYASININ ƏN ZƏNGİN BİZNESMENİ

Səudiyyə şahzadəsi "Twitter"in səhmlərinin bir hissəsini aldı



Səudiyyə şahzadəsi, "Citigroup"-un ən böyük şəxsi investoru Əl-Valid Bin Talal "Twitter" mikrobloqlar xidmətinə sahib olduğu "Kingdom Holding" fondu vasitəsilə 300 milyon dollar sərmayə qoyub. Sazişin dəyəri Əl-Validə "Twitter"-in təxminən 4% səhmini əldə etməyə imkan verəcək.

Şahzadə Əl-Valid ərəb dünyasının ən zəngin biznesmenidir. Onun var-dövləti 21,3 milyard dollar dəyərində qiymətləndirilir. "Twitter" isə son zamanlar daha çox istifadəçi və reklam cəlb etmək üçün xidmətini genişləndirməyə çalışır. Hazırda resursda 300 milyondan çox istifadəçi qeydiyyatdan keçib.

"EMarketer"in proqnozuna əsasən, bu il "Twitter"-in reklamdan əldə etdiyi gəlir 139,5 milyon dollar təşkil edəcək.

MAAŞSIZ İŞLƏYƏN BAŞ NAZİR

İtaliyanın yeni baş naziri məvacibindən imtina etmişdir



İtaliyanın yeni baş naziri Mario Monti Nazirlər Kabinetinin başçısı və iqtisadiyyat naziri məvacibindən imtina etmişdir.

Silvio Berluskoninin istefasından sonra noyabrın 13-də bu vəzifəyə təyin edilən Mario Monti "Özümdən başlayıram" prinsipinin təməlini qoymuşdur.

Dekabrın 4-də Romadakı Kici hökumət sarayında iqtisadi böhranın aradan qaldırılması tədbirlərinin əsas istiqamətlərini təqdim edən baş nazir bildirmişdir ki, hökumət italyanlara qarşı vergi təzyiqini gücləndirməzdən əvvəl "siyasət xərclərini" azaltmaq qərarına gəlmişdir. Kabinet üzvləri vergi müfəttişliklərinə təkcə cari gəlirləri barədə deyil, həm də sərvətlərinin ümumi miqdarı haqqında məlumat verməlidirlər.

ABŞ-DA YOXSULLARIN SAYI ARTIR

Amerika Birləşmiş Ştatlarında çətinliklə dolanan insanların sayı ilbəil çoxalır

Yoxsulluq problemlərinə həsr olunmuş tədqiqatda belə deyilir. ABŞ hökumətinin 2010-cu il üçün məlumatına görə, ötən il inişillə müqayisədə bir faiz çox - 49 milyon amerikalı yoxsulluq həddindən aşağı səviyyədə yaşamışdır. 25 şəhər meri təcili ərzaq yardımı göstərilməsi barədə sorğuların sayının artdığını bildirmişdir.,



DUMANIN YENİ SƏDRİ

RF Dövlət Duması spiker vəzifəsinə Sergey Narışkini seçmişdir

Altıncı çağırış Rusiya Federasiyası Dövlət Dumasının deputatları dekabrın 21-də keçirilmiş birinci plenar iclasda bu palatanın sədri vəzifəsinə Kreml administrasiyasının sabiq rəhbəri Sergey Narışkini seçmişlər. 238 deputat bu qərarı dəstəkləmişdir. Hazırda Dövlət Dumasında "Yedinaya Rossiya" Partiyasının üzvlərinin sayı düz bu qədərdir.

Səsvermə proseduru başa çatandan və nəticələr elan ediləndən sonra Dövlət Dumasının qocaman deputatları rəyasət heyətini tərk etmiş və bundan sonra iclası yeni seçilmiş spiker Sergey Narışkin aparmışdır. O, ilk növbədə onun namizədliyinin lehinə səs vermiş, bitərəf qalmış və əleyhinə səs vermiş deputatlara müraciət edərək etimad üçün hamıya təşəkkürünü bildirmişdir.

O vurğulamışdır ki, altıncı çağırış Dövlət Dumasının səmərəli fəaliyyəti bütün deputatların ahəngdar və konstruktiv işindən asılıdır. Narışkin demişdir: "Mən sizin təcrübənizə ümid edirəm. Bir daha bizim hamımıza işimizdə uğurlar və birlikdə əldə edəcəyimiz nəticələrdən məmnunluq arzu edirəm".

FRANSA PARLAMENTİNİN ƏDALƏTSİZ QƏRARI

Fransa parlamenti qondarma "erməni soyqırımı"nı inkar edənlərin cinayət məsuliyyətinə cəlb olunmasını nəzərdə tutan qanun layihəsini qəbul edib

Dekabrın 22-də Fransa Parlamentinin aşağı palatası - Milli Assambleya uydurma "erməni soyqırımı" da daxil olmaqla Fransa qanunvericiliyi tərəfindən tanınan soyqırımların mövcudluğunu inkar edənlərin cinayət məsuliyyətinə cəlb olunmasını nəzərdə tutan qanun layihəsini qəbul edib.

APA-nın Avropa bürosunun məlumatına görə, hakim partiyanın üzvü Valeri Buaye və 40-a yaxın həmkarları tərəfindən bu ilin oktyabrında Fransa parlamentinə təqdim edilmiş və qəbul olunmuş bu qanuna əsasən uydurma "erməni soyqırımı"nı inkar edənlərin 1 il həbs cəzasına məhkum edilməsi və ya 45 min avro məbləğində cərimələnməsi nəzərdə tutulur. Qanun layihəsi Fransa parlamentində çoxluq təşkil edən hakim partiya üzvləri tərəfindən təklif olunub, hökumət də öz növbəsində qanunun qəbuluna tərəfdar olduğunu açıqlayıb. Müzakirələrdə çıxış edən deputatların əksəriyyəti bu sənədin qəbul edilməsinə çağırıblar. Bu sənədin qəbul olunmasına qarşı çıxan deputatlar Fransa qanunvericiliyini tarixi məsələlərə qarışmamağa çağıraraq, Fransanın da öz tarixində belə utandırıcı səhifələrin olduğunu həmkarlarına xatırladıblar.

Bundan başqa, müzakirələrdə Türkiyə ilə münasibətlərin korlana biləcəyi tez-tez qeyd olunub. Milli Assambleyada Fransa -Türkiyə dostluq qrupunun sədri, hakim partiyanın üzvü Mişel Diefenbaker açıq olaraq erməni məsələsinin hər zaman seçkilər ərəfəsinə təsadüf etdiyini, bunun sadəcə siyasi spekulyasiya olduğunu bildirib və tarixi tarixçilərə buraxmağa tövsiyə edib. Fransa parlamentarları arasındakı qızğın müzakirələr soyqırımlar anlayışı və onların fərqləndirilməsi ətrafında gedib. Qeyd edək ki, Fransa qanunvericilik tarixində iki soyqırımı rəsmən tanınıb. Fransa ilk olaraq 1990-cı ildə, İkinci dünya müharibəsi zamanı alman nasistləri



tərəfindən yəhudilərə qarşı törədilmiş soyqırımı tanıyıb və Fransa qanunvericiliyində bu soyqırımı inkar edən şəxslərə qarşı müvafiq cəza növü də nəzərdə tutulur. Fransada 2001-ci ildə erməni soyqırımının tanınması haqda qəbul edilən qanun layihəsi isə Fransa da daxil olmaqla sadəcə bir neçə ölkələrin qanunverici orqanları tərəfindən tanınıb. Xolokostdan fərqli olaraq "erməni soyqırımı" heç bir hüquqi instansiya tərəfindən tanınmayıb və bununla bağlı beynəlxalq məhkəmələrdə hansısa bir qərar qəbul edilməyib. Xatırladaq ki, Fransa qondarma "erməni soyqırımı"nı 29 yanvar 2001-ci ildə rəsmən tanıyıb. Qondarma "erməni soyqırımı"nı inkar edilməsinə görə cinayət məsuliyyətinə cəlb olunmasını nəzərdə tutan qanun layihəsi Milli Assambleyada 12 oktyabr 2006-cı ildə bir dəfə qəbul olunub. Lakin 4 may 2011-ci ildə Fransa qanunvericilik institutunun yuxarı palatası olan Senat bu qanun layihəsini əsassız sayaraq, onu təsdiq etməyib. Milli Assambleyada bu gün qəbul edilən müvafiq qanun layihəsinin tam qüvvəyə minməsi üçün sənəd yenidən Fransa Senatına göndərilməli və daha sonra ölkə başçısı tərəfindən təsdiqlənməlidir.

PUTİNİN GƏLİRLƏRİ AÇIQLANDI



Rusiya Mərkəzi Seçki Komissiyası prezidentliyə namizəd olan baş nazir Vladimir Putinin gəlirləri haqqında məlumatı açıqlayıb

Lent.az-ın "Exo Moskvı" radiosuna istinadən verdiyi məlumata görə, son 4 ildə baş nazirin 18 milyon rubl gəliri olub.

Vladimir Putinin əsas gəlir mənbəyi maaşı olub. Son illər baş nazir hər ay orta hesabla 360 min rubl maaş alıb. Maliyyə baxımından Vladimir Putin üçün ən uğurlu il 2010-cu il olub. Həmin il onun gəlirləri 25 faizə qədər artıb.

Vladimir Putin baş nazir kimi maaşla bərabər, hərbi pensiya alır, eyni zamanda bankdakı əmanətlərinə və səhmlərinə görə divident əldə edir. Vladimir Putin Sankt-Peterburq Bankında kiçik həcmdə səhmə də malikdir. Daşınmaz əmlaka gəlincə, baş nazirin Sankt-Peterburqda mənzili və qarajı, Moskva ətrafında 15 sot torpağı, "QAZ" və "Niva" markalı avtomobilləri var.



"FACEBOOK" TƏHLÜKƏSİ


Barak Obama qızlarına "Facebook"dan istifadə etməyi qadağan edib

ABŞ Prezidenti Barak Obama qızlarına "Facebook" sosial şəbəkəsindən istifadə etməyə qadağa qoyduğunu açıqlayıb.

"Niyə tanımadığımız insanlar haqqımızda məlumat sahibi olsunlar?" - deyə Obama qadağanın səbəbini belə izah edib.

Obamanın Saşa və Maliya adlı iki qızı var. Saşanın 10 yaşı, Maliyanın isə 13 yaşı var.

BƏŞƏRİYYƏT GƏLƏCƏYİN FƏLAKƏTLƏRİNƏ HAZIR DEYİLDİR



Britaniyanın beynəlxalq inkişaf naziri Endryu Mitçell hesab edir ki, dünya birliyi mümkün təbii və texnogen fəlakətlərə çox barmaqarası baxır

O bildirmişdir ki, BMT-nin Fövqəladə Hallara Yardım Fondunun əlavə vəsaitə ehtiyacı vardır, lakin beynəlxalq donorlar pul ianə etməyə tələsmirlər.

Mitçell təkcə bu il baş vermiş bir neçə fəlakəti, o cümlədən Yeni Zelandiyada zəlzələni, Afrika Buynuzu ölkələrində aclığı, Yaponiyada sunamini xatırlatmışdır.

Nazir beynəlxalq birliyi gələcəyin təhlükəsi qarşısında ayılmağa çağırmışdır.

NAİLƏ İSLAMZADƏ: "HƏR KƏS QAZANDIĞI HÖRMƏTİ QORUYUB SAXLAMAĞI BACARMALIDIR"

TRT Avaz-da "İşte kadın" verilişinin aparıcısı, əməkdar artist Nailə İslamzadə ilə müsahibə



- Nailə xanım, bu gün televizora baxırsınız?

- Vaxt azlığından az baxıram, amma baxanda da əsəbiləşdiyim bəzi şeylər olur deyə, çalışıram, lap az-az baxım.

- Uzun illər televiziyada çalışan birinə tamaşaçı olmaq çətin deyil?

- Bir musiqiçi xaric çalınan musiqini necə həmən hiss edirsə, peşəkar aparıcı da danışıqdakı çatışmazlığı hiss edir və bu, əsəbə çox toxunur.

- Xüsusi olaraq baxdığınız televiziya kanalı var?

- Konkret baxdığım kanal yoxdur. Demək olmaz ki, bu kanal yaxşıdır, o biri pisdir. Verilişin pisi və yaxşısı var.

Gözəl, reytinqli və yaxşı verilişlər hazırlamaq olar. Yaxşı verilişlər var. Sadəcə, bir neçə veriliş və aparıcı var ki, onları efirdən yığışdırsan, hər şey yoluna düşəcək. Ad çəkmək istəmirəm, bunlar əsasən şou tipli verilişlərdir. Əyləncəli verilişlər lazımdır, amma əyləncənin də ana xətti olmalıdır. Əyləncədir deyə bayağı, şit söhbətlərə yer verilməməlidir. Televiziyada hər sözü söyləmək olmaz.

Mən aparıcılara bir şeyi demək istəyərdim. Demirəm ki, yaxşı aparıcıyam, bu qiyməti tamaşaçılar verirlər. Amma mən həmişə proqrama hazırlaşıb çıxırdım və danışanda fikirləşirdim ki, mənə, məsələn, akademik Bəkir Nəbiyev, Fuad Qasımzadə baxır. Mənim ixtiyarım varmı onların qarşısında özümü bu formada aparım? Dəmir parçasına baxıb danışaraq, qarşında dayanan auditoriyanı görmək, özü də ən yüksək təbəqəni görmək lazımdır. Bax bunun məsuliyyətini hiss etmək lazımdır. Bir də bu problemin bir həlli var. Aparıcı seçəndə fikir vermək lazımdır ki, o üç dil bilsin... Azərbaycan, rus, ingilis. Bu dillərin üçünü də bilən insanın dünyagörüşü, savadı mütləq olacaq.

- Siz dövlət tədbirləri də aparırdınız...

- Onun məsuliyyəti tamam başqadır. Tam əminliklə deyə bilərəm ki, mənə qədər və məndən sonra əlində kağızsız səhnəyə çıxan aparıcı olmayıb. Səhnəyə həmişə mətni mənimsəyib çıxmağa çalışırdım. Mən çox şadam ki, elə şeylər var ki, televiziya tarixində onu təkcə mən etmişəm... Bu, məsuliyyət və peşəkarlıq istəyir.



- Bu gün sizə bütün türk dünyası baxır, AzTV-dəki həmkarlarınız hərdən bəzi kanallarda görünürlər...

- Mən istəməzdim o görünənlərin bəziləri

kimi elə verilişlərdə iştirak edim. Hər kəs indiyə kimi qazandığı hörməti qoruyub saxlamağı bacarmalıdır. Efirdə görünmək xatirinə hansı verilişi gəldi, aparmamalıdır, haraya dəvət etdilər, getməməlidir. O ki qaldı mənə, bir dəfə bir kanaldan dəvət oldu. Getdim, danışdım... Bir şey ki, pula, sponsora bağlıdır, mən o işi görə bilmirəm. Əvvəl Azərbaycanın dövlət televiziyasında işləmişəm, indi də Türkiyənin dövlət televiziyasında işləyirəm, TRT AVAZ-da. Mənim üçün verilişi hazırlamaq mənəvi qidadır, onun maddi tərəfləri ilə məşğul olmaq mənlik deyil.

- Siz həm də rabitə və informasiya texnologiyaları nazirliyində çalışırsınız. Televiziyadan nazirliyə getmək çətin deyil?

- Hər ikisi dövlət orqanıdır. Mən yenə də əvvəlki işimi görürəm. Bu, TV-dən uzaq iş deyil, ssenarilər yazmaq, filmlər, sujetlər, reklam rolikləri... sadəcə olaraq mən görünmürəm...

- TV-də keçən ömür haqda memuar yazmaq fikriniz var?

- Düşünürəm ki, adam bir az yaşlananda bununla məşğul olur. Açığı, ağlımdan keçməyib... Mənə bir dəfə dedilər ki, "Ailələr, talelər" verilişindən kitab hazırla. Düzü, mən bir az laqeyd yanaşıram. Amma





yazmağa çox şey var.

- Geyiminizi xüsusi zövq ilə seçirsiniz...

- Mən hansısa tədbir üçün heç vaxt xüsusi paltar almaram. Həmişə ehtiyatda paltarım var. O vaxtlar elə olurdu ki, efir və dövlət tədbirləri üçün nəyisə tikdirirdim. Uyğun səhnə paltarları tapmaq çətin olurdu.

- Bu qədər işin arasında evdə mətbəxə girməyə vaxtınız olurdu?

- Ailəyə heç vaxt laqeyd yanaşmaq olmaz. Mən, ümumiyətlə, ailə ilə işi tarazlaşdırmağı bacarmışam. Onlar da çox sağ olsunlar ki, həmişə məni başa düşüb, dəstək veriblər. Oğlum başqasının bişirdiyini yemir deyə, hər şeyi özüm bişirirəm. Olub ki, 5-6 saatlıq canlı yayımda paltar qırışmasın deyə oturmamışam, hündürdaban ayaqqabı ilə ayaq üstə, səhnəyə kağızsız çıxırdım deyə mətni mənimsəmək... Çox gərgin olurdum. Bütün bunlardan sonra yorğun evə çatan kimi uşaq üstümə qaçırdı ki, "Ana, səni gözləyirdim, filan şeyi bişir də..." Ana işdən gec gəlib deyə uşaq ac qalmamalıdır. O vaxtlarından danışıram, indi yekə kişidir...

- Sizi bir az da ana kimi tanıyaq... Deyilənə görə, çox anlayışlı anasınız... Sizdə övlad-valideyn münasibətləri necə qurulub?

- Mən heç vaxt oğlumun istəyinə qarşı çıxmamışam. Həmişə onu başa düşməyə çalışmışam. Amma o da ağıllıdır, məni üzüqara edəcək şeylər etmir. Valideynlə övlad arasında münasibətlər düz qurulmayanda bu çox vaxt nəsillərin qarşıdurmasına gətirir. Məsələn, cavan qız qısa geyinmək istəyəndə...

Əgər qəşəng fiqurası varsa, aşırı olmamaq şərti ilə niyə də yox? Oğlum sirğa taxmaq istəyirsə... Əlbəttə, istəməzdim mənim oğlum sirğa taxsın, elə taxmır da. Amma bir müddətlik özümü onun yerinə qoymalıyam...

- "Yaşı olmayan xanım" fikri ilə razısınız?

- Buna iki tərəfdən yanaşmaq olar. Birinci, xanımın yaşı olmamalıdır. O həmişə baxımlı olmalıdır. Nə qədər işi olsa da. Ona görə də qadın işləməlidir ki, özünü səliqəli saxlamağa məcbur olsun. Mən istəyərdim ki, lap evdar xanım da günün sonunda özünə bir az vaxt ayırsın. 5 dəqiqə əllərinə, dırnaqlarına, 5 dəqiqə üzünə. Bir də hər qadın özü öz yaşını bilib, ona uyğun geyinməlidir. Hər bir yaşın özünə uyğun geyimi olmalıdır. İndi mən durum qırmızı bant bağlayım, cavan qızlar kimi makiyaj edim... Bunu mütləq nəzərə almaq lazımdır.

- Sizin üçün "yaşı olmayan xanım" kimdir?

- Flora Kərimova, Ajda Pekkan, Şeron Stoun.

- Nailə İslamzadə "yaşı olmayan xanım" kimi hansı sirlərini paylaşa bilər? Xanımlar sizin kimi görünmək üçün nələrə diqqət etməlidirlər?

- Bu, həyat tərzidir. Siqaret çəkməmək, spirtli içkilər içməmək lazımdır. Düzgün yatmağı bacarmaq lazımdır. Qıvrılıb yatmaq insana xoş gəlsə də, çalışıb üzü yuxarı yatmaq lazımdır. Üzlərini nəm saxlasınlar. Üz nəmlənərsə, həmişə qəşəng olacaq. İdmanla məşğul olmaq lazımdır. Əsas yemək deyil, əsas yeməyin verdiyi kaloriləri yandırmağı bacarmaq lazımdır. Mən evdə bütün işimi özüm görürəm, bu mənə kömək edir. Bir də templi yerişlə məşğulam. Təbii ki, gözəl olmaq asan məsələ deyil. Ümumiyyətlə, qadınlar yaşlandıqca üzdəki qırışlardan qorxmasınlar. Əgər içinizdə gözəllik varsa, mütləq üzünüzə yansıyacaq və qırışlar onun yanında hiss olunmayacaq.

- Nənə olmağa tələsmirsiniz?

- Oğlum hələ evlənməyib, yaşı çox deyil. Hərdən mənə deyirlər ki, niyə evləndirmirsən? Bir oğlun var, bir gəlinə baxa bilməyəcəksən? Sabah evləndirərəm. Amma mən erkən evliliyin tərəfdarı deyiləm. İstər qız, istər oğlan, evliliyin maddi və mənəvi məsuliyyətini daşımağa hazır olmalıdır. Oğlumdan narazı deyiləm, ağıllıdır. Amma yenə də bunu o özü istəməlidir.

Vüsalə Məmmədova
Milli.Az

HÖCCƏTULLAH ƏYYUBİ: BAKI MUSİQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA SANKİ ŞƏRQİN VYANASIDIR

Azərbaycanın səmərəli beynəlxalq inteqrasiya siyasəti uğurlu nəticələr verməkdə davam edir. Beynəlxalq təşkilatlardakı mövqelərini sürətlə möhkəmləndirməkdə olan ölkəmiz bütün sülhsevər və tərəqqipərvər təşkilatlarla əlaqələr qurmağa maraq göstərir. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) da Azərbaycanın təmsil olunduğu qurumlardandır.

İƏT-in Mədəniyyət İnstitutunun direktoru Höccətullah Əyyubi AzərTAc-ın xüsusi müxbirinə müsahibəsində Azərbaycanın İƏT-dəki yeri və rolu barədə danışmışdır:

-Cənab Əyyubi, rəhbərlik etdiyiniz institutun perspektivləri barədə nə deyə bilərsiniz?

-Perspektivdən danışmaq üçün, təbii ki, əvvəlcə görülən işlər barədə məlumat vermək düzgün olardı. Ömrümün əsas hissəsi mədəniyyətlə bağlıdır. Bu sahədə təhsil almışam və düşüncəmdəki elmi ideyaların tətbiqinə çalışıram. Başa düşürəm ki, çətinliklər çoxdur və bundan sonra da olacaqdır. Lakin geriyə yol yoxdur. İƏT-in coğrafiyasını "Günəş yurdu" adlandırıram. Çünki bu coğrafi ərazinin dahi şəxsiyyətləri öz möhtəşəm əsərləri ilə dünya mədəniyyətinin inkişafına Günəş şöləsi saçmışlar. Ötən dövrdə Əfqanıstanda və Tacikistanda rəsm sərgiləri təşkil olunmuşdur. Bu sahədəki növbəti tədbirimiz Qırğız Respublikasında olacaqdır. Bundan başqa, İƏT-in üzvü olmayan Gürcüstanda və Ukrayna rəssamlarının Tehranda sərgilərini keçirmişik. Gürcüstanda "İqtisadi Əməkdaşlıq Təşkilatı həftəsi" təşkil olunmuşdur. Artıq İƏT-in üzvü olan ölkələrdən səkkizini ölkəni təmsil edən görkəmli rəssamlar institutumuzun xüsusi mükafatı ilə təltif edilmişlər. Ən yaxın

vaxtda Azərbaycan Respublikasının rəssamlarının əsərlərindən ibarət sərgi təşkil etmək niyyətindəyik. Rəssamlar arasında növbəti mükafatı da məhz sizin ölkənin ən layiqli təmsilçisinə təqdim etmək arzusundayıq. Bu, həm də 2012-ci ildə İƏT dövlət başçılarının Azərbaycanda keçiriləcək Zirvə Toplantısına hazırlıq tədbirlərindən biridir. Zirvə Toplantısına qədər mükafat alan rəssamlar barədə nəfis kitab hazırlaya bilərik. Perspektivlər genişdir. İƏT-in üzvü olan ölkələr arasında idmanın müxtəlif növləri üzrə çempionatlar təşkil etmək fikrindəyik. Bundan başqa, təşkilatın üzvü olan və digər ölkələri təmsil edən görkəmli musiqiçilərin müştərək konsertlərini keçirəcəyik. İstəyirik ki, hər bir ölkənin klassiklərinin əsərləri yenidən ifa olunsun və qaliblər mükafatlandırılsın. Simfonik əsərləri Avropa ölkələrinin səhnələrinə çıxaraq.

-Digər beynəlxalq təşkilatlarla əlaqələriniz necədir?

-İƏT-in Mədəniyyət İnstitutu artıq UNESCO-nun müşahidəçi üzvüdür. Düşünürəm ki, bu mötəbər təşkilatla əməkdaşlıq institutumuza olan ümid və inamı daha da artıracaqdır.

-Azərbaycanın təşkilatdakı yerini və rolunu necə görürsünüz?

-Mən Avropada təhsil alıb, uzun illər orada yaşamışam. Lakin doğma Azərbaycana yalnız ötən il gedə bilmişəm. Mən Azərbaycanda özümü bir baba evimdən gedib o biri babamın evindəki kimi rahat və sərbəst hiss etdim. Azərbaycan çox böyük sürətlə inkişaf edən ölkədir. Biz Azərbaycanda rəsmi səfərdə olanda Bakıda növbəti böyük festival – İranın mədəniyyət həftəsi keçirilirdi. Mən də özümlə muğam qrupu aparmışdım. İnsanlar yüksək mədəniyyətlə və son dərəcə diqqətlə ifaları dinləyir və səhnəni tükənməz maraqla seyr edirdilər. Bakı musiqi mədəniyyətinin inkişafında sanki Şərqin Vyanasıdır. Avropada məni festival adamı kimi tanıyırlar. Orada mədəniyyət ona görə



irəli gedir ki, bütün şəhərlərdə illik festivallar təşkil olunur. Mən çox arzu edirəm ki, İƏT-in illik musiqi festivalları Azərbaycanda - Bakıda keçirilsin. Necə ki, illik rəsm festivalları İranda, teatr festivalları Türkiyədə təşkil olunur. Azərbaycanın beynəlxalq musiqi festivallarının təşkilində böyük təcrübəsi və hərtərəfli potensialı vardır. İƏT-in üzvü olan on ölkə Şərq mədəniyyətinin tarixində vahid ailədir. Onlardan heç birini digərindən ayırmaq olmaz. Nizami, Mövlanə, Sədi və başqa korifeylər dünya üçün yazıb yaradıblar. Onların heç birinin yaradıcılığında sərhəd olmamışdır. Bu şəxsiyyətlər dünyaya uzaqgörənliklə, açıq gözlə baxmışlar. Avropa İttifaqı yarananda mən tələbə idim. O vaxt mətbuat nümayəndələri belə bir ittifaqın yaradılmasında ictimai rəyi öyrənirdilər. Bir nəfər görkəmli şəxsiyyət demişdi ki, belə təşkilatları çox yaratmaq olar, lakin əsas odur ki, insanların qəlbinə yol açan birliklər yaradılsın. Bax, bizim də məqsədimiz odur ki, heç bir siyasi məqsəd güdmədən təşkilatın üzvü olan ölkələrin xalqlarının qəlbinə yol açа bilən mədəniyyət birliyinin formulunu yaradaq. Bunun üçün əsas məsələlərdən biri İƏT-in üzvü olan ölkələrin mədəniyyət sahəsi üzrə rəsmilərini qeyd etdiyimiz ideyalara inandırmaqdır.

Sabir Şahtaxtı,
AzərTAc-ın xüsusi müxbiri
Tehran
28 dekabr 2011



Məmməd İsmayıl

ŞEİRLƏR

Şairin Türkiyədən redaksiyamıza göndərdiyi şeirləri oxucularımıza təqdim edirik

ATA ŞƏKLİ

Dəmiryol vağzalı... Qatar ayağı
Arada sükuta səpələnən qar.
Arxada arxasız cavanlıq çağı,
Hardan biləsiydi öndə nələr var...

Ayrılıq... Ürəyi sıxılan vaxtmış
Üfüqdə bir qanı qaralan axşam...
Atam yanımdaymış, bəxtim oyaqmış.
Bəxtim oyaqmış da, mən yatırmışam.

Bu soyuq sətirlər bir şey deyirmi?
Səsi sonra çıxdı yağan qarın da...
Bir ana düşünün – yaşı iyirmi,
Bir oğul, çox olsa yaşyarımında.

Bəndə görməyəni tale görürmüş,
Arxada nə olub, öndə nələr var?..
Buxar nəfəsiylə köks ötürürmüş
Bizi ayırmağa tələsən qatar...

Havada donurmuş sözə ehtiyaç,
Ata kəlmələri qırıq-qırıqdır:
- Gözümün işığı, gözlərini aç,
Bəlkə bu ayrılıq son ayrılıqdır.

Nədir iliyimə işləyən soyuq -
Ürəyə dammanın başa gəlməsi.
Sübuta-filana ehtiyacı yox,
Hazırca sübutdur "ata" kəlməsi...

Gün ötür, ay geçir, il qalaqlanır,
Gəmirir ömrümü vaxt xımır-xımır...
Gözümü yumuram, bəxtim bağlanır,
Açıram, onsuz da bəxtim açılmır.

Ömrümə yoldaşdır bir ata adı,
Uşaq yaddaşımın qanı soyuqdur...
Xatirə adına bir şey qalmadı,
Baxıb ağlamağa şəkli də yoxdur...

...Aradan çıxmağa çalışır zaman,
Havada burgusu burular qarın...
Can candan ayrılır...Bu ayrılıqdan
Tüstüsü başından çıxır qatarın...

Əlində Yusifin kəsik kəndiri
Nəsə düşünürdü vaxt əsə-əsə:
Geri dönəcəkdi yolların biri,
Biri gedəcəkdi gedər-gəlməzə.

Baxıb görməyənin xoş o halına
Çəkilməz dərdləri çəkirdi qatar:
Gün çoxdan enmişdi dağlar dalına,
Ay sevinirdi ki, göydə bulut var.

O qatar gedirdi dərd çəkə- çəkə,
Yatan körpənin də yuxusu qardı...
Açsaydı kor olmuş gözünü, bəlkə
İçində bir ata şəkli qalardı...

ÇÖLDƏ BARMAĞIMA TİKAN BATANDA...

Çöldə barmağıma tikan batanda,
Üstünə qaçardım əlləri qanlı.
Bir çarpan ürəkdik biz iki canda
Sən oğul canlıydın, mən ana canlı...

Yaş olub axardı yetim qürurum,
Atam da yox idi fərqinə varsın.
Deyərdin: ağlama, gözümün nuru,
Gətir barmağını öpüm qurtarsın.

İndi o ilahi sevgilər hanı?
Bir candan keçəydi başqa bir cana.
Öpərdin, kəsərdi əlimin qanı,
Sənin nəfəsində nə varmış, ana?

Yerlərin göylərə diləyi səndin,
Bəxtinə vaxtımın günəşi doğdu.
Dünyaya gəldiyim ana vətəndin,
Sən yoxsan, bəlkə heç vətən də yoxdu...

Bəs niyə üstümdən gölgəni çəkdin,
Döndərib könlümü neylərə, getdin.
Bəlkə də göylərdən enən mələkdin,
Qayıdıb yenidən göylərə getdin.

İnsanın mənzili ağrılarcadı,
Uzanar vətəndən qürbətə acım.
Qan olan ürəyim param parçadı,
Sən yoxsan, mən kimin üstünə qaçım?

QƏM YEMƏ, QALDISA SON ÜMİD YERİ...

Başını qatanda qürbət çağları,
Gedib son mənzildə unutma ilki..
Susuz çay olmaz ki çay yataqları,
Sevgisiz bir ömür ömür deyil ki?!

Vaxt üzə dayanıb baxt unutmasa,
Sevən sevdiyini unuda bilər?
Səni bir kimsənin gözü tutmasa,
Səni bu dünyada nə tuta bilər?..

Qəm yemə, qaldısa son ümid yeri,
Qürbətə qarını töksə də yanvar.
Bilsən ki hardasa sevdiyin biri
Və səni hardasa hələ sevən var...

VƏTƏN

Gedərsən, məchula yol gedər gedən,
Qürbət, bir açılmaz sirdən başlıyar.
Burnunun ucunu göynədən vətən
Yadından çıxdığı yerdən başlıyar.

Gedərsən, vətənin qalar vətəndə,
İçinin içində köz vətən olar.
Dərdinə, sərinə vətənsən sən də,
Qürbətdə sənə də söz vətən olar.

Özü heç, sözünü unutma, vətən,
Hələlik könlünün bir yerinə yaz:
Onu sənin kimi atıb tərk edən,
Səni onun kimi sevən tapılmaz...

AZƏRBAYCANDA UŞAĞIN CİNSİYYƏTİNİN ÖYRƏNİLMƏSİ QADAĞAN EDİLƏ BİLƏR

"Abortun qadağan edilməsi bir çox ölkələrdə var, amma bu, çox vaxt yaxşı nəticə vermir"



Bunu Anspressə açıqlamasında Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini **Musa Quliyev** deyib. "Selektiv abort, yəni uşağın cinsinə görə abort var. Biz bunun qarşısını almaq və ya məhdudlaşdırmaqdan ötrü qanunda belə bir müddəanın olmasını nəzərdən keçiririk. Qanun layihəsi hazırdır, biz bunu yaz sessiyasında nəzərdən keçirməyi planlaşdırırıq. Yəni uşağın cinsinin təyin edilməsi məqsədi ilə USM müayinəsinin aparılması qadağan edilsin. Amma qalan abortlarla bizim işimiz yoxdur" - millət vəkili bildirib.

Burada neqativ halların mümkün ola biləcəyini istisna etməyən Musa Quliyev deyib ki, bunu zaman göstərəcək: "Təbii ki, buna nəzarət olacaq. Bundan başqa, insanlar arasında maarifləmə işləri getməlidir. Bir müddəa ilə iş bitməyəcək. Amma müəyyən addımlar atılmalıdır, çünki Azərbaycanda demoqrafik göstəricilər dəyişməyə başlayıb. Oğlanların sayı qızların sayını üstələyir. Artıq bir neçə ildən sonra biz ciddi problemlə üzləşə bilərik. Xaricdə də uşağın cinsinin yoxlanılması qadağandır, lakin istisna hallarda, məsələn, genetik xəstəliklər olduğu təqdirdə buna icazə verilir".

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, qurum cinsiyyətə görə abort hallarının qarşısını almaq üçün komtiyə müraciət edən qadınlar arasında maarifləndirmə işləri aparır. Komitənin sədri **Hicran Hüseynova** maarifləndirmə ilə bu problemin qarşısının alına biləcəyini deyib. Onun sözlərinə görə, uşaq hüquqları baxımından bu düzgün deyil. Dünyaya gələn qız uşaqlarının sayı azalır. Komitə sədri etiraf edir ki, bu problem var və ən güclü təsir maarifləndirməkdir. Lakin bu əməliyyatın dövlət tərəfindən qadağan edilməsi mümkün deyil, əks halda bu, insan hüquqlarının pozulması hesab olunur.



Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədovanın sözlərinə görə, Azərbaycanda abort hallarının sayı azalıb: "Əvvəllki illərlə müqayisədə abortların sayı azalıb. Bununla bağlı doğum evləri və qadın məsləhətxanalarında nazirliyin tapşırıqlarına əsasən məsləhətləşmələr həyata keçirilir".

Nazirlikdən bu istiqamətdə aparılan işlərlə bağlı bildirildi ki, doğum evlərinin hər birində reproduktiv kabinetlər var. Doğum şöbələrində də sanitar-profilaktik işlər aparılır. Orada həkimlər arzuolunmaz hamiləliyin qarşısını konspirativ yollarla alınması istiqamətində məsləhətlər verirlər.

AZƏRBAYCAN VƏ İTALİYANIN GƏNC KÖNÜLLÜLƏRİ MÜBADİLƏ LAYİHƏSİNƏ BAŞLAYIRLAR

Gənclər üçün Təhsil Mərkəzi (GTM) 2012-ci ilin əvvəlindən etibarən İtaliyanın "Provincia di Rieti" və "Gruppo il Samaritano" təşkilatları ilə gənc könüllülərin mübadiləsi layihəsinə başlayır

Mərkəzin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, əməkdaşlıq layihəsi çərçivəsində Azərbaycan və İtaliyanın gənc könüllülərinin uzunmüddətli mübadiləsi təşkil olunacaqdır. GTM-in nümayəndəsi Həvvaxanım Qurbanova 12 ay müddətində İtaliyada "Qaçqınlar" adlı layihə ilə xidmət göstərəcəkdir.

Layihə çərçivəsində Azərbaycanın gənc könüllüləri İtaliyaya gələn qaçqınlar və sığınacaq axtaranlar üçün yaradılmış məntəqələrdə onların qəbuluna, cəmiyyətə inteqrasiyasına kömək edəcəklər.



"UŞAQLARIN İNTERNETDƏ TƏHLÜKƏSİZLİYİ"

"Multimedia" Mərkəzi dekabrın 21-də "Uşaqların İnternetdə təhlükəsizliyi: mövcud vəziyyət və perspektivlər" mövzusunda dəyirmi masa təşkil edib

Mərkəzin direktoru Osman Gündüz tədbiri açaraq bildirib ki, son dövrlərdə ölkədə İnternetin və mobil rabitənin sürətli inkişafı uşaqların İnternetdə təhlükəsizliyini xeyli aktuallaşdırıb. O, tədbirdə "Uşaqların İnternetdə təhlükəsizliyi" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda son illərdə ölkədə bu istiqamətdə görülən işlər, problemlər və onların aradan qaldırılması yolları öz əksini tapıb. Uşaqların zərərli informasiyalardan qorunması üçün cəmiyyətin bütün təbəqələrinin səylərinin gücləndirilməsi, valideynlərin rolunun artırılması, metodiki-informasiya yönümlü fəaliyyətin sistemli olaraq aparılmasının vacibliyi qeyd edilib. O, həmçinin uşaqların təhlükəsizliyinin təmin edilməsinə köməklik məqsədilə yaradılan www.netsafe.az İnternet resursu haqqında məlumat verib.

Dəyirmi masada həmçinin SAZZ provayderi və AzEduNet təşkilatının birgə həyata keçirməyə başladıqları təhlükəsiz internet xidməti ("Halal İnternet") layihəsi haqqında məlumat verilib. Adı çəkilən qurumların nümayəndələri Aynurə Həsənova və Emin Seyidov çıxış edərək, bu xidmətin ilk növbədə Wi Max texnologiyası əsasında təhsil müəssisələri çərçivəsində, gələcəkdə isə bütün ölkə ərazisində təklif ediləcəyini bildiriblər. AzEduNet şəbəkəsinin hazırda təhsil sistemində təhlükəsiz İnternetə girişin təmin edilməsi istiqamətində ciddi uğurlar əldə etdiyi qeyd olunub.

Dəyirmi masada mövzu ətrafında əlaqədar qurumların və ekspertlərin iştirakı ilə ciddi müzakirələr aparılıb. Çıxışlarda uşaqların təhlükəsizliyinin qorunması istiqamətində müəyyən işlər görülsə də, xeyli sayda problemin olduğu qeyd edilib. Dövlət, təhsil və özəl sektor və vətəndaş cəmiyyətinin birgə səylərinin vacibliyi vurğulanıb. Xüsusilə valideynlərin məsuliyyətinin artırılmasının zəruriliyi bildirilib. Maarifləndirici işlərin sistemli olaraq təşkil



edilməsinin, uşaqların asudə vaxtlarının daha səmərəli təşkilinin, çeşidləyici proqramların milli versiyalarının yaradılmasının, qanunvericiliyi təkmilləşdirməyin mühüm əhəmiyyəti qeyd olunub.

Tədbirdə irəli sürülən təklif və tövsiyələrin diqqətdə saxlanılacağı və aidiyyəti qurumlara göndəriləcəyi bildirilib. Toplantıda uşaqların təhlükəsizliyinin qorunması istiqamətində bu tip tədbirlərin müntəzəm olaraq keçiriləcəyi diqqətə çatdırılıb.

Dəyirmi masada müvafiq dövlət qurumlarının, təhsil müəssisələrinin, Vətəndaş Cəmiyyəti subyektlərinin və beynəlxalq qurumların nümayəndələri iştirak edib.

Layihə Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə və Təhsil Nazirliyi Təhsil sisteminin İnformasiyalaşdırılması idarəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunur.

2011-Cİ İLDƏ AZƏRBAYCANDA 86 MİN GƏNC AİLƏ QURULUB

29 min uşaq isə qeyri-qanuni nikah nəticəsində dünyaya gəlib

APA-nın məlumatına görə, bu fakrları "Kaunterpart" beynəlxalq təşkilatının gender məsələləri üzrə mütəxəssisi Ülviyyə Məmmədova ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən "Qadın iştirakçılığı" proqramının həyata keçirilməsinə başlanması ilə əlaqədar dekabrın 20-də Bakıda keçirilən tədbirdə deyib.

Ü. Məmmədova bildirib ki, bu il ölkədə 155 minə yaxın uşaq doğulub: "Bu il doğulan 155 minə yaxın uşaqdan 29 mini qeyri-qanuni nikah nəticəsində dünyaya gəlib".



"XƏZƏR"DƏ DƏRDLƏŞMƏLƏR

Xəzərdə dərdi-sər ən çox imtahan sessiyası dövründə artır. İngilis dili kafedrası ən böyük kafedra olduğundan onun dərdi lap çoxalır. Beləliklə, testlərin yoxlanılması anında nə baş verir?

Müəllimlər halay vurub stolun ətrafında oturublar; testlər yoxlanılır. Birdən bir müəllimin səsi sükutu pozur: "hər bir mövzunu bir-bir izah etmişəm, sinonimləri bir-bir təkrar etmişik, görün bu tələbə "nutrition" sözünə sinonim kimi "country" sözünü seçib.

Digər müəllim başını tutur: "aman Allah, semestr qurtardı, bu tələbə "to be" felini şəxslər üzrə təsrif edə bilmədi".

Firəngiz müəllimə: "mən onları lap cəzalandıracam. Əgər Şekspiri, Bayronu deməsələr, heç bir bal aktivlik yazmayacam!"

Kafedra müdiri Eldar müəllim qəzəbli halda yan otaqdan çıxır: "əşi, siz mənim axırıma çıxdınız. Mən bu yoxlanılmış işləri yoxlamaqdan yoruldum. İşləri diqqətlə yoxlayın. Üzünü bir müəllimə çevirib deyir: "sənə gələn semestr dərs verməyəcəm. Sən bizim tələbatları ödəyə bilmirsən". Firəngiz müəllimə: "sizin tələbatınızı mən ödəyə bilmirəm, bu yazıqlar necə ödəyəcəklər; o qədər iş tapşırırsınız, axırda da hamısını özünüz edirsiniz" – deyərək, çıxır koridora.

Elə bu anda prorektor Məhəmməd müəllimə rast gəlir:

– Məhəmməd müəllim, necəsiniz?

– "Terpimo (Azərbaycan dilində: "dözürük"), average (ingilis dilində "ortabab"). Bəs siz necəsiniz?

– Elə mən də sizin kimi.

Elə bu anda Hamlet müəllim gəlir:

– Nə var, nə yox?

Firəngiz müəllimə:

– Sağ-salamatçılıqdır. Elə-belə dərdləşirik.

Hamlet müəllim:

– Bax, elə bu dərdləşmələrdən "Xəzər Xəbər"ə yazın. Biz razılaşırıq. Yaxşı fikirdi. Ona görə də "Xəzər Xəbər"ə yazıram.

"AXI ONLAR DİVANDA OTURUBLAR..."

Bizim "Xəzər"də 1994-cü ildə çox yumorlu bir riyaziyyat müəllimi dərs deyirdi. Aydın müəllim. Özü də Hamlet müəllimə köməkçilik də edirdi. Bir gün ona bir sənəd verdim və dedim:

– Aydın müəllim, bu sənədə tez qol çəkdirin, mənə təcili lazımdı, valideyn gözləyir.

Bir saat keçdi, iki saat keçdi. Aydın müəllim yoxdur. Nəhayət, səbrim tükəndi. Qalxdım rektorun otağına, gördüm Aydın müəllim yazıq-qazıq, əlində mən verdiyim sənədlə oturub gözləmə otağında.

–Aydın müəllim, nə oldu? Nə uzun çəkdi bu imza atma?

– Firəngiz müəllimə, mən içəri girə bilmərəm.

–Niyə, nə olub ki?

–Hamlet müəllimin yanında adam var.

–Nə olsun ki, Hamlet müəllim sənədə qol çəkəcək, verəcək sənə.

– Yox, o adam qadındır.

Mən təəccüblə soruşdum:

– Qadın olanda, nə olar? Gündə o neçə qadını qəbul edir.

– Yox, belə deyil, axı onlar divanda oturublar...

– Nə olsun ki, divanda oturanda nə olar? – deyərək güldüm, sənədi onun əlindən alıb içəri keçdim, Hamlet müəllim sənədi böyük məmnuniyyətlə imzaladı və əhvalatı ona danışanda xeyli ləzzətlə güldük...

"SAAT NEÇƏDƏ GƏLƏK?"

Tarix müəllimi Roza xanım mühazirələrinin birində (onu da qeyd edim ki, onun Azərbaycan dili bir az şirin – məzəlidir) hirslənərək, tələbələrə deyir:

– Yaxşı, indi görərsiniz, mən sizə "Varfolomey gecəsi"* göstərəcəm.

Roza xanımın dərsindən sonra tələbələr mənim dərsimə gəldilər. Əhvalatı mənə danışıb, kömək istədilər:

– Firəngiz müəllimə, Roza müəllimə bu gecə nə isə göstərəcək. Qorxudan soruşa bilmədik, neçədə gələk?

"KİŞİ OLMAĞIMA BAXMA..."

Universitetin ilk günlərində bina kimsəsiz, köhnə olduğundan siçanlarla dolu idi və hələ koridorlarda kifayət qədər işıq da yox idi. Deməli, birinci mərtəbəyə düşmək üçün, üçüncü mərtəbədən başımı aşağı əyərək qışqırdım:

–Oruc, ordasan? (O vaxt Oruc müəllim bizim nəzarətçi idi).

Birinci mərtəbədən Oruc hay verdi:

–Firəngiz müəllimə, burdayam.

–Onda gəl mənə kömək elə, aşağı düşüm. Qaranlıqdır, siçanlardan qorxuram.

– Ay Firəngiz müəllimə, vallah, kişi olmağıma baxma, elə mənim də onlardan zəhləm gedir. Gör, bir təhər özün düşüb gələ bilərsən?

FİRƏNGİZ NƏSİROVA

**1572-ci il avqustun 24-ə keçən gecə (müqəddəs Varfolomey bayramı günü) Parisdə hugenotların dini zəmində katoliklər tərəfindən kütləvi qırğına məruz qalması*



"QARANLIQ DÜŞƏNDƏ GÖZLƏRİ GÖRMÜR"

Noyabr ayının 25-i saat 14.50 dəqiqə idi. Maisə xanıma bir neçə təcili tapşırıq verib, tanınmış opera sənətçisi Fidan Hacıyeva və onun Fransadan gəlmiş qonağının birlikdə verəcəkləri açıq dərsə qulaq asmaq üçün Mərmər salona getdim. Ordan çıxanda saat 17.05 dəqiqə idi, gözəl musiqidən sonra kefim də kök idi. Birbaşa Maisə xanımın oturduğu 212 saylı otağa üz tutdum. Maisə Xanım otaqda yox idi. Zakir Yusifoğludan onun harada olduğunu soruşdum. Zakir Maisənin getdiyini bildirdi. "Adam da bu zaman işdən gedər? Hələ saat 5-dir" – deyə, bir qədər səsimi qaldırdım. Zakirdən aldığım cavabı eşidəndə özümü gülməkdən saxlaya bilmədim və: "Zakir, bunu mütləq yazacam" dedim. Zakir isə "nəyi yazacaqsan, harda yazacaqsan?" deyə, bir şey anlamayıb, qeyri-müəyyən gülümsəməklə kifayətləndi.

Bu da Zakirin cavabı: "Maisə xanım evə getdi. Çünki artıq havalar tez qaranlıqlaşır, **qaranlıqda da Maisənin gözləri yaxşı görmür"**!

"TƏƏSSÜF Kİ, DÖVLƏT İMTAHANINA GİRƏ BİLMƏDİM"

Noyabrın 30-da saat 4-də yanıma təxminən 10 il bundan əvvəl tanıdığım bir nəfər gəldi. Bizim keçmiş tələbəmizin valideyni idi. Gəlməkdə də məqsədi qızının bizim universitetdə təhsil alması ilə əlaqədar bir arayış almaq idi. "Qızım 2000-ci ildə "Xəzər"ə qəbul olundu. Bir il oxuduqdan sonra təhsilini davam etdirmək üçün Azərbaycan Beynəlxalq Universitetinə köçürüldü (*Əslində, tələbə köçürülməmişdi, sadəcə olaraq "Xəzər"dən xaric edilmişdi* – **İ.İ.**). Sonralar ailə vəziyyəti ilə əlaqədar olaraq xaricə getdi. Bilirsiniz ki, o universitet də bağlandı. İndi qızımın diplomunu almaqla bağlı problemlərimiz var. Xahiş edirəm, qızımın burada 1 il təhsil alması haqqında mənə arayış verəsiniz".

Mənim "problem əsasən nədən qaynaqlanır" sualıma həmsöhbətim belə cavab verdi: "Əslində, qızımın burda olmadığı müddətdə Beynəlxalq universitetdə, demək olar ki, bütün məsələləri həll etmişdim, bütün semestr imtahanlarını vaxtlı-vaxtında yazdırmışdım. Amma ***təəssüf ki, bircə dövlət imtahanına girə bilmədim***".

İSAXAN İSAXANLI

"YAXŞI QURTARDIQ, KEÇƏL DEYİL..."

"Xəzər Xəbər" jurnalında dizayner kimi işə başlayanda baş redaktorun müavini Əlirza müəllim mənə dedi ki, jurnalın estetik görünüşü, oxucuların zövqü korlanmasın deyə, jurnalda bir qayda olaraq keçəl kişilərin şəklini vermirik (o, başında tükü olmayan kişiləri "keçəl" adlandırır). Tapşırdı ki, bunu nəzərə alım.

Əlbəttə, sonralar gördüm ki, istisnalar da olur. Misal üçün, hər il Nobel mükafatı laureatlarını təqdim edəndə, universitetə rəsmi bir qonaq gələndə və s. Ancaq, əsas etibarilə, bu "qayda"ya əməl olunur.

... Günlərin bir günü məlum oldu ki, universitetə rektor vəzifəsi üçün müsabiqə elan edilib. Əlirza müəllim bərk narahatlıq keçirməyə başladı: "Keçəl olsa, jurnal batdı".

Həqiqətən də, həyəcanlanmağa dəyərdi. Rektorun şəkli jurnalın rəngli qismində hər nömrədə, özü də çox vaxt 5-10 yerdə gedir. Keçəl rektorla bu səhifələri təsəvvürə gətirməyin özü, doğrudan da, ağır iş idi.

Buna görə də, Əlirza müəllimin narahatlığı davam etməkdə idi...

Nəhayət, günlərin bir günündə də məlum oldu ki, müsabiqəyə yekun vurulub, rektor müəyyənləşib və yaxın günlərdə Amerikadan Bakıya gəlişi gözlənilir. Əlirza müəllim: "Əlövsət müəllim* onu tanımamış olmaz, gedim soruşum, görüm başında tükü var, ya yox" deyərək, Əlövsət müəllimin yanına getdi. Mən həyəcanla gözləyirdim. Bir azdan Əlirza müəllim sevincək otağa qayıtdı: "Yaxşı qurtardıq, keçəl deyil. Əlövsət müəllim deyir ki, başında yaxşı tükü var". Beləliklə də, Con müəllimin şəkli jurnalda maneəsiz çap olunmağa başlandı...

... Lap bu günlərin söhbətidir. Əlinizdə tutduğunuz bu nömrəni hazırlayırdıq. Əlövsət müəllimin keçirdiyi tədbirin şəkillərinə baxarkən, bir neçə dazbaş kişini görüb, hirslənibmiş kimi, Əlövsət müəllimə zəng etdi (onu da qeyd edim ki, bəzən Əlirza müəllimin zarafatı ilə ciddi sözünü ayırd etmək çox çətin olur): "Əlövsət müəllim, niyə tədbirə adam dəvət edəndə bir baxmırsan ki, başında tükü var, ya yox?"

Əlövsət müəllim nə dedisə, dəstəyi qoyub, ürəkdən gülməyə başladı. Mən də ona qoşulub, gülə-gülə Əlövsət müəllimin nə cavab verdiyini soruşdum.

- Dedi ki, sən bu keçəllərdən nə istəyirsən? Allahın işidir, birinə tük verir, birinə vermir...

YƏMƏN HAŞIMOVA

XƏZƏR UNİVERSİTETİNİN REKTORU CON RAYDERƏ AÇIQ MƏKTUB

Hörmətli Con müəllim! Məlumdur ki, tanış adamların, xüsusən də eyni təsisatda çalışan insanların rastlaşarkən bir-birləri ilə salamlaşması möhkəm bərqərar olmuş adətlərdəndir. Lakin bizim universitetdə tək-tük elələri var ki, bu adi qaydaya riayət eləməyi özlərinə zəhmət bilirlər. Adamın yanından elə ötüb keçirlər ki, bilmirsən görmürlər, ya özlərini görməməzliyə vururlar...

Buna görə də, sizdən xahiş edirəm ki, əməkdaşların bir-birilə salamlaşmasını məcburi edən bir əmr imzalayasınız...

Hörmətlə
MOLLA XƏZƏR

*Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli

ŞİRNİYYATA HƏVƏS İNSANI VAXTINDAN ƏVVƏL QOCALDIR

Şirniyyat sevənlər təkcə kökəlməyə risk etmirlər, həm də vaxtından əvvəl qocala bilərlər



Niderlandın Leyden Universitetindən Diana van Heemstin başçılıq etdiyi alimlər bu qənaətə gəliblər. Trend-in məlumatına görə, bu barədə "New Scientist" yazır.

Alimlər apardıqları tədqiqat zamanı 569 sağlam qadını, qida qəbulundan sonra onların qanında qlükozanın qatılığının miqdarından (aşağı, orta, yuxarı) asılı olaraq üç qrupa bölüblər. Habelə, araşdırmaya şəkərin qanda miqdarı dəfələrlə çox olan 33 diabet xəstəsi də cəlb edilib.

60 müstəqil müşahidəçiyə könüllülərin fotoşəkillərinə baxmaqla onların yaşlarını müəyyən etmək tapşırılıb. Bu zaman qanda şəkərin miqdarının çox olması insanın ətrafdakılara olduğundan daha yaşlı görünməsinə gətirib çıxarıb. Birinci qrupla diabet xəstələri arasındakı real və ehtimal olunan ən əhəmiyyətli yaş fərqi bir illə yeddi ay arasında olub.

Birinci qrupla üçüncü qrup arasında fərq isə bir ilə bərabər olub. Ümumilikdə, bir litr qanda qlükozanın qatılığının hər 0,18 qram yuxarı olması ehtimal edilən yaşı beş ay artırır.

BEYNİN QOCALMASININ QARŞISINI ALMAQ ÜÇÜN NƏ ETMƏK LAZIMDIR?

ABŞ-da aparılmış son araşdırmalara görə, insan yaşa dolduqca onun beyin hüceyrələri ölmür


AzərTAc "Scientist"ə istinadla xəbər verir ki, Stenford Universitetinin neyrobioloqu, professor Con Morrisonun rəhbərlik etdiyi qrupun apardığı tədqiqatlar nəticəsində bəlli olmuşdur ki, insan yaşa dolduqca onun beynindəki sinapslar, yəni sinir qovşaqları arasındakı bağlantılar qopur.

Bu isə stressiz həyat, məşq və idman, sosiallaşmaq, yaxşı yuxu, hansısa məsələdə daha çox biliklərin əldə olunması və sair yollarla qarşısı asanlıqla alına bilən problemdir.

Morrison demişdir ki, insan qocaldıqca özünü yaşlı hiss etməsin deyə, bir qədər fəal olmalıdır. Fəal həyat tərzi beyni qocalmaqdan qoruyur.

TƏKƏRLİ ROBOT YAŞLI İNSANLARIN KÖMƏYİNƏ ÇATACAQ

Təkərli robot – RIBA-II "Tokai Rubber İndustries" şirkəti tərəfindən hazırlanmışdır




Robot öz möhkəm əlləri vasitəsilə xəstəni ehtiyatla çarpayıdan qaldıraraq əlil arabasına oturtmaq və eyni proseduru əksinə yerinə yetirmək qabiliyyətinə malikdir.

Əsasən qocalar evi üçün nəzərdə tutulmuş robot xəstəyə qulluq prosesinin ən yorucu və çətin hissəsini yerinə yetirir. Yaponiya mütəxəssislərinin məlumatına görə, qocalar evinin əməkdaşları gün ərzində azı 40 dəfə xəstəni qaldırmaq və ya oturtmaq məcburiyyətindədir. İşin təhlükəsizliyi üçün robotun əlləri və döş qəfəsi üzərindəki əks əlaqəni təmin edən rezin sensor hazırlanmasında şəbəkədən ibarət örtükdən istifadə olunmuşdur.

İQLİM DƏYİŞİKLİKLƏRİ BƏŞƏRİYYƏTİN SAĞLAMLIĞI ÜÇÜN TƏHLÜKƏLİDİR

İqlim dəyişiklikləri bütün dünyada sağlamlıq və təhlükəsizlik üçün "ciddi və getdikcə artan" qorxu yaradır



Londonda başa çatmış elmi konfransın iştirakçıları belə qənaətə gəlmişlər. Konfransda müxtəlif sahələrin – tibbi, hərbi-texniki və elmi sahələrin ekspertləri iştirak etmişlər.

Avstraliya alimlərinin fikrincə, iqlim dəyişiklikləri nəticəsində temperaturun artması artıq qarşıdakı yüzillikdə son həddə çata bilər. Alimlər isladılmış termometrin köməyi ilə tədqiqatlar aparmışlar. Termometri nəm parçaya bükməklə istifadə olunan bu üsul hərəkət edən havanın təsirinə məruz qalan nəm dəriyə göstərilən effekti müəyyənləşdirməyə imkan verir. Tədqiqatçılar hesablamışlar ki, insanlar və bədəninin daxili temperaturu Farengeyt üzrə təqribən 98,6 dərəcə (bizim adət etdiyimiz 36,6 dərəcə Selsi) olan heyvanların əksəriyyəti 6 saat və daha uzun müddət nəm termometrin 95 dərəcədən (Selsi ilə 35 dərəcədən) yüksək temperaturuna məruz qaldıqda, istilik stressinin potensial ölüm səviyyəsini hiss edəcəklər.

Tədqiqatın müəlliflərindən biri, Perdyu Universitetinin əməkdaşı professor Metyu Xuber deyir: "Planetin bir çox regionlarında havanın adi temperaturu 100 dərəcədən (37,8 dərəcə S) çox olur, nəm termometrin temperaturunun çox yüksək olması son dərəcə nadir haldır". Alimlər müəyyən etmişlər ki, Farengeyt üzrə 12 dərəcə istiləşmə Yerin bəzi rayonlarında nəm termometrin kritik temperatur limitinin xeyli artmasına gətirib çıxaracaqdır, 21 dərəcə istiləşmə isə planetin əhalisinin yarısını məhv edəcəkdir. Yeni Cənubi Uels Universitetinin professoru Stiven Şervud öz məqaləsində xəbərdarlıq edərək bildirmişdir: "Belə temperaturu bizim əsrdə görəcəyimiz ehtimalı son dərəcə az olsa da, növbəti əsrdə bu, baş verə bilər".

SÜNİ QAN HÜCEYRƏLƏRİ

Süni surətdə yaradılmış qan hüceyrələrini insana köçürmüşlər

Söhbət laboratoriyada yetişdirilmiş qırmızı qan hüceyrələrindən gedir. Alimlərin dediklərinə görə, bu, süni qan yaradılması yolunda atılmış ilk əhəmiyyətli addımdır. Pyer və Mari Küri Universitetində Lük Due öz həmkarları ilə birlikdə könüllülərin iliyindən qan yaradan hüceyrələri ayıra bilmişlər.

Bu hüceyrələr qırmızı qan hüceyrələrində yaradılmışdır, inkişaf faktorlarından ibarət kokteyldən istifadə edilməsi buna kömək göstərmişdir. Hüceyrələri izləmək üçün nişanlanandan sonra alimlər 10 milyard hüceyrəni (təqribən 2 millilitr qan) donorun qanına yeritmişlər.

Beş gün keçdikdən sonra hüceyrələrin 94-100 faizi orqanizmdə mövcudluğunu davam etdirmişdir. 26 gündən sonra isə onların artıq 41-63 faizi qalmışdır. Bu cür yaşama qabiliyyəti adi qırmızı qan hüceyrələri ilə müqayisə olunasıdır. Bundan başqa, süni surətdə yaradılmış hüceyrələr təhlükəsizdir (onlar bədxassəli hüceyrələrə çevrilmirlər), oksigenlə normal birləşib onu azad edir. Eksperimentin müvəffəqiyyəti bundan ibarətdir ki, yaxın gələcəkdə biz qeyri-məhdud miqdarda qan hazırlanması texnologiyasını əldə edə biləcəyik. Bundan əvvəl də alimlər qan əvəzedicisi yaratmağa cəhd göstərmişlər, lakin məhsulun təhlükəsizliyi və səmərəsizliyi problemləri ilə qarşılaşmışlar. Yaxın vaxtlarda Due süni qan hüceyrələrinin tez, çox miqdarda və nisbətən ucuz istehsalına nail olmağa çalışacaqdır. Alimlərin hesablamalarına görə, bir köçürməyə 400 litr yetişdirilmiş maye tələb olunacaqdır.

MOZAİKA



BERLUSKONİ MUSİQİÇİ OLMAĞA QƏRAR VERDİ

İtaliyanın sabiq baş naziri Silvio Berluskoni ciddi şəkildə musiqi ilə məşğul olmağı qərara alıb

"Exo Moskvı" radiosunun verdiyi məlumata görə, Silvio Berluskoni özünün bəstələdiyi musiqi və balladalardan ibarət disk buraxmağa hazırlaşır. Berluskoni gəncliyində turistlər üçün mahnı oxumaqla pul qazanıb. O, hazırda peşəkar albom üzərində işləyir.

DÜNYANIN ƏN ÇOX TOY TƏŞKİL EDİLƏN ŞƏHƏRİ

İstanbul bu sahədə ən məşhur və böyük şəhərləri geridə qoyub

Lent.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, dünyanın ən çox toy mərasimi təşkil edilən yer İstanbul imiş. İldə 166 min cütlük Türkiyənin bu gözəl şəhərində toy edir. Ümumiyyətlə, ölkədə evlənənlərin orta yaş həddi qadınlarda 24, kişilərdə isə 27-dir.

Son vaxtlar İstanbulda keçirilən toyların təxminən 40 faizini əcnəbilərin nikahı təşkil edir. Bunların arasında Livan, Azərbaycan, ABŞ, Rusiya, Yunanıstan, Kanada, Almaniya, İsveçrə, İngiltərə kimi ölkələrin vətəndaşları var. Əcnəbilərin əksəriyyətinin seçimi Bosfor boğazı olur. Toy edən avropalılar və amerikalılar türk mətbəxinə, azərbaycanlılar və iranlılar isə öz yeməklərinə üstünlük verirlər.

Dünyada ən çox toy mərasiminin keçirildiyi yerlərin siyahısında ikinci yeri 114 min toyla Las Veqas tutur.

DÜNYANIN ƏN MƏŞHUR VİLLALARINDAN BİRİ

ABŞ-ın San-Diyeqo şəhərində, Sakit Okeanın sahilində yerləşən villa satılıb



Bir çox məşhur reklama çəkilən, amma indiyədək daimi yaşayışın olmadığı villa 45 milyon dollara satışa çıxarılmışdı.

Milli.Az xəbər portalı NBC-yə istinadən bildirir ki, Birləşmiş Ştatların şərq sahilində yerləşən villa ilkin qiymətindən təxminən 3 dəfə ucuz, 14,1 milyon dollara alınıb. Ümumi sahəsi 11 min kvadrat metrlik villada 4 yataq otağı və 6 hamam, bir neçə soba, qonaq evi və nəhəng hovuz var.

Villanın yeni sahibinin adı açıqlanmır.

Görkəmli memar Uolles Kanninqemin layihəsi əsasında inşa edilmiş villanın unikal konstruksiyası var. Ağ betondan inşa edilmiş villanın böyük hovuzu olmaqla yanaşı, çimərliyə əlahiddə çıxışı da var.

AVROPANIN ƏN BÖYÜK VƏ ƏN KİÇİK POLİSİ

Britaniyanın paytaxtı Londonun yaxınlığındakı Koulsdon şəhərində yaşayan 25 yaşlı Entoni Uallin ölkənin ən nəhəng polis əməkdaşı sayılır



The Sun bildirir ki, 25 yaşlı polis konsteblinin boyu 2,2 metr, çəkisi 146 kiloqramdır. 52 ölçüdə ayaqqabı geyinən Entoni bütün həmkarlarına yuxarıdan aşağı baxmaq məcburiyyətindədir.

Londonda işləyən Entoninin dediyinə görə, küçələri rahatlıqla seyr edir.

Az qala bir elektrik fənər dirəyi hündürlükdə olan Entoni boyu ilə bağlı heç bir problem hiss etmədiyini bildirib.

"Məni görənlər heyrətlənirlər. Şəkil çəkdirmək istəyənlər çoxdur. Xüsusilə də Big Ben saat qülləsinin yanında durub şəkil çəkdirmək istəyirlər. Boyum da işimə yarayır. Məsələn, Trafalqar meydanında bir hadisə baş verəndə onu uzaqdan görürəm", - Entoni deyib.

Londonda çalışan Syu Dey isə Britaniya ilə yanaşı, Avropanın də ən balacaboy polis zabiti sayılır. 37 yaşlı xanım Syunun boyu cəmi 148 sm-dir.

"TOKYO SKY TREE" GİNNESİN REKORDLAR KİTABINDA

Yaponiya paytaxtında inşası tamamlanmaq üzrə olan "Tokyo Sky Tree" ("Tokionun Göylər Ağacı") qülləsi dünyanın ən hündür retranslyasiya qülləsi kimi Ginnesin rekordlar kitabına daxil edilmişdir

Ginnesin rekordlar kitabını nəşr edən Böyük Britaniya nəşriyyatının prezidenti bu barədə sertifikatı "Tobu Tower Sky Tree" şirkətinin rəhbərliyinə təqdim etmişdir.

Tikintisinə 2008-ci ilin iyulunda başlanmış "Tokyo Sky Tree" qülləsinin hündürlüyü 634 metrdir. Əvvəllər Tokio televiziya qülləsi və ya yerləşdiyi ərazinin adına görə Sumida qülləsi adlandırılan tikili 2008-ci ilin aprel-may aylarında keçirilmiş müsabiqənin nəticələrinə əsasən, "Tokionun Göylər Ağacı" adlandırılmışdır. Qüllənin əsas funksiyası rəqəmsal televiziya və radio verilişlərinin translyasiyası olacaqdır. Bundan əlavə, qüllədə 300-dək butik, restoran, akvarium, planetari və teatr da açılacaqdır.

Bu ilin mayından başlayaraq qüllənin turistləri qəbul edəcəyi gözlənilir.



RUSİYALI MİLYARDERDƏN QIZINA MÖHTƏŞƏM HƏDİYYƏ

ABŞ-ın Nyu-York şəhərindəki ən bahalı mənzil artıq rusiyalı oliqarxın qızına məxsusdur

Milyarder Dmitri Rıbolovlev Nyu-Yorkun Manhetten səmtində 10 otaqlı apartamenti 88 milyon dollara alaraq, qızına hədiyyə edib. Mənzilin ümumi sahəsi 626 kvadrat metr, terras və eyvanların sahəsi isə 190 kvadrat metrdir.

CNN bildirir ki, "15 Central Park West" ünvandakı binada yerləşən mənzil Sendrof Ueyl ailəsindən satın alınıb.

Rusiyalı milyarderin 22 yaşlı qızı Yelena isə Nyu -Yorka yollananda həmin mənzildə qalmaq niyyətindədir.

7 yaşından bəri Monakoda yaşayan Yelena Rıbolovlevanın İsveçrədə də malikanələri və mənzilləri var.

AZƏRBAYCANDA İLİN 10 ƏN GÜCLÜ İDMANÇISI MƏLUM OLDU

Dekabrın 23-də "Buta" sarayında ilin idman yekunları ilə bağlı mərasim keçirildi və müxtəlif nominasiyalar üzrə qaliblər mükafatlandırıldı



Valentin Demyanenko



Məhəmmədrəsul Məcidov



Rövşən Bayramov



Şərif Şərifov



Ramin Əzizov



Mariya Stadnik



Teymur Məmmədov



Aliyə Qarayeva



İlqar Müşkiyev



Valentin Xristov

10 ən güclü idmançı siyahısına kanoe, boks, güləş, taekvondo, bədii gimnastika, cudo və ağırlıqqaldırma üzrə dünya çempionatlarının qalib və mükafatçıları daxil ediliblər. Onlardan 4-ü dünya çempionu, 1-i olimpiya lisenziyalı dünya təsnifat turnirinin qalibi, 2-si dünya çempionatının gümüş, 4-ü isə bürünc mükafatçısıdır. Fərqləndirilənlərdən 3-ü güləşçi, 2-si boksçudur; digər idman növlərinin payına isə hərəyə 1 idmançı düşüb.

Beləliklə, 10 ən güclü idmançı bunlardır:

1. Valentin Demyanenko – kanoe üzrə Avropa çempionatının ikiqat qalibi və dünya çempionu
2. Məhəmmədrəsul Məcidov – boks üzrə dünya çempionu
3. Rövşən Bayramov – yunan-Roma güləşi üzrə dünya çempionu
4. Şərif Şərifov - sərbəst güləş üzrə dünya çempionu
5. Ramin Əzizov – taekvondo üzrə dünya olimpiya təsnifat turnirinin qalibi
6. Mariya Stadnik – qadın güləşi üzrə dünya çempionatının gümüş mükafatçısı
7. Teymur Məmmədov – boks üzrə Avropa çempionu və dünya çempionatının gümüş mükafatçısı
8. Aliyə Qarayeva – bədii gimnastika üzrə dünya çempionatının bürünc mükafatçısı
9. İlqar Müşkiyev – cüdo üzrə dünya çempionatının bürünc mükafatçısı
10. Valentin Xristov – ağırlıqqaldırma üzrə dünya çempionatının bürünc mükafatçısı

Digər nominasiyalara gəldikdə, Hicran Şərifov (güləş) ilin məşqçisi, şahmat üzrə kişilərdən ibarət Azərbaycan millisi ilin komandası, voleybolçu qadınlar arasında dünya çempionu "Rabitə" ilin klubu, Azərbaycan Boks Federasiyası ilin federasiyası, "Kür" Olimpiya Mərkəzi ilin idman qurğusu seçiliblər. Əjdər Cəfərov (güləş), Vahid Nəzərov (ağırlıqqaldırma) və Faiq Həsənov (şahmat) ilin hakimləri sayılıblar. Albert Cəfərov (futbol) isə ilin veteran idmançısı kimi mükafatlandırıldı.

700-DƏN ÇOX MEDAL

Azərbaycan idmançıları başa çatmaqda olan 2011-ci ildə iştirak etdikləri beynəlxalq yarışlarda 700-dən çox medal qazanıblar

Bu barədə jurnalistlərə açıqlamasında gənclər və idman naziri Azad Rəhimov məlumat verib.

İdmançılarımızın çıxışını uğurlu sayan nazir bildirib ki, ötən il həmyerlilərimiz dünya, Avropa və mötəbər beynəlxalq turnirlərdə 675 medal qazanmışdısa, bu il medalların sayı 700-ü keçib.

2011-Cİ İLDƏ AZƏRBAYCAN GİMNASTLARI 172 MEDAL QAZANMIŞLAR

Başa çatmaqda olan Olimpiaqabağı ildə Azərbaycan gimnastları 172 medal qazanmışlar. Onlardan 51-i qızıl, 53-ü gümüş, 68-i bürünc mükafatdır

AzərTAc Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətinə istinadən xəbər verir ki, qazanılmış ən başlıca titul Monpelyedə keçirilmiş dünya çempionatında çoxnövçülük üzrə finalda Aliyə Qarayevanın qazandığı bürünc medaldır. Minskdə keçirilmiş Avropa çempionatında iplə hərəkətlərdə yarışların finalında ölkənin yeniyetmələrdən – Lalə Yusifova, Ayişə Mustafayeva, Aynur Cabbarlı, Mənsurə Bağıyeva, Siyana Vasileva və Səbinə Qaratovadan ibarət qrup komandasının 3-cü yerə çıxması da əhəmiyyətli hadisə hesab olunur. Müxtəlif mükafatların "ən ağır yükünü" gənc gimnast Ləman Hacızadə daşıyır: 26! O, milli komandanın lideri Qarayevadan (5 qızıl, 3 gümüş və 17 bürünc) və digər perspektivli gənc gimnast Gülsüm Şəfizadədən (9 - 6 -10) bir medal çox qazanmışdır. 12 yaşlı Ləman qızıl və gümüş mükafatların sayına görə də irəlidə gedir: müvafiq olaraq 15 və 8.

Ümumiyyətlə, medallar 28 gimnast və dörd qrup komandası tərəfindən qazanılmışdır. Azərbaycan Gənclər və İdman Nazirliyi də ilə yekun vurmuşdur. Bir il bundan əvvəl olduğu kimi, yenə də gimnast Aliyə Qarayeva digərləri ilə yanaşı ölkənin on ən yaxşı idmançısı sırasına daxil olmuşdur. O, mundialın bürünc medalına 2012-ci ildə Londonda keçiriləcək Olimpiya oyunlarına lisenziyanı əlavə etmişdir.

ƏN HÜNDÜR 7 ZİRVƏNİN FƏTHİ



Amerikalı Cordan Romero 15 yaşında dünyanın ən yüksək 7 zirvəsini fəth edərək rekorda imza atmışdır

Dekabrın 21-də atası və ögey anası ilə birlikdə Antarktidadakı Vinson Massivi dağına dırmaşmağa başlayan Cordan ayın 25-də axşam hündürlüyü 4892 metr olan zirvəyə çatmışdır.

Cordan 10 yaşında Afrikanın ən hündü
yaşında isə dünyanın ən yüksək zirvəsi Everesti fəth etmişdir.

Cordan demişdir ki, ən böyük arzum dünyanın ən hündür zirvələrinə qalxmaq olmuşdur. Bu arzumu həyata keçirməkdə mənə ailəm kömək etmişdir.

Əvvəlki rekord ingiltərəli Core Atkinsona məxsus idi. Belə ki, o, 16 yaşında dünyanın ən hündür 7 zirvəsinə qalxa bilmişdi.

OLİMPİADALAR TARİXİNDƏ ƏN BÖYÜK MEDALLAR

Böyük Britaniya Krallığı Sikkəxanası 2012-ci il London Yay Olimpiya Oyunları üçün medal istehsalına başlayıb

85 mm diametrə və 7 mm qalınlığa malik medalların çəkisi 400 qramdır.

Bu, Yay Olimpiya Oyunları tarixində ən böyük medal olacaq. Olimpiadanın davam edəcəyi 16 gün ərzində 300-dən çox yarışda 2100-dən artıq medal təqdim olunacaq. Sikkəxana qarşıdakı yarışlar üçün 4700 medal istehsal edəcək. Onların istehsalı ilə 800-dək insan məşğul olacaq.

Qeyd edək ki, XXX Yay Olimpiya Oyunları 2012-ci il iyulun 27-dən avqustun 12-dək davam edəcək.

2012-Cİ İL ÜÇÜN "XƏZƏR XƏBƏR" JURNALINA
ABUNƏ ELANI

Xəzər Universitəsinin elmi-kütləvi və ədəbi-publisistik nəşri olan "Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və qismən rəngli çap olunur.

Jurnalda Azərbaycan, türk, rus və ingilis dillərində tələbə həyatı, təhsil yenilikləri, elm, sənət, ədəbiyyat, mədəniyyət, turizm və idmana aid müxtəlif materiallar və maraqlı xəbərlər dərc olunur.

2012-ci il üçün "Xəzər Xəbər" jurnalına "Azərmətbuatyayımı" ASC-nin şəhər və rayon mətbuat yayımı şöbələrində, "Qasid" ASC-nin xətti ilə isə aşağıdakı ünvanlarda hər ayın 20-dək növbəti aydan etibarən abunə yazılmaq olar (fevral ayından ilin sonunadək abunə haqqı 20 manat, ilin həm birinci, həm də ikinci yarısı üçün 10 manatdır):

"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66

1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosunun yanı, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40

"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43

"Xəzər Xəbər" jurnalına, həmçinin, "Metro-Servis" MMC-də abunə yazılmaq olar. Tel.: 434-01-33; 434-93-01

"Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən almaq olar.

"Xəzər Xəbər"ə abunə yazılın!
"Xəzər Xəbər"i oxuyun!
"Xəzər Xəbər"ə yazın!

"Elm və Sənət Məclisi"nin Məşğələsi

52



Dekabrın 27-də Xəzər Universitetində ənənəvi "Elm və Sənət Məclisi"nin 52-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, bu günə kimi keçirilmiş "Elm və Sənət Məclisi"nin məşğələlərində ən çox iştirak edən və yüksək elmi fəallıq göstərmiş Əməkdar elm xadimi, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru Süleyman Əliyarlını məclis iştirakçılarına təqdim etdi. S. Əliyarlının məruzə edəcəyi mövzunu - "Epos və türk tarix öncəsi (prehistoria)" - elan etdi. Bu günə kimi bu sahədə aparılmış tədqiqatların qısa xülasəsi ilə mövzuya giriş verdi.

S. Əliyarlı elan olunmuş mövzu ilə əlaqədar geniş məruzə etdi. Məruzədən sonra o, məclisdə iştirak edən müxtəlif elm adamlarının suallarını cavablandırdı. Məruzə ətrafında aşağıdakılar çıxış etdilər: Esmiralda Həsənova (AMEA-nın Şərqşünaslıq İnstitutu), Şahin Fazil (AMEA-nın Tarix İnstitutu), Şirməmməd Hüseynov (BDU-nun professoru), Hamlet İsaxanlı, Fərda Əsədov (Xəzər Universiteti), Elmira Muradəliyeva (BDU-nun professoru), Əli Şamilov, Rafiq Səfərov (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu), Zərnişan Azayeva (AzTV-nin "Turan" proqramı) və digərləri çıxış etdilər. Sonda xatirə şəkilləri çəkildi.





XARİCİ SƏFƏRİN NƏTİCƏLƏRİNƏ HƏSR OLUNMUŞ TƏQDİMAT

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Xalidə Qasımova və müəllimi Aysel Əzimova noyabrın 28-dən dekabrın 3-dək təcrübə mübadiləsi proqramı üzrə Ankarada yerləşən Orta Doğu Texniki Universitetinə (ODTU) göndərilmişdilər. Proqramın məqsədi ODTU-nun Xarici dillər fakültəsinin təhsil sistemi ilə tanışlıq idi. Beş günlük səfər müddətində müəllimlər fakültənin Təməl ingilis dili və Müasir əcnəbi dillər kafedralarının işçi heyəti ilə görüşmüş, Akademik yazı mərkəzi, Test hazırlığı şöbəsi, Müəllimləri təkmilləşdirmə şöbəsi, tələbələr üçün nəzərdə tutulmuş Özünütəkmilləşdirmə mərkəzində iş prosesi ilə yaxından tanış olmuşlar. Eyni zamanda, akademik siyasəti izləmək üçün bütün səviyyələrdə dərslərdə iştirak etmişlər.

Dekabrın 27-də Xəzər Universitetinin konfrans zalında İngilis dili və ədəbiyyatı departamentinin müəllimlərinin iştirakı ilə səfərin nəticələrinə həsr olunmuş geniş təqdimat keçirildi. Təqdimatda iştirakçılara ODTU-nun İngilis dilli bölümləri və onların akademik siyasəti barədə ətraflı məlumat verildi. ODTU-nun akademik siyasətinin İngilis dili və ədəbiyyatı departamentində Xəzər Universitetinin akademik siyasətinə uyğunlaşdırılaraq tətbiq olunmasının mümkünlüyü müzakirə edildi. Təqdimatda iştirak edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı müvafiq dəyişikliklər edilməsi ilə koordinasiya şurasının yaradılmasının vacibliyini və bunula bağlı öz tövsiyələrini bildirdi.



XƏBƏR-NEWS QRUPUNUN İLK MÜŞAVİRƏSİ VƏ TƏLİMİ

Dekabrın 28-də Xəzər Universitetində yeni yaradılmış Xəbər-News Qrupu informasiya üzrə qurum təmsilçilərinin iştirakı ilə ilk müşavirəsini və təlimini keçirdi. Universitetin bütün qurumlarında yaradılmış informasiya üzrə təmsilçi təsisatı da yenidir və bu yeniliklərdən məqsəd universitetdə xəbər hazırlanması və dövriyyə sistemini təkmilləşdirməkdən ibarətdir. Yeniliklər Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının müvafiq əmri ilə təsbit olunmuşdur.

Müşavirəni qrupun rəhbəri, "Xəzər Xəbər" jurnalı baş redaktorunun müavini, əməkdar jurnalist Əlirza Balayev açaraq, həmin əmrin bir sıra müddəalarını ətraflı şərh etdi, informasiya üzrə qurum təmsilçilərinin vəzifələrini və onların icrası üsullarını aydınlaşdırdı, müvafiq sualları cavablandırdı.

Sonra müşavirənin iş planına uyğun olaraq informasiya üzrə qurum təmsilçiləri üçün xəbər hazırlanması mövzusunda ilk təlim keçirildi. Təlimi universitetin Jurnalistika departamentinin müəllimi, fəlsəfə doktoru Vəfalı Ənsərov apardı.

Qurum təmsilçilərinin fəal iştirak etdikləri müzakirələr zamanı müşavirənin həsr olunduğu mövzuya aid bir sıra digər məsələlərə də aydınlıq gətirildi.

"PSİXOLOGİYA" GÜNÜ"







Dekabrın 16-da Xəzər Universitetinin Mərmər salonunda universitetin Psixologiya Departamentinin təşkilatçılığı və Humanitar və sosial elmlər fakültəsinin psixologiya ixtisası üzrə ikinci kurs tələbələrinin fəal iştirakı ilə "Psixologiya günü" keçirildi. Tədbirdə universitetin müəllim və tələbələri, digər dəvət olunmuş qonaqlar iştirak edirdilər. Tədbiri Xəzər Universiteti Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru Ülkər İsayeva açaraq, mövzu ilə əlaqədar ümumi məlumat verdi.

Tədbirdə "psixologiya" anlayışı və hal-hazırda mövcud olan psixoloji xəstəliklərdən danışıldı; şizofreniya, depressiya və intihar, maddə aludəçiliyi, davranış pozuntusu, Daun sindromu və s. mövzular iştirakçıların böyük marağına səbəb oldu.

Tədbirdə iştirak edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanli tədbirdən çox razı qaldığını bildirib, tələbələri təbrik etdi.

"SONUNCU MİSSİYANIN BAŞLANĞICI"

Dekabrın 21-də Xəzər Universitetinin Kitab klubunda universitetin məzunu Tural Babayevin detektiv janrında yazdığı "Sonuncu missiyanın başlanğıcı" kitabının təqdimat mərasimi keçirildi. Mərasimdə universitetin tələbələri və Turala dərs demiş müəllimlər fəal iştirak etdilər. Müəllif kitab haqqında qısa məlumat verdikdən sonra suallara cavab verdi. Sonra o, tələbələrin aldığı kitabları imzaladı. Sonda Tural Babayev təqdimatın təşkilinə görə universitet rəhbərliyinə təşəkkürünü bildirdi.



"FİKİR SEXİ" KİTABININ TƏQDİMATI

Xəzər Universiteti Kitab klubunun və universitetin məzunu Anar Gəraylının təşəbbüsü ilə dekabrın 22-də klubda "Esquire" jurnalının materialları əsasında hazırlanmış "Fikir sexi" kitabının təqdimat mərasimi keçirildi. Mərasimdə kitabın altı tərcüməçisindən biri olan, "Azadlıq" radiosunun əməkdaşı Turxan, universitetin müəllimləri Dilbər Zeynalova, Aydın xan Əbilov, Zərifə Əliyeva və yazıçı Qismət Rüstəmovun iştirakı ilə maraqlı fikir mübadiləsi aparıldı.

AKADEMİK ZİYA BÜNYADOVUN XATİRƏSİ YAD EDİLDİ



Azərbaycanın görkəmli tarixçisi və şərqşünas alimi, tanınmış ictimai xadim, tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun 90 illik yubileyi ilə əlaqədar Xəzər Universitetinin Təhsil fakültəsinin tələbələri dekabrın 21-də Fəxri Xiyabanda təşkil olunmuş mərasimdə iştirak etdilər. Zəngin və çoxşaxəli yaradıcılığı sayəsində Ziya Bünyadov respublikamızda tarix elminin yeni mərhələyə yüksəldilməsi işinə layiqli töhfələr verib. Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair uzun illər ərzində meydana gətirdiyi fundamental tədqiqatlar, eləcə də orta əsrlərə aid çoxlu mənbələrin tərcüməsi ilə yanaşı onlara yazdığı geniş şərhlər alimə böyük şöhrət qazandırıb.

Mərasimdə Ziya Bünyadovun həmkarları, həyat yoldaşı Tahirə Bünyadova və ailə üzvləri iştirak edirdilər. AMEA-nın vitse - prezidentləri Arif Həşimov və Nailə Vəlixanlı, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva çıxış edərək, Ziya Bünyadovun zəngin elmi irsindən söz açdılar, onun haqqında xatirələrini söylədilər.

Sonda Xəzər Universitetinin tələbələrinin Tahirə xanım Bünyadova ilə maraqlı söhbəti oldu; o, Ziya Bünyadov ilə bağlı xatirələrini tələbələrlə bölüşdü.

BİZNES İNKUBATORLARIN FƏALİYYƏTİ VƏ GƏNCLƏRİN MOBİL SAHİBKARLIĞINA DƏSTƏK

Dekabrın 14-də Bakıda Hilton otelində "Biznes inkubatorların fəaliyyəti və gənclərin mobil sahibkarlığına dəstək: dünya ölkələrində qazanılmış təcrübə və Azərbaycanda bu sahənin inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfrans Gənclər və İdman Nazirliyi, "Xəzər" İnvestisiya Mərkəzi və ECAbit beynəlxalq şəbəkənin təşkilatçılığı və Dünya Bankının "İnfoDev" proqramının, Bakcell və Alcatel-Lucent şirkətlərinin dəstəyi ilə təşkil olunmuşdu.

Konfransın əsas məqsədi biznes inkubatorların fəaliyyəti sahəsində beynəlxalq təcrübəni öyrənərək, Azərbaycanda bu sahənin yaradılmasının perspektivlərini araşdırmaq və bu prosesə gəncləri cəlb etməkdən ibarət idi. Konfransda Almaniya, Polşa, Rumıniya, Bolqarıstan, Montoneqro, Ukrayna və Belarus nümayəndələri tərəfindən bu ölkələrin təcrübəsi təqdim olundu, biznes inkubatorların fəaliyyətinə dair fikir mübadilələri aparıldı.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin 2-ci kurs tələbəsi Rasim Acalov İqtisad universitetinin tələbələri Aygün Cabbarzadə və Aqşin Abdulla ilə hazırladığı biznes planı təqdim etdi.



DOĞU AKDENİZ UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞ

Dekabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Şimali Kipr Türk Cümhuriyyətinin Doğu Akdeniz Universitetinin rektoru Abdullah Öztoprak ilə görüşdü. Görüşdə iki universitet arasında tələbə - müəllim mübadiləsi və digər əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdən sonra qonaqların şərəfinə nahar süfrəsi açıldı. Xəzər Universitetinin rektoru professor Con Rayder və Beynəlxalq əlaqələr üzrə prorektor Fərda Əsədov da Hamlet İsaxanlı və qonaqlarla bərabər nahar etdilər.





FRANSALI ARXEOLOQ "XƏZƏR"DƏ

Fransadan Bakıya gəlmiş arxeoloq Laurens Astrik noyabrın 21-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentində olmuşdur. O, Tovuz rayonunda beynəlxalq arxeoloji ekspedisiyada iştirak etməsindən danışmış, trasoloji və texnoloji üsullarla daş alətlərin öyrənilməsi sahəsində apardığı tədqiqat işini departamentin müdiri Roza Arazova ilə müzakirə etmişdir. R. Arazova tədqiqat işi ilə əlaqədar mülahizələrini bildirmişdir.



"KARYERA PLANLAŞDIRILMASI" MÖVZUSUNDA TƏLİM





Noyabrın 25-26-da Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetin tələbələri üçün "Karyera planlaşdırılması" üzrə ikigünlük təlim keçirildi. Təlimçilər – Xəzər Universiteti Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru Ülkər İsayeva, "Konsilium MMC" şirkətinin baş direktoru Aydın Əhmədzadə və Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev iştirakçılara mövzu ilə əlaqədar ətraflı məlumat verdilər. Tələbələrin xahişi ilə psixologiya və marketinqlə bağlı da müzakirələr aparıldı. Təlimdə iştirak edənlərə sertifikat təqdim edildi.

SCHLUMBERGER ŞİRKƏTİNİN HƏDİYYƏSİ



Schlumberger şirkəti Xəzər Universitetinin Neft mühəndisliyi departamentində aparılan tədris prosesini və elmi-tədqiqat işlərini müasir kompüter proqramları təminatı bazasında daha səmərəli həyata keçirmək məqsədilə dekabrın 2-də Neft mühəndisliyi departamentinin "Neft və qaz yataqlarının modellənməsi" laboratoriyasına "Geoquest Systems B.V." şirkətinin Petrel, Techlog və OFM kimi proqram təminatlarını hədiyyə etmişdir. Bununla əlaqədar müqavilə imzalanmışdır. Müqaviləni Schlumberger şirkəti tərəfindən Azərbaycan üzrə Baş menecer Rob Algie və Xəzər Universiteti tərəfindən universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı imzalamışlar. Tədbirdə, həmçinin, Schlumberger şirkəti ilə Xəzər Universiteti arasında daha geniş əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. Şirkətin nümayəndələrini universitetin rektoru Con Rayder qəbul etmişdir.

TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN QONAĞI



Noyabrın 29-da Amsterdam Universitetinin (Niderland) tarixçi əməkdaşı, eyni zamanda, pianoçu Sara Krombaç (Sara Crombach) Xəzər Universitetinin Tarix və arxeologiya departamentində qonaq oldu. O, mərhum akademik Ziya Bünyadovun elmi və pedoqoji fəaliyyəti ilə maraqlandığı üçün departamentin müdiri Roza Arazovaya müraciət etmişdi. Görüşdə onu maraqlandıran bütün suallar cavablandırılmış, maraq doğuran məlumatlar geniş şəkildə izah edilmişdir. Sonda xatirə şəkilləri çəkilmiş və Sara Krombaç departamentə özünün pianoda ifa etdiyi melodiyalardan ibarət diski hədiyyə etmişdir.

Universitetimizin yeni nəşrləri

GÖRKƏMLİ MAARİFPƏRVƏR HAQQINDA KİTAB

Pedoqoji elmlər üzrə fəlsəfə doktoru İsaxan İsaxanlının yeni kitabı Azərbaycanda ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması məsələsinə həsr edilmişdir. Kitabda ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması uğrunda mübarizədə tanınmış pedaqoq, dilçi, jurnalist, yazıçı-publisist, görkəmli ictimai xadim Fərhad Ağazadənin rolu geniş araşdırılır, onun həyat və fəaliyyəti ilə bağlı maraqlı məqamlar üzə çıxarılır. Kitabda arxiv materiallarından geniş istifadə olunmuş, maraqlı sənədlər, fotoşəkillər təqdim edilir. Kitabın redaktoru professor Hamlet İsaxanlıdır.





ARXEOLOQ-ALİM

İLYAS BABAYEV XƏZƏR UNİVERSİTETİNDƏ

Dekabrın 6-da AMEA-nın müxbir üzvü İlyas Babayevin Xəzər Universiteti Təhsil fakültəsinin tarix ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü oldu. İlyas Babayev Azərbaycanda 30 ildən artıq arxeoloji qazıntılar aparmış, çoxsaylı arxeoloji tapıntılar və yazılı qaynaqlar əsasında Azərbaycanın qədim möhürlərini, sikkələrini, şəhər mədəniyyətini, sinifli cəmiyyət və dövlətin yaranması problemini və beynəlxalq əlaqələrini, siyasi tarixini tədqiq etmişdir. 170-dən çox elmi əsərin, 8 kitabın və xaricdə dərc olunmuş 47 elmi məqalənin müəllifidir.

Tədbirdə Qafqaz Albaniyasında və əsasən Qəbələdə aparılmış arxeoloji qazıntılar nəticəsində tapılmış maddi mədəniyyət abidələri haqqında danışıldı. İ. Babayev tələbələri maraqlandıran sualları cavablandırdı.

"TELERADİO APARICILIĞI" MÖVZUSUNDA TƏLİM



Xəzər Universitetinin Jurnalistika departamenti və Azərbaycan Tədris Akademiyasının (*Azerbaijan Study Academy –ASA*) birgə təşkilatçılığı ilə dekabrın 20-də universitetdə "Teleradio aparıcılığı" mövzusunda təlim keçirildi. Təlimi universitetin Jurnalistika departamentinin müəllimi, media araşdırmaçısı, fəlsəfə doktoru Vəfalı Ənsərov açaraq, teleradio aparıcılığının müasir vəziyyəti barədə qısa məlumat verdi. Təlimçilərdən tanınan teleaparıcı Nərgiz Cəlilova aparıcılıq sənətinin incəliklərindən bəhs etdi və bu sənətdə xüsusən şivəyə, ləhcəyə və dialektə yer olmadığını vurğuladı. ASA-nın qurucularından olan jurnalist İlhamə Novruzova teleradio aparıcılığında nitq mədəniyyəti ilə yanaşı, savadın, intellektual səviyyənin və məlumatlılığın daha çox əhəmiyyət daşıdığını dilə gətirərək, radio aparıcılığının sirlərindən danışdı.

Tələbələrin fəal iştirakı ilə iki saatdan çox çəkən təlimdə aparıcılıqla yanaşı, teleradio məkanında ortaya çıxan müxtəlif problemlər də müzakirə olundu.

"DÜNYA"
MƏKTƏBİ
"Xəzər Xəbər" dərgisinin "Dünya" məktəbi üçün əlavəsi
Materialları "Dünya" məktəbinin müəllimi
Mədinə Karahan çapa hazırlamışdır



Mədinə Karahan

"DÜNYA" MƏKTƏBİNDƏ GÖRÜŞ

Dekabrın 14-də "Dünya" məktəbinin akt zalında "Dünya" məktəbi və Xəzər Universitetinin təsisçisi, universitetin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının məzunlar və yuxarı sinif şagirdləri ilə görüşü keçirildi. Görüşün əvvəlində o, 2010-2011-ci tədris ilində məktəbi bitirərək, ali məktəblərə yüksək balla qəbul olunan 3 tələbə gənci – Rabiyə Məmmədova, Ləman Cəfərli və Nərgiz Poladovanı xüsusi təbrik edərək, onlara hədiyyə verdi. Sonra H. İsaxanlı "Müasir gənclər və milli mənəvi dəyərlərimiz" mövzusunda söhbət apardı, iştirakçıları maraqlandıran sualları cavablandırdı.

Məzunlarla görüş çay süfrəsi arxasında davam etdi. Gənclər məktəbi bitirdikdən sonra dünyaya baxışları və planları haqqında ürək sözlərini söylədilər. Məktəbin direktoru Mərufə Mədətli və direktor müavini Çiçək Qaracayeva məzunlarla bağlı xatirələri yada saldılar. "Dünya" məktəbinin adını uca edən hər bir məzunumuza uğurlar arzulayırıq. Məzunlarımızın məktəblə bağlı ürək sözlərini sizə də təqdim edirəm.





MƏZUNLARIN ÜRƏK SÖZLƏRİ

Cəmiyyətə atıldığım ilk gündən məktəbin mənə verdiyi fərqli düşüncə tərzini hiss etdim. "Dünya" məktəbinin məzunu olduğum üçün xoşbəxtəm.

İnci Yusifli,
Xəzər Universiteti

***

İlk gündən orta təhsil ocağımın adını eşidən çevrəmdəki insanlarda mənim savadım, dünyagörüşüm haqda müsbət fikirlərin yarandığını hiss etdim. İnanın, çox sevindim. Hər kəs "Dünya" məktəbinin gözəl təhsil verdiyi fikrindədir.

Fərhad Ağayev,
Azərbaycan Diplomatik Akademiyası



"Dünya2 məktəbi ilə gec tanış olmağıma baxmayaraq, həyatımda bu məktəb və onun kollektivi xüsusi yer tutur. Bizim çox səmimi bir mühitimüz var idi: müəllimlərlə, sinif yoldaşlarımla balaca bir ailəni xatırladırdıq. Məktəbimizin direktorundan tutmuş bizə yemək hazırlayan mətbəx işçilərimizə kimi - hər kəs üçün darıxıram... Mənə dərs deyən, həyatı öyrədən bütün müəllimlərimə dərin təşəkkürümü bildirirəm. "Dünya" məktəbi kimi bir məktəblə yolumun kəsişməsinə çox sevinirəm... İnanıram ki, "Dünya" məktəbinin uğurları daim davam edəcək və bizdən sonra gələn məzunları da onun adını yüksəldəcək.

Şənay Məmmədova,
Türkiyə, Bilkent Universiteti

***

Məktəbi düşünərkən ən əvvəl tanıdığım sevimli insanları xatırlayıram... Bilirəm ki, uğurlarıma hamıdan əvvəl sevinən müəllimlərim və sinif yoldaşlarım olacaqlar... Ən böyük arzum hər iki ailə üzvlərimin-valideynlərimin və müəllimlərimin əməklərini doğrultmaqdır.

Ülkər Qaracalı,
Xəzər Universiteti

***

"Dünya" məktəbi dedikdə, ürəyimdə o günlərin həsrəti baş qaldırır... Özümü çox xoşbəxt hesab edirəm ki, belə gözəl bir kollektiv içində böyümüş və məzun olmuşam! Həqiqətən də, universitetə daxil olub yeni mühitlə tanış olduqdan sonra bizim məktəbin digər məktəblərdən çox fərqləndiyini gördüm. Bizim müəllimlərlə, sinif yoldaşlarımızla münasibətimiz əsl ailə münasibəti idi. Məktəbim, o doğma günlərim üçün çox darıxıram... İndi başa düşürəm ki, əslində, o illər bizim ürəyimizdə, həyatımızda necə gözəl izlər qoyub...

Səma Namazlı,
Azərbaycan Dövlət İqtisad Universiteti

MƏZUNLARIN ÜRƏK SÖZLƏRİ

"Dünya" məktəbi mənim həyatımda silinməyəcək izlər buraxdı... Məktəbdə birgə oxuduğum şagirdlər mənə ən yaxın dost, müəllimlər mənimçün valideyn oldular. Doğma məktəbimə uğurlar arzulayıram. Qoy məzunlarının səsi dünyanın hər yerindən eşidilsin...

Niftalı Qasımlı,
Bakı Dövlət Universiteti

***

İkinci evim bildiyim "Dünya" məktəbindən ayrılmağım o qədər də asan olmadı... Əgər mümkün olsaydı, yenidən "Dünya" məktəbinə qayıdıb, yenə orada təhsil alardım. Məktəbimizdəki müəllimlərimiz sayəsində müəllim peşəsinin necə müqəddəs olduğunu, sinif yoldaşlarımın sayəsində "dost" sözünün mahiyyətini öyrəndim. Məktəb illəri ömrümüzün ən gözəl illəridir. Çünki bu illərdə ayaqlarımız üzərində dayanmağı bacardıq...

Nərmin Yəhyalı,
Bakı Dövlət Universiteti

***

Mənim "Dünya" məktəbim, səndə keçən qayğısız və sevgi dolu günlərimçün çox darıxmışam. Həyatımın hər keçən günündə səni xatırlayıram. Və həmişə də üzümə təbəssüm qonur... Müəllimlərimə səslənirəm: sizi çox sevirəm! Məktəbə hər zaman sevə-sevə gələcəyəm, pillələrindən bir daha qalxmaq üçün, divarlarına bir daha toxunmaq üçün və sevimli müəllimlərimi görmək üçün!

Laçınxanım Hüseynli,
Qafqaz Universiteti



STUDENTS ARRANGE A SOCIAL EVENT

It was a great day. I mean the day when we were having a party. That was our idea to arrange it with Miss Ayten during our English class, as our lesson that day was a unit about social events in our English textbook Top Notch 3A. We learned how to assign responsibilities, to make a budget, to make invitations, to make a list of guests and so on. We learned a lot of new words and expressions about social events. When we made a party, we had a chance to practice all those words. Actually, my classmates Ayten, Tukaz, Ilaha, Chimnaz and Arzu had organized it well. They had done their best to make it more interesting. We made an imitation contest and Kamran became a winner and got a certificate. I want to thank my classmates for that great day.

Vugar Javadov,
group 8A pupil of Dunya School





FÜZULİ RİNDÜ ŞEYDADIR




Dekabrın 17-də Xəzər Universiteti Mərkəz kampusunun "Dünya" konsert salonunda "Dünya" məktəbinin müəllim və şagird kollektivinin hazırladığı "Füzuli rindü şeydadır" adlı ədəbi-bədii məclis keçirildi. Ecazkar sənəti ilə bəşər ictimai-bədii fikrinin korifeylərindən olan Məhəmməd Füzulinin poeziyasına müraciət etməkdən məqsəd şagirdləri şairin yaradıcılığı ilə daha dərindən tanış etmək, onlarda klassik ədəbi irsə maraq oyatmaq idi. Bu günə kimi bir çox yeni layihələrə imza atan "Dünya" məktəbinin müəllim və şagird kollektivi bu tədbirlə "Söz xəzinəmizdən" rubrikası ilə daha bir layihənin başlanğıcını qoydu.

"Dünya" məktəbi və Xəzər Universitetinin təsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Füzuli irsinin tədqiqatçıları – AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Teymur Kərimli, filologiya elmləri doktoru Möhsün Nağısoylu tədbirdə çıxış edərək, çoxşaxəli Füzuli yaradıcılığının məzmun və sənətkarlıq xüsusiyyətlərindən danışdılar.

"Dünya" məktəbinin kollektivi tərəfindən Füzulinin əsərlərindən hazırlanmış tamaşalar göstərildi və musiqi səsləndirildi. Tədbirdə "Leyli və Məcnun" operasının tarixini əks etdirən kiçik film də nümayiş etdirildi.

Tədbirin sonunda Azərbaycanın xalq artistləri Aygün Bayramova və Mənsum İbrahimov musiqi nömrələri ifa etdilər.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli səfiri Fəhd Bin Əli Əl Dosəri, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, xalq rəssamı Eldar Mikayılov, 525-ci qəzetin baş redaktoru Rəşad Məcid, AzTv-nin diktoru Rafiq Həşimov və digər tanınmış şəxslər tədbirin qonağı oldular.

Mədinə Karahan









During my early childhood, I was in a place I remember pretty well.
It was some years ago. That's why I recall everything very well.
I remember my birthday in Shamakhi. When I wanted to celebrate my birthday, first I asked my parents where I could celebrate it. They said that we could go to Shamakhi with our friends because their daughter also had a birthday.
It was Autumn. There were a lot of flowers, pimentos, yellow trees, some different fruits in Shamakhi... It was an amazing place.

Early in the morning the sun was peeping in through the little window. It was very interesting. Then I looked at the sun and got up, walked to the lake. When I looked at the lake, I really enjoyed it.
In the afternoon I walked in the forest with my friends and we were in two groups. The first group was my sister's. The second group was mine. Then we started to fight throwing fruits to each other. Then we rode horses but I was afraid of the horse because the horse didn't stop. He climbed to the top of the mountain. My cousin rode his horse pretty well. I became jealous when I watched his riding. I dreamed of growing up. I wanted to fall in love.
Finally, in the evening, I celebrated my birthday with my family and buddies. It was really a special day. I didn't forget that day.
Now I do not exactly remember what presents they gave me. But I recall that wonderful day. I thank my family and friends for this special memory...

by Nargis Yusifli,
student of the IB program at Dunya School

SPECIAL MEMORY

I remember the summer when I was nearly 5 or 6. My mum, my cousin, her mother and I went to the beach. We stayed in the hotel for a few days. Everyday my cousin and I played near the sea, picked up some flowers and stocked each other in the swimming pool. And one day we asked our parents to tell us the number of the entry door. So, we decided to play "spy girls". Rules of the game were the followings: We had a special code of our "base" and when we entered the hotel we had to go quickly downstairs from the fire exit, and after it my cousin offered me to write a letter for our "colleague" (he was a German from the next room). We wrote to him "Hello!", pushed it through his door, knocked the door and escaped. But the man ran behind us and shouted. We ran in high speed and stumbled. After that we ran to the fire exit. I remember how our hearts were beating because of fear and suspense. That flunky man couldn't catch us and he complained to the management of the hotel. I still remember his red face when he shouted at us. I suppose that I will never forget his angry face and his grey hair. Perhaps I will never forget how my mother scolded me.

Now it's very funny to remember all what happened. How innocent and very lovely we were! And it's a pity now these two spy girls (the agent 007 and the agent 008) have grown up into pretty ladies. But I will recall that adventure in amusement, enjoyment and tenderness. Those days we didn't think that other people would judge us. Because it was the best period of my childhood and it was the first experience of our spy career.

Sabina Hasanova,
student of the IB program at Dunya School





2012

January

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	**20**	21	22
23	24	25	26	27	28	29
30	31					

February

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29				

March

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Apri

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30						

May

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			

June

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	

July

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					

Augus

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

September

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23

October

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28

November

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25

Decembe

Mon	Tue	Wed	Thu	Fri	Sat	Sun
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23


"DÜNYA"DA
YENİ İL ŞƏNLİYİ
2012